Xalqın qəzeti!

# Xalq qəzeti

№ 191 (30885) 9 sentyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Bakı–Pekin: məmnunluq doğuran strateji tərəfdaşlıq

## Çinlə müttəfiqlik ölkəmizin regiondakı lider mövqeyini möhkəmləndirir

**Qlobal iqtisadi və siyasi güc mərkəzlərinin yenidən dizayn edildiyi mürəkkəb mərhələdə Azərbaycan manevr alətlərini genişləndirərək Çinlə strateji tərəfdaşlıq kursunu yeni mərhələyə daşıyır. Prezident İlham Əliyevin aprel ayında Pekinə dövlət səfəri iki ölkə arasında münasibətləri, sadəcə, ticarət dövriyyəsinin həcmi ilə ölçülməyən, geosiyasi koordinatlar üzərində qurulan strateji xəritə kimi təsbit edən hadisə oldu. Bu kurs ölkəmizi Cənubi Qafqazda Çin kapitalı, texnologiyası və logistikasının təməl dayağına çevirərək beynəlxalq iqtisadi-siyasi balansdakı çəkisini artırır, regiondakı status-kvonu isə yeni arqumentlərlə formalaşdırır.**

Çinin Fucien əyalətindəki Siamen şəhərində keçirilən 25-ci Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi (CIFIT) qlobal iqtisadi gündəmin mühüm hadisələrindən biridir. Çin Kommersiya Nazirliyinin və Fucien hökumətinin ev sahibliyi etdiyi sərgiyə 120-dən çox ölkə və regiondan nümayəndə heyətləri, 5 min beynəlxalq şirkət və 50 mindən çox iş adamı qatılıb.

*(ardı 4-cü səhifədə)*



## Şəhidlər Xiyabanı hoqqa səhnəsi deyil

*Kompleksdə vahid ziyarət qaydası olmalıdır*



**Şəhidlər Vətənin azadlığı və bütövlüyü uğrunda canlarını fəda edən müqəddəs zirvənin sahibləridir. Onlar millətin yaddaşında ölməz, tarixində əbədi iz buraxan qəhrəmanlardır. Onlar bizim həm keçmişimiz, həm bu günümüz, həm də gələcəyimiz üçün yol göstərən mayaklardır. Dövlətimizin başçısı və xalqımız şəhidlərin xatirəsini daim uca tutur, onları ehtiramla yad edirlər. Məhz buna görə şəhidlərin uyuduğu müqəddəs məkana – Şəhidlər xiyabanına münasibət xüsusi həssaslıq tələb edir.**

*(ardı 5-ci səhifədə)*

## Şərq paradiqmasının yüksəlişi

*ŞƏT sammiti və dəyişən güc konfiqurasiyası*




**Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) son sammiti beynəlxalq münasibətlər sistemində yeni mərhələnin başlanğıcını göstərən hadisə oldu. Sammit böyük güclərin qlobal səhnədəki qarşıdurma və yaxınlaşma dinamikasının vizual təsdiqi idi. Sammtin paradla müşayiət olunması təsadüfi deyildi: Çinin siyasi teatrı vasitəsilə dünyaya göstərdiyi əsas mesaj ondan ibarət idi ki, Qərbin dominant güc nümayişlərinə alternativ olaraq "Şərq paradiqması" formalaşır.**

Sammitdə Rusiya və Çin faktiki olaraq "vahid siyasi tandem" kimi çıxış etdi. Ukrayna müharibəsindən sonra Moskvanın Pekinə daha çox söykənməsi gözlənilən idi. Lakin ŞƏT platformasında bu yaxınlaşma ABŞ-a qarşı daha geniş geosiyasi konfiqurasiyanın elementinə çevrildi. Burada məqsəd yalnız hərbi balans yaratmaq deyil, həm də ideoloji müstəvidə rəqabəti genişləndirməkdir: "liberal dünya nizamına" qarşı "alternativ çoxqütblü nizam" konsepsiyası.

ardı səhifə ⇨ 4

## Rusiyada azərbaycanlıların təqib və sıxışdırılması davam edir

**"Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlılar təqib olunur. Azərbaycan–Rusiya münasibətlərinin gərginləşməsinə AZAL təyyarəsinin vurulması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranış səbəb olub.**

Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlıların təqib olunması, Yekaterinburq şəhərində azərbaycanlıların döyülərək qətlə yetirilməsi münasibətlərdə əlavə gərginlik yaradıb. Bununla yanaşı, Rusiyanın müxtəlif dövlət qurumlarının anti–Azərbaycana fəaliyyəti ikitərəfli münasibətlərə mənfi təsir edən amildir.

Yalnız qanunu pozanlar deyil, Rusiyada yaşayan azərbaycanlı sahibkarlar, diaspor nümayəndələri, ictimai fəallar müxtəlif hüquqazidd davranışlarla üzləşirlər. Onlar heç bir hüquqi əsas olmadan həbs olunur, işgəncələrə məruz qalır, ciddi təzyiqlərlə üzləşirlər.

*(ardı 5-ci səhifədə)*




## Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



səhifə ⇨ 6

## TRIPP marşrutu Transxəzər qaz kəmərinə "yaşıl" işıq yandırır




**Türkmənistan qazının Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə nəqlini nəzərdə tutan Transxəzər qaz kəməri ideyası yenidən aktuallaşıb. Xatırladaq ki, bu ideya ilk dəfə 1997-ci ildə irəli sürülüb. Həmin il Türkiyənin "Botaş" şirkəti ilə Türkmənistanın "Türkmənqaz" Dövlət Konserni arasında illik 30 milyard kubmetr olmaqla qaz alqı-satqısına dair kommersiya sazişi imzalanıb.**

ardı səhifə ⇨ 7

## Qırmızı imperiya 105 il əvvəl Azərbaycanı necə işğal edib?



səhifə ⇨ 8

## Gəl-gəl, məktəb günləri!



səhifə ⇨ 10

## İki ünvana köç, ikiqat sevinc



səhifə ⇨ 11

## Bakının dərdi var, yollar tıxacdır...



səhifə ⇨ 11

# Tacikistan Respublikasının Prezidenti Zati-aliləri cənab Emoməli Rəhmona

**Hörmətli Emoməli Şərifoviç!**

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Sizin müdrik rəhbərliyiniz altında qardaş Tacikistanda sosial-iqtisadi sahədə əldə edilən uğurlar, ölkənin beynəlxalq nüfuzunun artması bizi sevindirir.

Azərbaycan ilə Tacikistan arasında münasibətlərin hazırkı yüksək səviyyəsi xalqlarımızın bir-birinə bəslədiyi dərin hörmət və etimaddan irəli gəlir. Bu ortaq iradədən qaynaqlanan dövlətlərarası əlaqələrimizin yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatması məmnunluq doğurur.

Ali səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə münasibətlərimizin genişlənməsi üçün əlverişli zəmin yaradır. Cari ilin iyulunda Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakınızı və Sizinlə görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə Azərbaycan ilə Tacikistan arasında dostluq əlaqələrinin inkişafına, qarşılıqlı fəaliyyətimizin daha da dərinləşməsinə nail olacağıq.

Hörmətli Emoməli Şərifoviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Tacikistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 sentyabr 2025-ci il**

# Şimali Makedoniya Respublikasının Prezidenti Zati-aliləri xanım Qordana Silyanovska-Davkovaya

**Hörmətli xanım Prezident!**

Şimali Makedoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Hazırda Azərbaycan-Şimali Makedoniya münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Sağlam təməllər üzərində qurulmuş münasibətlərimiz, səmərəli birgə fəaliyyətimiz ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir. Mart ayında Azərbaycana rəsmi səfəriniz ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinə yeni təkan verdi.

Bu gün dövlətlərarası əməkdaşlığımızın bir sıra sahələrdə daha da dərinləşməsi və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. Siyasi əlaqələrimizin yüksək səviyyəsi və fəal dialoqumuz bunun üçün yaxşı zəmin yaradır.

İnanıram ki, Azərbaycan ilə Şimali Makedoniya arasında dostluq və əməkdaşlıq münasibətləri həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 sentyabr 2025-ci il**

# İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi barədə İslam İnkişaf Bankı Qrupunun Müdirlər Şurası tərəfindən 2025-ci il mayın 22-də qərar qəbul edilmiş və bununla əlaqədar "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu" imzalanmışdır.

İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarının Bakı şəhərində təşkili Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, ölkəmizin regional və beynəlxalq tərəfdaşlıqlarının möhkəmlənməsinə, İslam maliyyə institutları ilə əməkdaşlığın genişlənməsinə, Azərbaycan Respublikasının iqtisadi və investisiya potensialının tanıdılmasına müsbət töhfə verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

**1.** 2026-cı il iyunun 16–19-da İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri
Sahil Babayev – Azərbaycan Respublikasının maliyyə naziri
Adil Kərimli – Azərbaycan Respublikasının mədəniyyət naziri
Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri
Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri
Şahin Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Taleh Kazımov – Azərbaycan Respublikası Mərkəzi Bankının sədri
Samir Rzayev – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
Eldar Əzizov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi:

2.1. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu"na uyğun olaraq, İllik Toplantıların təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlanmasını və icrasını təmin etsin;

2.2. İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının keçirilməsi ilə əlaqədar digər zəruri məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının keçirilməsi ilə bağlı İslam İnkişaf Bankı Qrupu ilə əlaqələndirmə və Təşkilat Komitəsinin katibliyi funksiyalarını həyata keçirsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının keçirilməsi ilə əlaqədar xərclərin maliyyələşdirilməsi üçün 2026-cı ilin dövlət büdcəsi layihəsində müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin və digər zəruri məsələlərin həlli üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 sentyabr 2025-ci il**

# Sumqayıt Kimya Sənaye Parkının adının dəyişdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sumqayıt Kimya Sənaye Parkı Sumqayıt Sənaye Parkı adlandırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**3.** "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1124 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından "Kimya" sözü çıxarılsın;

3.2. 1-ci hissədən "Kimya" sözü çıxarılsın və həmin hissəyə "Parkı" sözündən sonra "(bundan sonra – Sənaye Parkı)" sözləri əlavə edilsin;

3.3. 2-ci hissə üzrə:

3.3.1.2.1-ci bənddə "sənaye parkı" sözləri "Sənaye Parkı" sözləri ilə əvəz edilsin;

3.3.2.2.2-ci bənddən "Sumqayıt Kimya" və "neft-kimya və digər" sözləri çıxarılsın;

3.4. 3-cü hissə üzrə:

3.4.1.3.1-ci bənddən "Sumqayıt Kimya" sözləri çıxarılsın;

3.4.2.3.2-ci bənddən "Sumqayıt Kimya" sözləri çıxarılsın və həmin bəndə "müəyyənləşdirilməsi," sözündən sonra "həmin istiqamətlərə uyğun sənaye və xidmət sahələrinin yaradılması və onların inkişafının dəstəklənməsi," sözləri əlavə edilsin;

3.5. 4-cü hissədən "Sumqayıt Kimya" sözləri çıxarılsın;

3.6. 8-ci hissə ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 379 (Cild I); 2024, № 6 (I kitab), maddə 662; 2025, № 2, maddə 109) ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin 1.1-ci bəndindən "Kimya" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 sentyabr 2025-ci il**

# "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının təsviri"nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Prezidentinin
2025-ci il 8 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağı haqqında Əsasnamə

**1.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin (bundan sonra – Agentlik) Döyüş Bayrağı əsgəri şərəf, şücaət və şöhrət rəmzidir. O, Agentliyin hər bir hərbi qulluqçusuna Vətəninə sədaqətlə xidmət etmək, Əsasnaməsində göstərilən mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi üzrə həvalə olunmuş xidməti-döyüş tapşırıqlarını yerinə yetirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq borcunu xatırlatmaq üçündür.

**2.** Agentliyin Döyüş Bayrağı Agentliyin inzibati binasında (Agentlik rəisinin xidməti otağında) Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birlikdə "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq daimi yerləşdirilir, döyüş əməliyyatları zamanı isə döyüş meydanında olmalıdır.

**3.** Agentliyin adının dəyişdirilməsindən asılı olmayaraq, Döyüş Bayrağı Agentlikdə həmişəlik qalır. Agentliyin adının dəyişdirilməsi Döyüş Bayrağı ilə birlikdə verilən təqdimatda qeyd olunur.

**4.** Döyüş Bayrağı Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birlikdə rəsmi tədbirlərdə, "Zəfər Günü"ndə, matəm günləri və matəm mərasimlərində "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qaldırılır (asılır) və endirilir.

**5.** Agentliyin bütün şəxsi heyəti Döyüş Bayrağını qorumalı, onun kənar şəxslər tərəfindən ələ keçirilməsinə yol verməməlidir.

**6.** Döyüş Bayrağının qorunmasına Agentliyin rəisi və digər məsul şəxsləri cavabdehdirlər.

Azərbaycan Respublikası Prezidentinin
2025-ci il 8 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının təsviri

**1.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağı ikiüzlü qumaşdan, ağac dəstəkdən və qotazlı qaytandan ibarətdir (Şəkillər 1, 2).

**2.** Döyüş Bayrağının qumaşı düzbucaqlıdır, eni 114 sm, uzunluğu 145 sm-dir, qıraqları üç tərəfindən qızılı rəngli ipək saçaqlarla köbələnmiş ikiqat bükülmüş üçrəngli (Azərbaycan Respublikasının Dövlət Bayrağı rəngində) ipək faydan hazırlanır.

**3.** Qumaşın üz tərəfində qırmızı zolağın ortasında ağ ipək sapdan 38 sm hündürlükdə aypara və 20 sm hündürlükdə səkkizguşəli ulduz tikilir. Qumaşın üst mavi zolağında qızılı rəngli ipək sapla "AZƏRBAYCAN UĞRUNDA!" şüarı tikilir. Hərflərin eni 95 sm, hündürlüyü 7 sm-dir (Şəkil 1).

**4.** Qumaşın arxa tərəfində qırmızı zolağın ortasında Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin ipəkdən tikilmiş emblemi (diametri 48 sm) yerləşdirilir. Qumaşın üst mavi zolağında qızılı rəngli ipək sapla "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri tikilir. Hərflərin eni 125 sm, hündürlüyü 16 sm-dir (Şəkil 2).

**5.** Döyüş Bayrağının dəstəyi en kəsiyinin diametri 4,0 sm, uzunluğu 250 sm olan girdə ağacdandır. Dəstək tünd qızılı boya ilə rənglənir və laklanır. Aşağı ucunda metal halqa, yuxarı ucunda isə nikellənmiş aypara və ulduz şəklində fiqurlu ucluq vardır. Döyüş Bayrağının qaytanı eşmədir, qızılı rəngli ipəkdən hazırlanır, hər iki ucunda qotazları vardır. Qaytanın uzunluğu 270–285 sm-dir.




**Şəkil 1.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının ön tərəfi




**Şəkil 2.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının arxa tərəfi

# Azərbaycan Çinin ticarət və sərmayə sərgisində



**Çinin Fucien əyalətinin Siamen şəhərində 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi (CIFIT) işə başlayıb.**

Çinin Kommersiya Nazirliyinin və Fucien əyalət hökumətinin ev sahibliyi ilə keçirilən sərgi ikitərəfli və çoxtərəfli investisiya əməkdaşlığının təşviqi və investisiya tendensiyaları üzrə müzakirələrin aparılması üçün vacib beynəlxalq platformalardan hesab olunur. Üç gün davam edəcək sərgidə 120 ölkədən hökumət rəsmiləri, 5 min şirkət, 50 mindən çox iş adamı iştirak edir.

Sərgidə ölkəmizdən Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir. Bu, Azərbaycanın Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisində 2-ci iştirakıdır.

Mərasimdə çıxış edən Şahin Mustafayev dövlət başçıları İlham Əliyevin və Si Cinpinin səyləri nəticəsində Azərbaycan ilə Çin arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin son illərdə keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini, cari ilin aprelində Azərbaycan Prezidentinin Çinə dövlət səfəri zamanı ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması haqqında Birgə Bəyanatın imzalandığını, bu tarixi hadisənin Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdığını diqqətə çatdırıb.

Azərbaycanın Çin Sədrinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu vurğulayan Şahin Mustafayev Çindən sonra Azərbaycanın bu təşəbbüsə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda ən çox sərmayə yatıran dövlətlərdən biri olduğunu bildirib. Azərbaycanın Çində keçirilən nüfuzlu sərgilərdə mütəmadi iştirak etdiyini, bunun ölkəmizin investisiya və ticarət imkanlarını tanıtmaq, Çin bazarında mövqelərimizi gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq məqsədi daşıdığını bildirən Baş nazirin müavini əlavə edib ki, hazırda Çində fəaliyyət göstərən 6 ticarət evi Azərbaycan məhsullarının təqdimatına və ixrac imkanlarının genişləndirilməsinə xidmət edir.

Sonra sərginin ekspozisiya sahəsindəki "Invest in Azerbaijan" vahid ölkə stendinin açılışı olub. Stenddə Azərbaycanın makroiqtisadi göstəriciləri, biznes mühiti, investisiya imkanları nümayiş olunur. İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanın Çindəki ticarət nümayəndəliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı ilə yaradılan stenddə Ələt Azad İqtisadi Zonasında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında investorlara təklif olunan imtiyazlar, ölkəmizin nəqliyyat-tranzit potensialı, turizm perspektivləri təqdim olunur. Burada, həmçinin AZPROMO, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Dövlət Neft Fondunun fəaliyyət istiqamətləri barədə məlumatlar, vizual və çap materiallar təqdim olunur. Bununla yanaşı, stenddə "Made in Azerbaijan" məhsulları nümayiş olunduğu "Azərbaycan Ticarət Ev"ləri guşəsi də təşkil olunub.

Baş nazirin müavini Şahin Mustafayev bildirib ki, ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması ticarət və investisiya əməkdaşlığına güclü təkan verib. Çinin kommersiya nazirinin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Lin Ci ölkəsinin Azərbaycanla iqtisadi əlaqələrinin genişləndiyini, Çin şirkətlərinin Azərbaycanla ticarət, logistika, sənaye və yaşıl enerji sahələrində sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Panel sessiyada Azərbaycan İnvestisiya Holdinqi, İqtisadi Zonaların İnkişafı Agentliyi, Çinin Horqos İqtisadi İnkişaf Zonası və hər iki ölkənin sənaye və İKT kimi sahələrində fəaliyyət göstərən şirkət nümayəndələri ikitərəfli işgüzar təmasların gücləndirilməsinə dair fikirlərini bölüşüb, təkliflərini irəli sürüblər. Tədbir B2B görüşlərlə davam edib.

Səfər çərçivəsində Dövlət Neft Fondu il "China Energy International" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.

# Qətərlə tərəfdaşlıq imkanları



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti Qətərə səfər edib. Səfər çərçivəsində bir sıra görüşlər keçirilib, Qətərlə əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb.**

İqtisadiyyat naziri Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani ilə görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin gücləndiyini, tərəfdaşlığın inkişafında yüksəksəviyyəli səfərlərin, keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. Qətərin Baş naziri və xarici işlər naziri ölkəsinin Azərbaycanla münasibətlərinin səmimi dostluq və tərəfdaşlıq prinsiplərinə əsaslandığını bildirib, iqtisadi sahədə işbirliyinin genişləndirilməsinə dair fikirlərini bölüşüb.

Qətərin ticarət və sənaye naziri Şeyx Faisal bin Tani bin Faisal Al Tani ilə görüşdə diqqətə çatdırılıb ki, ticarət əlaqələrinin genişləndirilməsi ikitərəfli münasibətlərdə prioritet məqsədlərdəndir. Qarşılıqlı investisiyaların həcminin artırılması hər iki ölkənin iqtisadi inkişafına töhfə verəcək.

Qətər İnvestisiya Qurumunun baş icraçı direktoru Məhəmməd Saif Al-Suveydi ilə görüş zamanı birgə investisiya fəaliyyətinin gücləndirilməsi üçün böyük imkanlar olduğu qeyd edilib. Qətərin "Power International Holding"nin Direktorlar Şurasının sədri Mutaz Al-Xayyat ilə görüşdə iqtisadi sferada qarşılıqlı faydalı təşəbbüslərin icrasının xüsusi əhəmiyyəti qeyd edilib.

Səfər çərçivəsində SOCAR-la Qətərin "UCC Holding"i arasında enerji sektoru üzrə tərəfdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

*XQ*

# Pekinə gedəcək YAP heyəti ilə görüş



**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın sentyabrın 9-17-də Çin Xalq Respublikasında (ÇXR) səfərdə olacaq nümayəndə heyəti ilə görüş keçirilib.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi üçün etibarlı zəminin mövcud olduğunu diqqətə çatdırıb, Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib.

YAP nümayəndə heyətinin Çinə səfər proqramının zəngin olduğunu diqqətə çatdıran Tahir Budaqov qeyd edib ki, bu səfər iki ölkənin hakim partiyaları arasında uğurlu əməkdaşlığın dərinləşdirilməsi, davamlı siyasi dialoqun təmin olunması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Görüşdə iştirak edən Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib ki, Çin-Azərbaycan münasibətləri ardıcıl olaraq inkişaf edir. Səfir YAP nümayəndə heyətinə səfər zamanı Çində dövlət idarətməsinin təkmilləşdirilməsi sahəsində yeniliklər və partiya quruculuğu təcrübəsi ilə ətraflı şəkildə tanış olmaq imkanının yaradılacağını da bildirib.

*XQ*

# ABŞ və Cibuti heyətləri XİN-də



**Sentyabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə görüşüb.**

Görüş zamanı avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın Baş nazirinin iştirakı ilə aparılmış müzakirələrin və imzalanmış sənədlərin tarixi əhəmiyyəti qeyd olunub, bu razılaşmaların regional sülhə və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb. Bu xüsusda Azərbaycanın qərb bölgələri ilə ölkəmizin Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin əhəmiyyəti diqqətə çatdırılıb.

Azərbaycanın son onilliklər ərzində Orta Dəhlizin canlandırılması və işlək vəziyyətə gətirilməsi üçün göstərdiyi səylərdən bəhs olunub, bu səylərin Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi konkret layihələrlə reallaşdırıldığı diqqətə çatdırılıb.

Görüş zamanı Azərbaycanın uzun illər boyu Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynadığı bildirilib, hazırda ölkəmizin təbii qazı ilə təchiz olunan ölkələrin sayının 14-ə çatdığı qeyd olunub.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Cibuti Respublikasının Xarici İşlər Nazirliyinin Baş katibi Məhəmməd Əli Həsənlə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Cibuti arasında ikitərəfli əməkdaşlığın perspektivləri, çoxtərəfli formatlarda tərəfdaşlıq məsələləri müzakirə olunub.

İqtisadiyyat, ticarət, humanitar, təhsil və sair istiqamətlər üzrə əməkdaşlığın geniş perspektivləri olduğu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub. 2026-cı ildə ölkəmizdə keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün və növbəti il ərzində sədrliyimizin əməkdaşlıq üçün əlavə imkanlar yaratdığı bildirilib.

Həmin gün, həmçinin Azərbaycan və Cibutinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Cibuti tərəfindən isə Xarici İşlər Nazirliyinin Baş katibi Məhəmməd Əli Həsən rəhbərlik edib.

*XQ*

## Xuntaçıların məhkəməsi

# Separatçıların dinc azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 8-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında proses sənədlərin tədqiqi ilə davam etdirilib. Bildirilib ki, elan ediləcək sənədlər epizodlar üzrə tədqiq olunacaq. Həmin sənədlərdən biri 1988-ci il fevralın 22-də azərbaycanlılara məxsus "QAZ-21" markalı dövlət qeydiyyat nişanlı avtomobilin atəşə tutulması faktı üzrə olub. Bildirilib ki, həmin vaxt avtomobildə L.Mamedov, A.Abdullayev, A.Xudiyev, Ş. Salmanova və onun azyaşlı övladı olub.

Növbəti sənədlər Armen Sarkisyanın odlu silah və partlayıcı qurğu əldə edərək saxlaması, Artur Saiyanın partlayıcı maddələri əldə etməsi və saxlaması, Şuşa və Xankəndi şəhərində baş vermiş kütləvi iğtişaş faktları üzrə olub. Zərərçəkmiş şəxs qismində dindirilmiş Zenfira Abbasova göstərib ki, iki oğlu ilə birlikdə Xankəndi şəhərində yaşayıb. 1988-ci ildə onlar hər gün ermənilərin hədələrinə məruz qalıb. 1988-ci il sentyabrın 18-də yaşadığı ev dağıdılıb.

Elan olunan növbəti sənədlər 1988-ci il sentyabrın 18-19-da Şuşada, Xankəndidə və Xocalıda kütləvi iğtişaşlar törədilməsi faktı üzrə olub.

Xankəndi şəhərində azərbaycanlı sakinlərin yaşadığı evlərin, mənzillərin yandırılması və digər faktlar üzrə elan olunan sənədlərdən birinə əsasən şahid qismində dindirilmiş Yuriy Cahangiryan ifadəsində göstərib ki, Qarabağ İpək kombinatında "partorq" vəzifəsində işləmiş Koçaryan Robert Setrakoviç "Krunk" adlanan erməni təşkilatının fəal üzvlərindən birinə çevrilərək azərbaycanlılara qarşı milli ədavət və düşmənçiliyin təbliğatını aparmağa başlayıb.

Məhkəmədə Şuşa şəhərini blokadaya salmaq məqsədilə 1989-cu il oktyabrın 7-də Xankəndi–Şuşa avtomobil yolunun 14-cü kilometrliyində körpünün partladılması, 1990-cı il fevralın 18-də Yevlax–Laçın yolu ilə hərəkətdə olan "İkarus 250/59" avtobusunun partladılması, nəticədə sərnişinlərin xəsarət alması faktları ilə bağlı sənədlər də elan edilib.

Növbəti sənədlər Hadrut rayonunun Tuğ kənd orta məktəbinin yaxınlığında azyaşlı Teyyub Süleymanovun öldürülməsi, Mirəli Şahbazovun, Oqtay Zeynalovun, İlham Məmmədovun, Vilayət Adgözəlovun, Bulut Əmiraslanoun Bulut xəsarət almaları, 1989-cu il noyabrın 3-də Şuşa rayonunda Ermənistana məxsus "Mi-8" markalı mülki helikopterdə silah-sursat (hərbi geyim, partlayıcı maddə, odlu silah və hərbi təyinatlı müxtəlif əşyalar) aşkar edilməsi, Qafan stansiyasından Şayıflı stansiyasına (Zəngilan rayonu – red.) gələn 23527 nömrəli sərnişin-yük qatarının Qafan stansiyasının 36-cı kilometrliyində odlu silahdan atəşə tutulması, Göygöl rayon daxili işlər şöbəsinin Çaykənd zonası üzrə baş sahə müvəkkili, milis kapitanı Abışov Mətləb Misir oğlunun öldürülməsinə cəhd edilməsi, Aslanov Eldar Xıdır oğlunun və Mustafayev Müşfiq Rəşid oğlunun xəsarət almaları, Xocavənd rayonunun Qaradağlı kəndi istiqamətində partlayıcı qurğu atılması, Abbasov Sakin Sakit oğlunun və Quliyev Şahbaz Mürsəl oğlunun öldürülmələri, Vəliyev Nəriman Bəhman oğlunun girov götürülməsi faktları ilə bağlı olub.

Elan olunan sənədlərdən bir neçəsi yüklərinin arasından silah-sursatın aşkar edilməsi, Vəliyev Neman Əli oğlunun öldürülməsi, Sədərək kəndinin atəşə tutulması nəticəsində bir neçə nəfərin öldürülməsi, Əliyev Eldəniz İlham oğlunun, Verdiyev Bilal Əbülfəz oğlunun, Məmmədov Sahib Cəmil oğlunun girov götürülərək 6 gün qanunsuz olaraq azadlıqdan məhrum edilməsi və onlara işgəncə verilməsi faktları ilə bağlı olub.

Bundan başqa, məhkəmədə Qazax rayonunun Bağanıs Ayrım kəndinə basqın edilməsi faktı üzrə bəzi fotoşəkillər nümayiş etdirilib. Qeyd edilib ki, həmin hadisə üzrə sənədlər əvvəlki məhkəmə iclaslarında



1990-cı il yanvarın 12-də Todan kəndinə silahlı basqın edilməsi faktı üzrə olub. Növbəti sənədlər Xankəndi aeroportunda təyyarə (havaya Yerevan şəhərindən qalxıb) tədqiq edilib, zərərçəkmişlər ifadə verib.

Məhkəmə prosesi sentyabrın 11-də davam etdiriləcək.

*XQ*

# Bakı-Pekin: məmnunluq doğuran strateji tərəfdaşlıq

**(əvvəli 1-ci səhifədə)**



CIFIT-də ikinci dəfə təmsil olunan Azərbaycan qlobal iqtisadi sistemdə yerini və mövqeyini nümayiş etdirir. Baş nazirin müavini, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizi sərgidə geniş təqdimatla təmsil edir. “Invest in Azerbaijan” pavilyonu sərginin ümumi 120 min kvadratmetrlik sahəsində 216 kvadratmetrlik stenddə ölkəmizin makroiqtisadi göstəricilərini, biznes mühitini və investisiya potensialını nümayiş etdirir.

Azərbaycanın CIFIT-də iştirakı düşünülmüş siyasi kursun təzahürüdür. Bu addım Prezident İlham Əliyevin aprelin 23-də Çinə dövlət səfərinin məntiqi davamı kimi Pekinlə münasibətlərin yeni mərhələyə keçdiyini nümayiş etdirir. Həmin səfərdə imzalanmış sənədlər Azərbaycan–Çin əlaqələrini hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqla yanaşı, regionda güc balansına ciddi təsir göstərdi. Siyasi planda bu, Cənubi Qafqazda rəqabət aparan böyük oyunçuların kəsişən maraqlar xəritəsində Azərbaycanın Qərb və Şərq istiqamətlərində manevr imkanlarını genişləndirir. Qərb və Rusiya arasındakı regionda Çin amili Azərbaycanın yeni diplomatik dayaqlarından biri kimi çıxış edir. Strateji tərəfdaşlıq təkcə iqtisadi deyil, həm də siyasi çəki verir. Pekin Cənubi Qafqazda etibarlı tərəfdaş qazanır, Bakı isə qlobal iqtisadi gücün dəstəyini hiss edir. Bu reallıq Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursuna uyğun gəlir və onun manevr imkanlarını artırır.

Statistik məlumatlar siyasi qərarların iqtisadi nəticələr verdiyini göstərir. Bu ilin yanvar – iyul aylarında Azərbaycan–Çin ticarət dövriyyəsi 2,5 milyard ABŞ dollarına çatıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 26,8 faiz artım deməkdir. Rəqəmlər Azərbaycanın Çinə yalnız enerji daşıyıcısı kimi deyil, həm də qeyri-neft sektoru üzrə yüksələn tərəfdaş kimi çıxış etdiyini təsdiqləyir.

Azərbaycan son illərdə iqtisadiyyatını diversifikasiya etmək istiqamətində addımlar atır. Nəticədə Çin şirkətləri energetika, nəqliyyat, tikinti, yüksək texnologiyalar, informasiya və xüsusilə “yaşıl enerji” layihələrində iştirak etməyə maraq göstərir. Prezident İlham Əliyevin Pekin səfəri çərçivəsində bir neçə iri Çin şirkətinin rəhbərləri ilə görüşü bu marağı təsdiqləyir.

Çinlə əməkdaşlığın ən strateji sütunlarından biri Pekinin “Bir kəmər, bir yol” təşəbbüsüdür. Azərbaycan həm Orta Dəhlizdə, həm də Şərq–Qərb marşrutunda mühüm tranzit ölkə mövqeyini möhkəmləndirir. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Limanı və regional logistika mərkəzləri Çin mallarının Avropaya çıxışında real alternativ marşrut rolunu oynayır. Ölkəmizin tranzit ölkə rolunun artması Pekinin Cənubi Qafqaz siyasətində Bakını ön plana çəkir. Bu, həm də Avropa İttifaqı və ABŞ-la münasibətlərdə Azərbaycanın əlini gücləndirir.

Prezident İlham Əliyevin Pekinə dövlət səfərində “China Energy Engineering Corporation Limited” (“Energy China”) şirkətinin sədri Sonq Hailianq ilə görüşünün nəticəsi olaraq şirkət Füzuli rayonunda Günəş Enerjisi Stansiyası və digər layihələrə sərmayə yatırıb. Çinlə yüksələn müttəfiqlik parametrləri ölkəmizin regiondakı lider mövqeyini daha da möhkəmləndirir. Bu vəziyyət Ermənistanın Qərb yönümlü, lakin təcrid olunmuş iqtisadi siyasətini çıxılmaz duruma salır, Gürcüstan isə Çinlə əməkdaşlıqda Azərbaycanın tempinə çata bilmədiyi üçün tranzit imkanlarında arxa plana keçir. Qlobal kontekstdə Azərbaycan–Çin tərəfdaşlığı yeni güc mərkəzlərinin formalaşdığı beynəlxalq sistemdə milli maraqları qorumağın rasional yoludur. Çinlə strateji əməkdaşlıq Bakının iqtisadi təhlükəsizliyinə də əlavə təminat verir.

Bakı–Pekin xəttində müşahidə edilən sıx təmaslar onu deməyə əsas verir ki, ölkələrarası müsbət sinergiya hər iki tərəfə böyük fayda verəcək. Dövlət başçısının bu il Çinə 2 dəfə səfər etməsi, apreldə imzalanan Birgə Bəyanat”, “ŞƏT plyus” formatında keçirilən görüşdə iştirak, həmçinin ölkəmizin 25-ci Beynəlxalq İnvestisiya və Ticarət Sərgisinə (CIFIT) qatılması Azərbaycan–Çin münasibətlərinin geosiyasi və strateji müstəvidə möhkəmləndiyini göstərir.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



Dünyada ikinci güc mərkəzi kimi yüksələn Çin Azərbaycanla həm diplomatik, həm ticari əlaqələri gücləndirir. Gediş-gəliş imkanları, turizm və biznes sahəsində əməkdaşlıq da önəm daşıyır. Çin yalnız yüksək iqtisadi potensiala malik deyil, eyni zamanda, hərbi gücü və beynəlxalq hüququn təmin olunmasına prinsipial yanaşması Azərbaycan üçün strateji tərəfdaşlıq qurmaqda mühüm amildir.

Rəsmi Pekinlə münasibətlərin genişlənməsi həm də təhlükəsizlik baxımından əhəmiyyətlidir. Çin müəyyən regional təsir imkanlarına malikdir və lazım gəldikdə Rusiyada müəyyən xətlərin aşılmamasına təsir göstərə bilir. Bu, Qazaxıstan və Azərbaycanla bağlı müəyyən balansın qorunmasına xidmət edir.

Çinin marağı əsasən Orta Dəhliz vasitəsilə ticarətə çıxış əldə etməkdir. Avropa Birliyi və Çin arasındakı ticarət dövriyyəsi artıq 1 trilyon dollara çatıb. Bunun 90 faizi dəniz yolu ilə həyata keçirilir. Lakin sürət tələb olunan malların quru yolu ilə daşınması daha sərfəlidir. Orta Dəhliz Mərkəzi Asiyadan Bakıya, Xəzərdən keçərək Gürcüstan limanlarına, ya da Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Türkiyə və Avropaya çıxışı təmin edir. Bu baxımdan, Azərbaycan strateji cəhətdən Çin üçün vacib ölkədir.

Bəli, Azərbaycanın Çinlə əməkdaşlığı gündən-günə artır. Eyni zamanda, Azərbaycanın yaxın dostu Pakistanın da Çinlə yaxın müttəfiqlik əlaqələri var. Bütün bunlar, xüsusilə təhlükəsizlik sahəsində, Azərbaycan–Çin–Pakistan münasibətlərinə müsbət təsir göstərə bilər. Mənim fikrimcə, Çinlə Azərbaycan arasında əlaqələr yüksələn xətlə inkişaf etməkdə davam edəcək.

### Ekspert rəyi

**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı, siyasi şərhçi**



Bakı ilə Pekin arasında intensiv siyasi dialoq və iqtisadi əməkdaşlıq münasibətlərin yeni mərhələyə keçdiyini göstərir. 2025-ci ilin aprelində Prezident İlham Əliyev və Sədr Si Cinpinin iştirakı ilə imzalanan “Azərbaycan–Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” bu yaxınlaşmanı rəsmiləşdirib. Enerji, nəqliyyat, gömrük, hüquqi yardım, əqli mülkiyyət və rəqəmsal iqtisadiyyatı əhatə edən 20-dən artıq sənəd Çinin Cənubi Qafqazda sabit iştirak maraqlarını və Azərbaycanın Şərq bazarlarına çıxış imkanlarını gücləndirir.

Tiencində keçirilən “ŞƏT plyus” görüşündə İlham Əliyev Orta Dəhlizi regional maraqların uzlaşdırıldığı layihə kimi təqdim edərək əməkdaşlığın beynəlxalq müstəviyə çıxdığını vurğuladı. Bu çərçivədə Transxəzər marşrutu xüsusi yer tutur: Bakı–Tbilisi–Qars yolunun modernizasiyası, gömrük-rəqəmsal uyğunlaşma və yeni Pekin–Bakı yük qatarı xətti dəhlizin rəqabət qabiliyyətini artırır. Əməkdaşlıq enerji və texnologiya sahəsində də genişlənir: Azərbaycanın bərpa olunan enerji hədəfləri Çin resursları ilə birləşə, “Rəqəmsal İpək Yolu” çərçivəsində data mərkəzləri və elektron ticarət logistikasında layihələr reallaşa bilər. Bunun üçün transsərhəd məlumat axınını təmin edən hüquqi mexanizmlərin yaradılması vacibdir.

Beləliklə, strateji tərəfdaşlıq Bəyanatı, “ŞƏT plyus” görüşü və CIFIT sərgisində fəal iştirak Bakı–Pekin xəttini yeni mərhələyə daşıyır. Əsas hədəf Orta Dəhlizin fasiləsiz işləməsi, gömrük-rəqəmsal uyğunlaşma, ixracın Çinə adaptasiyası və texnologiya transferinin idarəolunan modelidir. Azərbaycanın tranzit ölkədən regional istehsal və innovasiya mərkəzinə çevrilməsi isə əməkdaşlığın strateji mahiyyətini möhkəmləndirə bilər.

---

# Şərq paradiqmasının yüksəlişi

**(əvvəli 1-ci səhifədə)**

Bəs Rusiya–Çin yaxınlaşması müvəqqəti taktiki ittifaqdır, yoxsa uzunmüddətli strateji ox? Suala birmənalı cavab vermək çətindir. Qısa müddətdə Moskva üçün Çinlə yaxınlaşma həyati zərurətə çevrilib – sanksiyaların təsiri, Qərb bazarlarının itirilməsi və texnoloji asılılıq səbəbindən Kreml alternativ iqtisadi dəstək axtarır. Çin isə Rusiyanı strateji resurs və Qərbə qarşı geosiyasi “təzyiq aləti” kimi görür. Lakin uzunmüddətli perspektivdə maraqlar tam üst-üstə düşmür: Rusiya özünü “böyük güc” kimi qorumaq istəyir, Çin isə liderliyi təkbaşına iddia edir. Deməli, bu tandem həm real əməkdaşlıq, həm də gizli rəqabət elementlərini daşıyır.

ABŞ üçün Rusiya–Çin yaxınlaşması hansı riskləri yaradır? Ağ Ev üçün əsas risk iki böyük gücün resurs və təsir imkanlarının birləşməsidir. Çin iqtisadi texnologiya və maliyyə gücü ilə, Rusiya isə hərbi-strateji və enerji resursları ilə çıxış edir. Belə sintez Vaşinqtonun “parçala və hökmranlıq et” siyasətini çətinləşdirir. Lakin ABŞ eyni zamanda bu yaxınlaşmanın zəif tərəflərini də görür: Rusiya və Çin arasında tarixi etimadsızlıq, mərkəzi Asiyada nüfuz uğrunda rəqabət və uzunmüddətli maraq fərqləri. Buna görə də, Vaşinqton daha çox Hindistan və digər regional aktorlar vasitəsilə bu oxu balanslaşdırmağa çalışır.

Rusiya–Çin oxu, sadəcə, hərbi təhlükədir, yoxsa qlobal ideoloji alternativ? Təbii ki, burada əsas məsələ ideoloji komponentdir. Çin “alternativ qlobal idarəetmə modelini” – Qərbin demokratiya və liberal bazar prinsiplərindən fərqli olaraq, avtoritar stabilliyə əsaslanan çoxqütblü düzəni – təklif edir. Rusiya isə bunu özünün anti-Qərb ritorikası ilə gücləndirir. Beləliklə, söhbət yalnız tanklardan və qaz kəmərlərindən getmir; yeni qlobal təsir mübarizəsi informasiya, diplomatiya və beynəlxalq təşkilatlar vasitəsilə aparılır. Bütün bunlar isə ABŞ-ın ənənəvi üstünlük sahələrinə birbaşa meydan oxumaqdır.

Bu oxun davamlı olub-olmaması məsələsinə gəldikdə isə, davamlılıq həm qlobal proseslərdən, həm də daxili dinamikadan asılıdır. Əgər ABŞ–Çin rəqabəti daha da kəskinləşərsə, Pekin Moskvadan asılılığı artırmaq məcburiyyətində qalacaq. Əksinə, əgər Qərb–Rusiya münaqişəsi müəyyən mərhələdə yumşalarsa, Moskva balans siyasətinə qayıtmağa çalışa bilər. Bu mənada Rusiya–Çin oxu “tarixi ittifaq” yox, daha çox zərurətdən doğan strateji konfiqurasiya kimi dəyərləndirilə bilər.

* * *

ŞƏT sammitinin diqqətçəkən məqamlarından biri Hindistanın mövqeyi oldu. Narendra Modinin sammitdə iştirakı Qərb analitiklərinin gözündə ziddiyyətli siqnallar doğurdu. Bir tərəfdən, Hindistan Çin və Rusiya ilə eyni platformada görünərək “Şərq qütbü”nün tərkibində iştirak etdi, digər tərəfdən isə real qərarların qəbul edilməməsi Dehlinin açıq mövqe göstərməkdən çəkindiyini ortaya qoydu. Ziddiyyətli mənzərə əslində Hindistan siyasətinin ənənəvi xüsusiyyəti – strateji muxtariyyət doktrinasını sərgildi.



Burada əsas sual yaranır: Hindistanın balans siyasəti zəiflikdir, yoxsa güc göstəricisi? Qərb mediası çox vaxt onun tərəddüdlü davranışını zəiflik kimi təqdim edir, amma bu yanaşma birtərəflidir. Əslində, Hindistanın davranışında zəiflik yox, özünü qlobal güc kimi mövqelendirmə cəhdi görünür. O, eyni vaxtda ABŞ-la hərbi əməkdaşlıq edir, Rusiyadan silah alır, Çindən iqtisadi asılılığını qoruyur və ŞƏT və BRICS platformalarında aktiv iştirakçı kimi çıxış edir. Çoxvektorlu siyasət ona beynəlxalq münasibətlərdə sadəcə bir blokun peyki yox, müstəqil qütb kimi görünmək imkanı verir.

Burada daha bir sual ortaya çıxır: bəs nə üçün Hindistan tamamilə ABŞ-ın anti–Çin strategiyasına qoşulmur? Vaşinqton Dehlini Asiyada Pekinə qarşı əsas balanslaşdırıcı güc kimi görmək istəyir. Amma Dehli üçün bu rolun riskləri böyükdür. Çinə qarşı açıq cəbhə almaq onun iqtisadi asılılığını təhlükə altına salar, çünki Çin Hindistanın ən iri ticarət tərəfdaşlarından biridir. Eyni zamanda, regionda açıq qarşıdurma Hindistanın daxili sosial-siyasi sabitliyini riskə atar. Strateji baxımdan isə Hindistan üçün əsas məqsəd qlobal güc statusunu tədricən qazanmaqdır. Bu isə ABŞ-ın “ön xəttində döyüşən” aktor olmaqla deyil, çoxvektorlu diplomatiya ilə mümkündür.

Burada Rusiya ilə münasibətlərin rolu xüsusi qeyd olunmalıdır. Hindistan üçün Moskva ənənəvi silah tədarükçüsüdür və enerji sahəsində mühüm tərəfdaş olaraq qalır. Ukrayna müharibəsi fonunda Qərbin Rusiyaya qarşı təzyiqləri artsa da, Dehli bu əlaqələri kəsmədi. Əksinə, ucuz rus neftindən istifadə etməklə iqtisadi üstünlüklər qazandı. Bunlar Hindistanın balans siyasətinin mahiyyətini bir daha göstərdi: bir tərəfdən ABŞ-la hərbi təlimlər keçir, digər tərəfdən Rusiya ilə əməkdaşlığı davam etdirir.

Hindistan ŞƏT və BRICS kimi platformalarda qalmaqla nə əldə edir? Bu strukturlar ona qlobal qərarvermə masasında iştirak imkanı verir. Qərb ittifaqları Hindistanı “strateji tərəfdaş” kimi qəbul edərkən, ŞƏT və BRICS onu alternativ güc mərkəzlərində bərabər oyunçu kimi təqdim edir. Bu isə Dehlinin öz qlobal imicini möhkəmləndirmək, beynəlxalq auditoriyada “müstəqil güc” obrazını formalaşdırmaq üçün mühüm vasitədir.

Nəhayət, ən önəmli məsələ Hindistanın uzunmüddətli strategiyası ilə bağlıdır. O, yaxın 20–30 ildə ABŞ və Çinlə eyni səviyyədə qlobal qütbə çevrilmək niyyətindədir. Bunun üçün Dehli özünü oyunçular arasında körpü rolunda saxlayır. Yəni, onun strategiyası nə tam Qərbə inteqrasiya, nə də tam Şərq blokuna qoşulmaqdır. Hindistan öz yolunu açmaq üçün hər iki tərəflə işləməyi, hər iki qütbdən faydalanmağı seçir. Bu da onu dünya siyasətində həm maraqlı, həm də strateji baxımdan fərqli aktora çevirir.

* * *

ŞƏT sammitindən sonra beynəlxalq münasibətlərdə yeni reallıq daha aydın şəkildə üzə çıxdı: dünya artıq klassik ikiqütblü Soyuq Müharibə modelinə qayıtmır, amma ABŞ–Çin rəqabəti ətrafında çoxlaylı qütbləşmə formalaşır. Hazırkı mənzərədə Rusiya, Hindistan, İran, Türkiyə kimi aktorların hər biri müxtəlif istiqamətlərdə prosesə qoşulur və nizamın mürəkkəbliyini daha da artırır. Beləliklə, beynəlxalq sistem eyni anda həm yeni imkanlar, həm də yeni risklər doğuran bir müstəviyə keçir.

Burada ilk sual meydana çıxır: yeni qütbləşmə ABŞ və Qərb üçün hansı çağırışları yaradır? Əsas çətinlik odur ki, ABŞ artıq “vahid qlobal lider” statusunu qorumaqda çətinlik çəkir. Avropa İttifaqı müəyyən mənada Vaşinqtonun xəttini dəstəkləsə də, Asiyada alternativ güc mərkəzlərinin meydana gəlməsi ABŞ üçün yalnız hərbi və iqtisadi rəqabət anlamına gəlmir. Burada ideoloji meydan da getdikcə daha mühüm



əhəmiyyət kəsb edir, çünki liberal dəyərlərə qarşı “avtoritar sabitlik” modeli daha çox ölkəni özünə cəlb etməyə başlayır.

Digər tərəfdən, bu qütbləşmə Çinə mühüm üstünlüklər qazandırır. Pekin üçün prosesin ən böyük gəliri ABŞ-ın dominant rolunun zəifləməsidir. Təkqütblü nizam zəiflədikcə Çin öz təsir imkanlarını artırır. Bundan əlavə, ŞƏT və BRICS kimi platformalar Pekinə alternativ diplomatik məkan təqdim edir. Bu məkanda Çin özünü Qərbin diktəsinə qarşı çıxan güc kimi göstərir və Rusiya, İran, Hindistan kimi aktorları müxtəlif dərəcələrdə öz orbitinə cəlb etməyə çalışır.

Rusiyanın mövqeyi isə daha mürəkkəbdir. Kreml artıq qlobal siyasətdə özbaşına “qütb” ola bilmir, lakin Çinə yaxınlaşaraq ABŞ-a qarşı blokun ikinci dayağına çevrilib. Rusiya üçün əsas məqsəd Qərbin təzyiqlərini yumşaltmaq və təsir dairəsini Şərq istiqamətində qorumaqdır. Bu mənada Moskva “strateji katalizator” rolunu oynayır: özü böyük güc olmaqda çətinlik çəksə də, qlobal balansı dəyişdirən faktora çevrilir.

Hindistanın davranışları isə tamam başqa məntiqlə izah olunur. Dehli üçün əsas məsələ qlobal rəqabətdə tam tərəf seçməməkdir. O, ABŞ-la əməkdaşlığı gücləndirsə də, eyni zamanda, ŞƏT və BRICS platformalarında qalmaqla alternativ mərkəzlərdə də mövcudluğunu saxlayır. Bu yanaşma Hindistana “balans saxlayan qütb” obrazı qazandırır. Əlbəttə, bu həm risklidir, həm də fürsətlidir: risk ondadır ki, Qərb Hindistanı qeyri-müəyyən tərəfdaş kimi qiymətləndirir, amma fürsət ondan ibarətdir ki, Dehli hər iki tərəfdən fayda götürərək öz gücünü artırır.

Gələcəyin mümkün ssenariləri də bu məqamda ön plana çıxır. Ehtimal olunan variantlardan biri bloklaşmanın dərinləşməsidir – ABŞ və müttəfiqləri bir tərəfdə, Çin–Rusiya oxu digər tərəfdə daha sərt qarşıdurmaya girə bilər ki, bu da yeni “yarımsoyuq müharibə” modelini yaradar. İkinci ssenari çoxvektorlu rəqabətdir: Hindistan, Türkiyə, Braziliya kimi ölkələr heç bir blokda tam yer almayaraq, öz maraqlarını hər iki tərəflə balanslaşdıracaq və bu, sistemi daha dəyişkən edəcək. Üçüncü ssenari isə parçalanmış qlobal nizamdır: burada qlobal qurumlar zəifləyəcək, onların yerini isə regional bloklar və koalisiyalar tutacaq. Elə olan halda artıq qütbləşmədən deyil, daha çox “mozaik nizam”dan danışmaq lazım gələcək.

Bunlar beynəlxalq təhlükəsizlik müstəvisində əhəmiyyətli nəticələr doğurur. Risklərin artacağı aydındır, çünki sərt bloklaşma olmadığı üçün tərəflər arasında daim “oyun sahəsi” qalacaq. Bu, lokal münaqişələrin, proksi savaşların, texnoloji və iqtisadi müharibələrin daha çox rast gəlinən hal alacağı deməkdir. Lakin eyni zamanda böyük dövlətlər arasında birbaşa hərbi toqquşma riski nisbətən azalacaq, çünki onlar qarşıdurmanı dolayı vasitələrlə idarə etməyə üstünlük verəcəklər.

Nəticə etibarilə, ŞƏT sammiti göstərdi ki, qlobal nizam yeni mərhələyə qədəm qoyub. Hazırkı mərhələ nə tam soyuq müharibədir, nə də Qərbin arzuladığı təkqütblü dünya. Bu, çoxlaylı qütbləşmə və balans oyunu mərhələsidir. Ən mühüm nəticə isə budur: artıq heç bir güc təkbaşına dünya nizamını müəyyənləşdirə bilmir – hər şey qarşılıqlı asılılıqlar, dəyişkən koalisiyalar və dinamik tərəfdaşlıqlar üzərində qurulur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Fransada siyasi gündəm yenidən alovlanıb. Müxalif "Əyilməz Fransa" (LFI) partiyasının aparıcı simalarından biri – Jan-Luk Melanşon prezident Emmanuel Makronun impiçmenti üçün parlamentə təklif təqdim olunduğunu bəyan edib. Melanşon uzun müddətdir Makronu xalqın iradəsini nəzərə almamaqda günahlandırır. O, ötənilki parlament seçkilərinin nəticələrinə etiraz edərək prezidentin legitimliyini şübhə altına almışdı.**

# Fransanın "Narsist lider"inə təzyiqlər güclənir

*Sol partiyaların impiçment çağırışları Makronun mövqeyini sarsıdır*

**Ekspert rəyi**



**Oqtay QASIMOV, politoloq**

Sağçıların, sol qüvvələrin Makrona qarşı impiçment təşəbbüsü yeni deyil. Bundan əvvəl də belə cəhdlər olmuş və sol cəbhə hətta əvvəlki parlament seçkilərində müəyyən uğurlar qazanmışdı. Makron isə həmin seçkilərin nəticələrini ləğv edərək növbədənkənar parlament seçkilərinə getmişdi. Hazırda Fransada Makronun reytinqi kifayət qədər aşağı düşüb. Bunun əsas səbəbi ölkənin dövlət borclarının artması, ciddi sosial narazılıqlar və iqtisadiyyatın geriləməsidir. Bütün bunlar onun hakimiyyətini müəyyən qədər zəiflədən amillərdir. Makronun iqtisadi siyasətinə qarşı narazılıq həm adi fəhlələr, həm də orta təbəqə arasında geniş yayılıb. Sosial media platformalarında yayılan etiraz çağırışları və kütləvi narazılıq prezidentin siyasi "imicinə" ciddi zərbə vurur. Eyni zamanda, regional siyasətdə buraxılan səhvlər və sosial layihələrin paytaxt mərkəzli olması bölgələrdə işsizliyin artmasına səbəb olub. Rəqibləri Makronun zəifləməsindən istifadə edərək, özlərinin siyasi mövqelərini gücləndirməyə çalışırlar. Xarici siyasətdə isə Makronun Avropa İttifaqı və NATO ilə əlaqələrində verdiyi yanlış qərarlar daxili narazılıqları daha da gücləndirir. Bu şəraitdə prezidentin həm daxili, həm də beynəlxalq səhnədə təzyiqlərlə üzləşməsi təsadüfi deyil.

Ümumiyyətlə, Fransanın mövcud siyasətində Emmanuel Makronun nüfuzu getdikcə zəifləyir. "Le Figaro" qəzetinin "Veria" sorğu mərkəzinə istinadla yaydığı məlumata görə, ölkə əhalisinin cəmi 15 faizi prezidentə etibar edir. Sorğuda iştirak edənlərin 80 faizi Makrona inanmır, 5 faizi isə fikrini bildirməkdə çətinlik çəkib. Reytinqdəki kəskin enişin səbəbləri əsasən sosial-iqtisadi sahədə görülən siyasətlə bağlıdır. Təqaüd yaşının 62-dən 64-ə qaldırılması milyonlarla fransızın həyat planlarını dəyişdirdi və ölkə miqyasında kütləvi etirazların başlanğıc nöqtəsinə çevrildi. Tətillər hökumətin "sosial ədalət" prinsipini pozduğu ittihamı ilə həyata keçirilirdi. Paralel şəkildə baş nazir Bayrunun təqdim etdiyi sosial xidmətlər paketi də əhalidə məyusluq yaratdı. Beləliklə, bir-birini tamamlayan narazılıqlar fonunda



Makronun nüfuzu kəskin şəkildə azalıb. Siyasi liderin xarakteri də ictimaiyyətdə xoş qarşılanmır. Çünki Makron sələflərindən fərqli olaraq cəmiyyətin aşağı təbəqələri ilə dialoq qurmaqda çətinlik çəkir. Görünür, onun empatiya qabiliyyəti yox həddindədir. Fransız mediasında da tez-tez Makronun özünü "əlçatmaz lider" kimi təqdim etməkdə maraqlı olduğu vurğulanır. Bu isə cəmiyyətdə qıcıq yaradır və onun "narsist prezident" obrazını gücləndirir.

Fransa hökumətinin təqdim etdiyi yeni büdcə layihəsi ölkədə narazılıq dalğası yaradıb və bu artıq sosial şəbəkələrin hüdudlarını aşaraq siyasi müstəviyə keçib. Əvvəlcə yalnız internetdə suverenist qrupların təşəbbüsü kimi görünən etiraz çağırışları sentyabrın 10-da ölkənin blokadaya alınması ideyası ilə daha geniş rezonans doğurub. Maraqlı məqam isə odur ki, bu təşəbbüs qısa müddətdə həm solçu, həm də sağçı siyasi dairələrin dəstəyi ilə ümummilli səciyyə qazanmağa başlayıb. Büdcə layihəsi bir sıra mübahisəli maddələrlə diqqət çəkir. Xərclərin azaldılması, sosial öhdəliklərin ixtisarı, hətta iki rəsmi bayram gününün ləğvi kimi təkliflər cəmiyyətin narahatlığına səbəb olub. Bu addımlar hökumətin iqtisadi sabitlik naminə sosial yükü vətəndaşların üzərinə ötürmək niyyətində olduğunu göstərir. Əslində, proses 2018-ci ildəki "sarı jiletlilər" hərəkatı ilə müqayisə edilə bilər. Həmin vaxt olduğu kimi, indi də etirazların ilk mərkəzi sosial şəbəkələrdir. Hətta "sarı jiletlilər" hərəkatının bəzi tanınmış simaları blokada çağırışına açıq dəstək nümayiş etdirirlər. Bu isə narazılığın spontan aksiyadan sistemli hərəkat potensialına keçə biləcəyinə işarədir. Blokada çağırışı həm də cəmiyyətin hökumətə etimadsızlığının, sosial ədalət gözləntilərinin və siyasi institutlara qarşı artan qəzəbinin ifadəsidir. Məsələdə hakimiyyət ilə xalq arasındakı münasibətlərdə yaranmış psixoloji qırılma da mühüm rol oynayır. Xarici analitiklər də sosial sabitliyi nəzərə almadan qəbul edilən qərarların ölkəni "böhran burulğanına" sala biləcəyi barədə xəbərdarlıq edirlər. Burada "xalqın səsini eşitməyən hakimiyyət bir gün onun qəzəbinin səsində boğular" aforizmini xatırlatmaq yerinə düşər. Hər nə qədər Makron hakimiyyəti xalqın gözləntilərini gözardı edəcəksə "istənməyən lider" damğası ondan əl çəkməyəcək.

Makron iqtidarının "fransızsayağı demokratiya" nümunəsi olaraq atdığı addımlar ölkə daxilində mənfi reaksiyalar doğurur. Bir müddət əvvəl Paris məhkəməsi ultrasağçı Milli Birlik Partiyasının fraksiya rəhbəri Marin Le Peni ciddi cəzaya məhkum edib.

Məhkəmənin qərarına görə, Le Pen Avropa Parlamentinin vəsaitlərinin mənimsənilməsi işində təqsirli bilinərək 4 il müddətinə azadlıqdan məhrum edilib və 100 min avro məbləğində cərimələnib. Qərara əsasən, o, cəzasının iki ilini şərti, son iki ilini isə elektron bilərzikdə ev dustaqlığında keçəcək. Bundan əlavə, Le Pen beş il müddətinə seçki hüququndan məhrum edilib. Eyni zamanda, Avropa Parlamentinin digər səkkiz deputatı da bu qanunverici orqanın vəsaitlərini mənimsəməkdə təqsirli bilinib. Bununla hökümət digər siyasi fiqurlara mesaj göndərib ki, siyasi mərkəzdən kənara çıxan oyunçular ciddi nəticələrlə üzləşə bilər. Fransa prezidenti Emmanuel Makronun baş verən hadisələr fonunda mediaya yanaşması da öz növbəsində ölkədə söz azadlığının pozulmasına dair ciddi narahatlıqlar yaradır. Hökumətin siyasətini tənqid edən jurnalistlərə qarşı tətbiq olunan hüquqi və maliyyə təzyiqləri müstəqil medianın fəaliyyət imkanlarını məhdudlaşdırır. Sosial etirazlar və kütləvi nümayişlər zamanı jurnalistlərin hadisə yerlərinə gəlişi polis tərəfindən ciddi şəkildə məhdudlaşdırılıb ki, bu da informasiyanın sərbəst yayılmasını əngəlləyir. Makron hökuməti, həmçinin, "saxta xəbər" iddiaları ilə jurnalistlərin özəl mənbələrinə qarşı müxtəlif tədbirlərin görülməsini təşviq edib, nəticədə mediada özünü senzura şəraiti yaranıb. Eyni zamanda, sosial şəbəkələrdə hökumətin tənqidinə yönəlik informasiyaların aradan qaldırılması üçün bəzi platformalarla əməkdaşlıq aparılır ki, bu da söz azadlığının əngəllənməsi kimi qiymətləndirilir. Bu addımlar, guya, Makronun siyasi hakimiyyətini möhkəmlətmək strategiyasına xidmət edir və onu "fransızsayağı demokratiya" anlayışı çərçivəsində daha çox mərkəzləşdirilmiş, rəqibləri və tənqidçiləri "aradan götürən" lider kimi göstərir. Makron hakimiyyəti hesab edir ki, bu cür yollarla istədiyinə nail olacaq, amma unudur ki, ona qarşı nifrət atdığı müddətdə ictimai rəy dəyişməyəcək.

Sonda bir məqamı da vurğulayaq ki, Fransada sağçı qüvvələrin siyasi nüfuzunun yüksəldiyi danılmaz faktdır. "Le Figaro" nəşrinin məlumatına görə, əgər növbədənkənar parlament seçkiləri keçirilsə, daxildə siyasi vəziyyətin əhəmiyyətli dərəcədə dəyişməsi mümkündür. Bir qədər də dəqiqləşdirsək, ifrat sağçı Milli Cəbhə Partiyası və onun müttəfiqləri parlamentdə yerlərin ən azı 33 faizinə sahib ola bilərlər. Bu göstərici digər siyasi partiyaların, xüsusilə sol və mərkəzçi qüvvələrin 10–19 faiz arasında səs toplaya biləcəyi proqnozu ilə müqayisədə sağçı bloka dominant mövqe qazandırır. Maraqlıdır ki, avqustun sonunda aparılmış oxşar rəy sorğusu da Milli Cəbhənin parlamentdə 32–33 faiz səviyyəsində təmsil olunacağını göstərmişdi.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Şəhidlər Xiyabanı hoqqa səhnəsi deyil

**(əvvəli 1-ci səhifədə)**

Vaxtilə Çəmbərəkənd, sonra Dağüstü park adlanan, bu gün şəhidlərin uyuduğu xiyaban Azərbaycana rəsmi səfərə gələn xarici dövlət və hökumət başçılarının ziyarət etdikləri məkandır. Bu, artıq protokol qaydası sayılır.

Təəssüf ki, ölkəmizə təşrif buyuran bəzi turistlər bu müqəddəs məkanda qeyri-etik hərəkət və davranışlara yol verirlər ki, bu da ictimaiyyətin haqlı narazılığına, hiddətinə səbəb olur. Son vaxtlar belə halların çoxalması ciddi narahatlıq doğurub. Təxminən on gün əvvəl Bakıya turist qismində gələn 3 ərəbin Şəhidlər Xiyabanında "nümayiş etdirdikləri" nalayiq hərəkətlər ictimaiyyətin haqlı narazılığı ilə qarşılandı. Doğrudur, hadisədən sonra turistlər hüquq-mühafizə orqanlarımız tərəfindən dərhal saxlanıldılar. Onlara qarşı Cinayət Məcəlləsinin 245-ci (qəbir üzərində təhqiredici hərəkət) maddəsi üzrə




cinayət işi açıldı, Səbail Rayon Məhkəməsi barələrində 3 ay müddətinə həbs qəti-imkan tədbiri seçdi.

Bu günlərdə Şəhidlər Xiyabanında daha bir xoşagəlməz hadisə qeydə alınıb. Sosial şəbəkələrdə yayımlanan videoçarxda iranlı bloger Milad Hadinezhadin bu müqəddəs məkanda qeyri-etik davranışlara yol verdiyi görünür. Bu azmış kimi, bloger Əbədi məşəl abidəsi barədə yanlış məlumat paylaşıb. Sosial şəbəkə istifadəçiləri haqlı olaraq bu davranışlara sərt reaksiya veriblər. Onlar olayla bağlı "Şəhidlər Xiyabanına xüsusi xəbərdarlıq lövhələri asılmalıdır", "Belə hərəkətlərə yol verənlərə yüksək cərimələr tədbiq olunmalıdır", "Bələdçilər öz məsuliyyətini dərk etməlidirlər", "Xiyabanın mühafizəzi gücləndirilməlidir..." kimi şərhlər veriblər.

Ölkəmizə gələn hər bir xarici qonaq müxtəlif yerlərə baş çəkir, bölgələrə səyahət edir, eyni zamanda, milli-mənəvi dəyərlərimizlə, tarixi və mədəniyyət abidələrimizlə tanış olur. Onların Azərbaycana ayaq basdıqdan sonra müvafiq şəkildə məlumatlandırılması çox vacibdir. Bu mənada xarici qonaqları ölkəmizə gətirən turizm şirkətlərinin, bələdçilərin üzərinə böyük məsuliyyət düşür. Bu məsələyə yalnız biznes və kommersiya maraqları aspektindən yanaşmaq doğru deyil. Yəni, turizm şirkətləri yalnız gəlir əldə etməyi düşünməməlidir. Onlar turistlərin düzgün məlumatlandırılması və təlimatlandırılmasının da qayğısına qalmalıdırlar. Turizmin inkişafı və kommersiya maraqları heç bir halda milli dəyərlərə sayğılı yanaşmadan üstün tutulmamalıdır.

Şəhidlər Xiyabanının mühafizəsini yüksək səviyyədə təşkil etmək vacib məsələdir. Bununla bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirildi ki, bir müddət öncə Səudiyyə Ərəbistanı və Nepaldan olan turistlər qeyri-etik hərəkətlərə yol vermişdi: "Həmin şəxslər cəzalandırıldı. Hazırda ərazidə polis əməkdaşları tərəfindən nəzarət-profilaktik tədbirlər gücləndirilib".

Müzakirəyə səbəb olan məsələlərdən biri də xiyabanı ziyarətə gələnlərin geyim formasının uyğun olmamasıdır. Şəhid ailələrinin buna etiraz etdikləri məlumdur. Mediada bu problemin Milli Məclisdə müzakirəyə çıxarılacağı, qanunverici təşəbbüsün irəli sürüləcəyinin gözlənildiyi barədə xəbərlər gedib.

**Ekspert rəyi**



**Üzeyir ŞƏFİYEV, sosioloq**

Təəssüf ki, bəzən turistik bölgələrimizdə xoşagəlməz hallarla rastlaşırıq. Xüsusilə, xalqımızın müqəddəs saydığı məkanlarda əcnəbi turistlərin qeyri-adekvat davranışları ictimaiyyətdə haqlı narazılıq doğurur. Bu hallar məqsədli şəkildə də baş verə bilər, amma burada turist turlarının düzgün təşkil olunmaması və maarifləndirmənin yetərsizliyi də özünü göstərir. Belə halların qarşısını almaq üçün müqəddəs yerlərdə davranış qaydalarını göstərən lövhələrin yerləşdirilməsi vacibdir. Turist həmin məkanda necə davranmalı olduğunu bilməlidir. Bundan əlavə, internet resurslarında, "Google" platformalarında, sosial şəbəkələrdə də zəruri məlumatların yayılmasının faydası olar.

Burada əsas yük bələdçilərin üzərinə düşür. Həm yerli, həm də xaricdən gələn bələdçilərlə təlimlər keçirilməli, onlara xüsusi göstərişlər verilməlidir ki, bu qaydaları turistlərə izah etsinlər və məsuliyyəti bölüşsünlər. Həmçinin könüllülərin, tanınmış simaların da prosesə cəlb olunması turistlərdə müsbət təsir yarada bilər. Ümumiyyətlə, turizm və bələdçilik sahəsində peşəkarlığa xüsusi diqqət yetirilməlidir. Xoşagəlməz halların qarşısını almaq üçün qanunvericilik təkmilləşdirilməlidir. İnzibati Xətalar və Cinayət Məcəlləsində müqəddəs yerlərdə, məkanlarda yol verilən qeyri-etik hərəkətlət üçün sərt cəzalar nəzərdə tutulmalıdır.

Bir sözlə, bu gün igidlərin uyuduğu məzarlıq – Şəhidlər Xiyabanı "rəqs meydançası" deyil, gənclərin and yerinə çevrilməlidir. Onların ruhlarına ehtiramla yanaşmaq isə hər kəsin – yerli vətəndaşlarımızın da, əcnəbi turistlərin də borcudur.

***Musa BAĞIRLI***
***XQ***

# Rusiyada azərbaycanlıların təqib və sıxışdırılması davam edir

**(əvvəli 1-ci səhifədə)**

Xüsusilə Yekaterinburq, Voronej və Leningrad vilayətlərində baş verən hadisələr məsələnin aktuallığını artırır. Məsələn, Yekaterinburqda fəaliyyət göstərən "Azərbaycan Ural" ictimai təşkilatının rəhbəri Şahin Şıxlinski Federal Təhlükəsizlik Xidməti (FTX) tərəfindən saxlanılıb. Bu şəhərdə saxlananlar arasında onun oğlu da var. Voronej şəhərində isə tanınmış iş adamı Yusif Xəlilov rüşvət verməkdə şübhəli bilinib. O, ilkin olaraq sərbəst buraxılsa da, avqust ayında təkrarən saxlanılıb. Xəlilov Voronej şəhərindəki iri ticarət mərkəzlərindən birinin – "Alekseyevski" bazarının həmtəsisçisidir.

Diqqətçəkən digər hadisə Leninqrad vilayətində baş verib. Burada dörd azərbaycanlı iş adamı ümumilikdə 3,7 milyon rubl məbləğində rüşvət verməkdə ittiham edilərək saxlanılıb. Rusiya hüquq-mühafizə orqanları bu əməliyyatı medianın müşayiəti ilə həyata keçirib. Yəni, "biz cinayətkarları saxladıq" görüntüsü yaratmağa çalışıblar. Yada salaq ki, Azərbaycandan olan iş adamları Rusiyada iri vergi ödəyiciləridir. Hər il onlar milyonlarla rubl dövlət büdcəsinə vəsait ödəyirlər.

Bu cür hadisələr çox vaxt hüquqi çərçivədən kənarda baş verir və nə beynəlxalq hüquq normalarına, nə də dövlətlərarası münasibətlərə uyğun gəlir. Belə yanaşma həm də illər boyu Rusiya cəmiyyətində dinc şəkildə yaşayan və fəaliyyət göstərən Azərbaycan icmasının hüquqlarının pozulmasıdır. Azərbaycan icmasına qarşı keçirilən əməliyyatlar, zorakı davranışlar isə bir çox hallarda qanuna ziddir.

Yada salaq ki, Rusiya Federasiyası Konstitusiyasının 20-ci maddəsi hər kəsin yaşamaq hüququnu, 21-ci maddəsi isə işgəncə və alçaldıcı rəftarın yolverilməzliyini təmin edir. Lakin Yekaterinburq hadisəsi də daxil olmaqla azərbaycanlılara qarşı davranışlar bu müddəaların kobud şəkildə pozulduğunu göstərir. Narahatedici məqam odur ki, hadisələr hüquq-mühafizə orqanlarının iştirakı ilə baş verir. Hadisə ilə bağlı istintaqın aparılmaması, cavabdehlərin cəzasız qalması məsələnin sistemli xarakter aldığını göstərir. Bu, yalnız Rusiya daxilindəki hüquqi normalarla deyil, beynəlxalq hüquq prinsipləri ilə ziddiyyət təşkil edir. Rusiya 1987-ci ildən BMT-nin "İşgəncəyə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya qarşı Konvensiyası"na qoşulub. Konvensiyaya əsasən, heç bir fövqəladə hal işgəncəyə bəraət qazandıra bilməz. Heç bir şəxs səbəbsiz yerə və sübut olmadan azadlıqdan məhrum edilə bilməz. İşgəncə və qeyri-insani rəftar isə beynəlxalq qanunlarla qadağan edilib.

Ümumiyyətlə, baş verənlər Rusiyada etnik və dini azlıqlara qarşı həyata keçirilən sistemli və məqsədyönlü siyasətin tərkib hissəsidir. Onlara qarşı artan zorakılıq, diskriminasiya və hüquq pozuntuları təsadüfi deyil. Bu, ideoloji əsaslara söykənən yanaşmanın nəticəsidir. Mövzu ilə bağlı **hüquqşünas Samir Osmanlı** XQ-yə bildirdi ki, miqrantlara və azərbaycanlılara qarşı hüquqi yoxlama adı altında keçirilən reydlər əslində hüququn aliliyindən çox ideoloji təzyiq vasitəsi kimi çıxış edir: "İnsanların təkcə milli mənsubiyyətinə görə şübhəli bilinməsi hüquqi dövlət prinsipinə tamamilə ziddir və beynəlxalq



normalarla uzlaşmır. Rusiya beynəlxalq platformalarda özünü çoxmillətli və tolerant dövlət kimi təqdim etsə də, reallıq fərqlidir. Etimad, tərəfdaşlıq və strateji əməkdaşlıq yalnız rəsmilərin verdiyi bəyanatlarla deyil, sadə vətəndaşlara göstərilən münasibətlə ölçülür. Təəssüf ki, hazırkı vəziyyət bu münasibətin ədalət, hüquq və bərabərlik prinsiplərinə əsaslanmadığını göstərir. Son hadisə də dediklərimi təsdiqləyir. Bu günlərdə Moskvanın "Domodedovo" hava limanında bir qrup Azərbaycan vətəndaşı Rusiyaya buraxılmayaraq deportasiya olunmaq üçün saxlanılıb. Onlar hava limanına eniş etdikdən sonra sərhəd nəzarətindən keçə bilməyiblər və geri göndəriliblər. Narahatedici digər məqam isə zorakılıq hallarının Rusiya dövlət mediası tərəfindən qərəzli şəkildə təqdim olunmasıdır. Qeyri-rus və müsəlman mənşəli şəxslər "günahkar" obrazında ictimai rəyə sırınır. Beləliklə, ictimai nifrət ideologiyası yalnız hüquqi və sosial sahədə deyil, həm də mədəni və psixoloji səviyyədə təşviq olunur".

Bütün bu hadisələr bir daha sübut edir ki, Rusiya tərəfindən sərgilənən bu siyasət bölgədə sabitliyə deyil, qarşıdurmaya və etimad itkisinə xidmət edir. Əgər Moskva regional əməkdaşlığı və tərəfdaşlığı davam etdirmək istəyirsə, əvvəlcə müttəfiq dediyi ölkələrə qarşı bu cür düşmən yanaşmadan imtina etməlidir.

Bununla belə, Rusiya rəsmiləri azərbaycanlılara qarşı haqsızlıqları görməzdən gəlirlər. Sanki saxlananlara qarşı heç bir işgəncələr verilməyib və hər şey qanun çərçivəsində baş verib. "Rusiyada ancaq qanunu pozan azərbaycanlılar cinayət məsuliyyətinə cəlb edilir". Bunu Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov deyib. Eyni zamanda o, Rusiyada böyük Azərbaycan diasporunun yaşadığını, nümayəndələrinin əksəriyyətinin qanuna tabe olan vətəndaşlar olduğunu vurğulayıb: "Azərbaycan diasporunun demək olar ki, bütün nümayəndələri burada layiqli hörmətə malik olan qanuna tabe olan vətəndaşlarımızdır. Qanunu pozan vətəndaşlar qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar".

*

Bu arada bir məsələyə də toxunmaq istərdik. Son vaxtlar Rusiya Federasiyasında miqrantlara qarşı həyata keçirilən siyasət və qanunvericilik dəyişiklikləri daha sərt və məhdudlaşdırıcı xarakter alır. Əvvəllər daha çox fərdi hallarda müşahidə olunan inzibati çətinliklər və sosial təzyiqlər bu gün artıq sistemli və dövlət səviyyəsində tətbiq olunan strategiyaya çevrilib. Əmək bazarında, təhsil sistemində, digər sahələrdə həyata keçirilən tədbirlər milyonlarla miqrantın gündəlik həyatına təsir edib, onların fəaliyyət dairəsini məhdudlaşdırıb. Bununla yanaşı, Rusiyada qanunsuz yaşayan əcnəbilərin vətəndaşlıq və miqrasiya statuslarını leqallaşdırmaları üçün verilən möhlət sentyabrın 10-da başa çatacaq. Vladimir Putin 2024-cü ilin dekabrında imzaladığı fərmanla miqrantlara hüquqi vəziyyətlərini 30 aprelədək tənzimləməyi tapşırmışdı. Lakin apreldə imzalanan yeni fərmanla bu müddət 10 sentyabr 2025-ə qədər uzadılıb. Möhlət xüsusilə Rusiyada "nəzarət olunan şəxslər reyestri"nə daxil edilən, yəni qanunsuz yaşayan və sənədləri qaydasında olmayan şəxslərə aiddir. Möhlət bitdikdən sonra statusunu tənzimləməyən şəxslər deportasiya ediləcək. Onlara gələcəkdə Rusiyaya giriş yasağı da tətbiq oluna bilər. Bundan əlavə, belə şəxslərə evlilik, daşınmaz əmlak alışı, bank hesabı açmaq və digər hüquqi əməliyyatlarla bağlı məhdudiyyətlər qoyulacaq.

Beləliklə, sentyabrın 10-a qədər Rusiyada yaşayan bütün əcnəbilər statuslarını rəsmiləşdirməlidirlər. Əks halda deportasiya və uzunmüddətli giriş qadağası ilə üzləşə bilərlər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



## V məqalə

### Strateji paytaxt

"Strateji paytaxt" anlayışının nəzəri təlimlərdə iki aspektini xüsusi vurğulayırlar. Onlardan biri geosiyasi inteqrasiyanın mərkəzi olmaq statusu ilə bağlıdır. Digəri isə geniş geosiyasi miqyasda aktiv fəaliyyət göstərməkdir. Bu anlamda strateji paytaxt həm də geosiyasi qütb (yəni, əsas cəlbedici məkan) kimi təsəvvür edilə bilər. Geosiyasi təlimlərdə geosiyasi qütblə yanaşı, "geosiyasi şüa" anlayışı da işlədilir. Bu termin strateji paytaxtın əyalətlərə (geosiyasi məkanın periferiyalarına) müxtəlif güc təsirləri vektoru, yəni fokuslanmış istiqaməti, xəttini ifadə edir. Burada "güc" dedikdə strateji paytaxtın iqtisadi, strateji, mədəni, təsərrüfat, inzibati və s. xarakterli təsirləri nəzərdə tutulur.

Əslində, real dayanıqlı geosiyasi mənzərə üçün "geosiyasi parça" anlayışından istifadə edirlər. "Şua" isə əsas olaraq geosiyasi təsirlər impulsunun daimi açıq və dinamik proses kimi xarakteristikasına aiddir. Bu, Azərbaycan nümunəsində bizim üçün maraqlı özəllikdir və üzərində geniş dayanacağıq. İndi yanaşmamız üçün prinsipial nəzəri məna kəsb edən daha iki anlayışı qısaca təqdim edək.

Onlardan biri "geosiyasi parça"dır. Bu termin stratej paytaxtın konkret tarixi məqamda periferik regionlarla münasibətlərinin cəmini ifadə edir. Bu zaman geosiyasi parça üçün başlıca fərqli məqam siyasi proseslərin ümumi dinamikasını nəzərə almamaqla əlaqəlidir.

Digər əhəmiyyətli anlayış "daxili ox"dur. Bu termin strateji paytaxtın əyalətlərlə geosiyasi bağlantısının keyfiyyətini ifadə edir. Burada isə əsas şərt keyfiyyətlilik dərəcəsinin vahid strateji məkan daxilində müəyyən edilməsindən ibarətdir.

Vurğulanan anlayışların qarşılıqlı nəzəri və metodoloji münasibətləri şəbəkəsi (və ya açıq qeyri-xətti sistemi) "Əliyev üçbucağı"nın müasir əməkdaşlıq platforması kimi konseptual səviyyədə geosiyasi anlamını müəyyən edirlər. Onu vurğulayaq ki, ciddi elmi səviyyədə "şəbəkə" və "sistem" anlayışları arasında fərqli məna çalarları mövcuddur. Lakin qəzet formatı onu izah etmək üçün uyğun deyildir. İndi sadəcə onu qeyd edək ki, "Əliyev üçbucağı"nın nəzəri dərki üçün "şəbəkə" və "qeyri-xətti açıq sistem" anlayışlarını sinonim kimi işlədə bilərik.

Əlbəttə, "Əliyev üçbucağı"nın nəzəri olaraq geosiyasi mənası və mahiyyətini tam açmaq geniş yanaşma tələb edir. Vurğuladığımız anlayışlar sistemi yalnız ümumi xarakteristikaya aiddir. Bu anlamda həmin anlayışları "Əliyev üçbucağı"nın "lokal konseptual modeli" kimi təsəvvür etmək mümkündür. Məsələnin bu tərəfi üzərində dayanaq.

### "Əliyev üçbucağı"nın konseptual modeli

Beləliklə, bizim üçün "strateji paytaxt", "geosiyasi şüa", "geosiyasi parça" və "daxili ox" anlayışlarının qarşılıqlı münasibətlər şəbəkəsi (və ya qeyri-xətti açıq sistemi) "Əliyev üçbucağı"nın geosiyasi konseptual dərkində baza rolunu oynayır. Bu anlayışların həm ayrılıqda, həm də qarşılıqlı münasibətlər şəbəkəsi kimi dolğun anlamı geniş baxış bucağı tələb edir. Onların fəlsəfi və siyasi-nəzəri təhlili qəzet mətnini çox ağırlaşdırar. Müəyyən məqamların sadə ifadəsinə çalışaq.

Təməl tezis ondan ibarətdir ki, "Əliyev üçbucağı" əməkdaşlıq platforması kimi Azərbaycanı konkret geosiyasi məkanda strateji paytaxt statusuna yüksəldir. Aydındır ki, praktiki olaraq bunu həyata keçirmək asan proses deyildir. Lakin Azərbaycan Prezidentinin, ümumiyyətlə, üçlü əməkdaşlıq formatı və onların müxtəlif növləri arasında münasibətlərin dinamikası Azərbaycanı dövlət kimi geosiyasi məkanda "paytaxt"a çevirə bilər.

Bu qiymətləndirmənin real məzmuna malik olduğunu anlamaq üçün Azərbaycan dövlət başçısının təşəbbüs etdiyi üçtərəfli əməkdaşlıq platformasının "strateji paytaxt" anlayışı kontekstində aldığı konkret məzmununu aydınlaşdırmaq gərəkdir. Onlardan birincisi, "Əliyev üçbucağı" çərçivəsində Azərbaycanın hansı anlamda geosiyasi inteqrasiyanın mərkəzi olması ilə bağlıdır. Məsələnin orijinallığı onunla əlaqəlidir ki, geosiyasi kontekstdə "strateji paytaxt" anlayışını adətən böyük dövlətlərə aid edirlər. Azərbaycan ranqında olan dövlətlər üçün bu anlamın özəl məzmunu olmalıdır. Öncə geosiyasi inteqrasiyanın mərkəzi olmaq statusu məsələsinə baxaq.

### Geosiyasi inteqrasiyanın mərkəzi

Azərbaycanın üçtərəfli əməkdaşlıq platformasının başlıca xüsusiyyəti bir tərəfdən Bakının irəli sürdüyü layihələrin mütləq həmin platformada yer alması ilə bağlıdır, digər tərəfdən isə onun başqa dövlətlər üçün də açıq olmasıdır. Bununla Azərbaycan faktiki olaraq "sahədə" real gücə çevrilir ki, onun təsir dairəsi bütövlükdə əməkdaşlıq formatını əhatə edir. Praktiki fəaliyyət "sahəsi"ndə bu üsulla gücə çevrilmək Azərbaycanı milli miqyasda əməkdaşlığın əhatə etdiyi geosiyasi məkanda ciddi təsir qüvvəsinə çevirir.

İkinci maraqlı və geosiyasi əhəmiyyəti yüksək olan özəllik rəsmi Bakının üçtərəfli əməkdaşlıq formatını daim açıq saxlaması ilə bağlıdır. Azərbaycan təcrübəsi göstərir ki, bu zaman iki istiqamətdə proseslər inkişaf edə bilər. Birinci istiqamət üçtərəfli əməkdaşlığa digər dövlətlərin daxil olmasıdır. İkinci istiqamət yenə də Azərbaycanın təşəbbüsü ilə yeni üçtərəfli əməkdaşlıq formatının formalaşmasıdır ki, "baza formatla" funksiyaca da bir-birini tamamlayırlar. Hər iki istiqamətlə bağlı nümunələrə baxaq.

"3+3" formatı birinci istiqamətin nümunəsidir. Çünki burada regionun üç dövlətinin üçtərəfli əməkdaşlığı baza model rolunu oynamalıdır. Bütövlükdə "3+3" həmin model üzərində bərqərar olmalıdır. Deməli, reallıqda regional üçtərəfli əməkdaşlığa daha üç dövlətin üçtərəfli əməkdaşlığı əlavə olunmalıdır. Bu özəllik prinsipial xarakter daşıyır. Ona görə ki, əgər Rusiya, Türkiyə və İran öz aralarında üçlü kimi gerçək əməkdaşlığa nail ola bilməsələr, "3+3" formatı praktiki olaraq yaranmayacaq. Bu da o deməkdir ki, Azərbaycanın təklif etdiyi əməkdaşlıq platforması bir-biri ilə harmoniya təşkil edən iki üçtərəfli formatın sintezidir.

Birinci istiqamətlə bağlı digər nümunə kimi Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlıq formatına enerjinin nəqli sferasında Avropanın bir neçə dövlətinin daxil olmasıdır. İtaliya, Macarıstan, Rumıniya bu baxımdan maraqlı əməkdaşlıq xəttini təşkil edirlər. Onlar faktiki olaraq üçtərəfli əməkdaşlıq platformasının açıq olması əsasında Azərbaycan-Gürcüstan-Türkiyə "üçbucağı"na vahid əməkdaşlıq platforması kimi "əlavə olmuşlar. Nəticədə, faktiki olaraq daha geniş miqyasda əməkdaşlıq platforması yaranmışdır. Deməli, söhbət Azərbaycanın geosiyasi təsir qüvvəsi kimi nüfuzunun artmasından gedə bilər.

İkinci istiqamət də çox perspektivli potensiala malikdir. Nümunə kimi Azərbaycan–Gürcüstan–Türkiyə əməkdaşlıq modelinə Azərbaycan–Özbəkistan–Türkmənistan, Azərbaycan–Qazaxıstan–Özbəkistan, Azərbaycan–İran–Türkiyə və Macarısan-Rumıniya-İtaliya (enerji nəqli sahəsində) "üçlükləri"nin əlavə olunmasını göstərə bilərik. Bu prosesi "Əliyev üçbucağı"nın konkret istiqamətlər üzrə "substantiv və funksional genişlənməsi" kimi təsəvvür etmək olar. Özü də əməkdaşlıq məkanının genişlənməsi ilə həm Azərbaycanın geosiyasi inteqrasiya mərkəzi kimi cəlbediciliyi yüksəlir, həm də buna paralel olaraq nüfuzu artır. Çox əhəmiyyətlidir ki, Azərbaycanın genişlənən geosiyasi məkanda inteqrativlik potensialının artması, onun geniş geosiyasi miqyasda fəaliyyətini daha da aktivləşdirməsini motivə edir.

### Geniş geosiyasi məkanda fəallıq

Azərbaycanın fəaliyyətinin aktivləşməsi dalğavari xarakter daşıyır. Yəni hər bir miqyas üçün aktivlik növbəti mərhələdə yeni ritmlə təkrar olunur. Bunun stimulverici faktoru və reallaşma mexanizmi "Əliyev üçbucağı"nın əməkdaşlıq fəlsəfəsi və funksional potensialının bir-birinə uyğun gəlməsi ilə bağlıdır. Nəticədə hər yeni mərhələyə keçiddən sonra Azərbaycanın fəaliyyətində aktivlik öncəki mərhələdən az olmur. Burada eksponensial inkişafdan danışmaq da risklidir, lakin mütləq Azərbaycan aktiv mövqeyində qalır. Özü də yeni mərhələdə aktivliyin müsbət nəticəverici sonucları olur. Bu baxımdan iki nümunə göstərə bilərik.

Onlardan biri Azərbaycanın Cənubi Qafqaz miyqasında regional aktivlik fazasından Türk Dövlətləri Təşkilatı (TDT) miqyasında aktivliyə keçidi nümunəsidir. Azərbaycan daha geniş miyqası əhatə edən TDT-də aktivliyini daha da artırdı. Bu prosesdə əsas rolu Bakının üçlü əmədaşlıq formatları çərçivəsində fəaliyyətinə yeni stimul verməsi xüsusi rol oynadı. Belə ki, Azərbaycan Türkiyə, Qazaxıstan və Özbəkistanla üçtərəfli əməkdaşlıq fomatını uğurla bütövlükdə TDT məkanına proyeksiya edə bildi. Eyni zamanda, Prezident İlham Əliyev TDT-dəki aktivliyi Orta Dəhliz kontekstində yeni məkana – Çindən tutmuş Avropaya qədər geniş miqyasa yüksəltdi.

İndi bu prosesin ən fəal hissəsini Zəngəzur Dəhlizi təşkil edir. Azərbaycan rəhbərliyi qlobal geosiyasi gücləri də bu prosesə cəlb etməklə faktiki olaraq məsələni regional+TDT miqyasından qlobal səviyyəyə yüksəldə bilmişdir. "Tramp yolu" deyilən rəmzi anlayış bunun sayəsində meydana gəlmişdir. Bir zamanlar, ümumiyyətlə, "Zəngəzur"u coğrafi və geosiyasi anlam kimi yaxına buraxmayan Qərb siyasi dairələri indi həmin məkanda öz adlarını görmək istəyirlər. Həmin uğurun təməlində, şübhəsiz zamanın sınaqlarından çıxmış "Əliyev üçbucağı" əməkdaşlıq platforması dayanır.

Digər nümunə də çox maraqlıdır. Azərbaycan Türkiyə vasitəsi ilə Suriyanın daxil olduğu yeni üçtərəfli əməkdaşlıq paltformasını formalaşdırır. Artıq Bakı Suriyaya qaz ixrac edir. Onun marşrutu Türkiyədən keçir. Bununla üçtərəfli əməkdaşlıq platformasını Yaxın Şərqə qədər genişləndirən rəsmi Bakı həm də özünün təsir dairəsini yeni səviyyəyə yüksəltmişdir.

### Bakının strateji paytaxt özəlliyi

Yuxarıda vurğuladığımız əməkdaşlıq xüsusiyyətləri Azərbaycanın geniş geosiyasi məkanda əməkdaşlığın strateji paytaxtı kimi qəbul edilməsinin mümkünlüyünü ifadə edirlər. Bunun fonunda "geosiyasi məkan", "geosiyasi şüa", "geosiyasi parça" və "daxili ox" strateji paytaxt olmaq keyfiyyəti ilə konseptual səviyyədə bir şəbəkə və ya qeyri-xətti sistem təşkil edirlər.

Həmin konseptuallığın əsas cəhətlərindən biri Azərbaycanın strateji paytaxt kimi özündə pilləvari səviyyələri ehtiva etməsi ilə bağlıdır. Sadə ifadə etsək, bu o deməkdir ki, Azərbaycan regional və regionlararası miqyaslarda təşəbbüs etdiyi əməkdaşlıq üçbucaqlarının bir-birini tamamlaması sayəsində vahid geosiyasi əməkdaşlıq məkanı formalaşdıra bilmişdir. Həmin məkanın cəzbedici coğrafiyası Bakıdır, əməkdaşlığı motivedən məkanı isə bütövlükdə Azərbaycan Respublikasıdır.

Bundan başqa, Azərbaycanın strateji paytaxt kimi özəlliyi nüfuzunu və təsir dairəsini dinamik artırmaqla bağlıdır. Bu prosesdə təkanverici rolu nüfuzun artmasının təsir səviyyəsini yüksəltməklə düz-mütənasib olması oynayır. Yəni öncə konkret istiqamətlər üzrə Azərbaycanın təsiri artır və bunun təməlində dövlətin geosiyasi nüfuzu yeni səviyyəyə yüksəlir. Yekun olaraq bu prosesdə "qazan-qazan" prinsipi aparıcı rol oynayır. Bu özəllik də Azərbaycanın dayanıqlı və davamlı strateji paytaxt statusunda qalmasını təmin edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində son vaxtlar atılan bir sıra addımlar, xüsusilə avqustun 8-də Vaşinqtonda sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişin mətninin paraflanması Türkiyə–Ermənistan münasibətlərinə də təsirsiz ötüşməyib. Daha doğrusu, müsbət təsir göstərir. Bu da gözlənilən idi. Çünki Türkiyə Ermənistanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdən olsa da (bu hadisə 1991-ci il dekabrın 16-da baş verib–S.H.) məhz 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalından sonra Ermənistanla sərhədini bağlayıb.**

# Sülh prosesinin regionda əks-sədası

## *Ankara–İrəvan diplomatik əməkdaşlığı*

Rəsmi Ankara dəfələrlə bəyan edib ki, Ermənistanla münasibətlərin tam normallaşması yalnız Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasından sonra mümkündür. Bu gün həmin hədəfə yaxınlaşma Türkiyə üçün də yeni diplomatik imkanlar açır. Regionda sabitliyin möhkəmlənməsi həm nəqliyyat-kommunikasiya xətlərinin bərpasını sürətləndirir, həm də iqtisadi əməkdaşlıq perspektivlərini genişləndirir. Eyni zamanda, Türkiyə ilə sərhədin açılması Ermənistana ciddi sosial-iqtisadi dividendlər vəd edir. Beləliklə, Azərbaycan–Ermənistan sülh prosesi əslində, Cənubi Qafqazda yeni əməkdaşlıq formatlarının yaranmasına zəmin hazırlayır.

Bu istiqamətdə sonuncu yenilik Türkiyənin nüfuzlu NTV kanalının (1996-cı ildə yaradılıb) məlumatlı diplomatik mənbələrə istinadən Ermənistan–Türkiyə nümayəndə heyətlərinin ikitərəfli münasibətlərin normallaşdırılması ilə bağlı görüşünə dair yaydığı məlumatdır. Telekanalın məlumatına görə, xüsusi nümayəndə Sərdar Kılıçın rəhbərlik etdiyi türk diplomatlar quru yolla – "Əlican" və "Marqara" sərhəd nəzarət buraxılış məntəqəsindən keçməklə Ermənistana daxil olacaqlar. Gözlənilən danışıqlarda məhz sərhəd məsələsi diqqət mərkəzində olacaq. Qeyd edilib ki, görüş Türkiyə və Ermənistan arasında ikitərəfli münasibətlərin normallaşdırılması üçün bəzi qərarların qəbul edilməsi və artıq qəbul edilənlərin həyata keçirilməsi məsələlərini əhatə edə bilər.



Ermənistan Xarici İşlər Nazirliyi iki ölkənin diplomatik nümayəndələrinin tezliklə keçiriləcək görüşü ilə bağlı məlumatı rəsmən təsdiqləyib. "Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində yaxın günlərdə Ruben Rubinyan və Sərdar Kılıç arasında görüş planlaşdırılır", – deyə Ermənistanın xarici siyasət idarəsinin məlumatında deyilir.

Qeyd edək ki, Türkiyə və Ermənistanın ikitərəfli münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndələrinin ilk görüşü 2022-ci il yanvarın 14-də Moskvada baş tutub. Həmin görüş zamanı tərəflər tammiqyaslı nizamlanma üzrə danışıqları davam etdirmək barədə razılığa gəliblər. Danışıqlarda Ermənistanı parlamentin sədr müavini Ruben Rubinyan, Türkiyəni isə ABŞ-dakı keçmiş səfir Sərdar Kılıç təmsil edir. İndiyədək nümayəndə heyətlərinin 5 görüşü keçirilib. Bu görüşlərdə yükdaşımalara başlamaq, o cümlədən sərhədlərin açılmasına hazırlıq üçün texniki və infrastruktur işlərinin görülməsi barədə qərarlar qəbul edilib. Əvvəlki iclaslarda xüsusi nümayəndlər diplomatik pasport sahibləri üçün viza prosedurlarını asanlaşdırmaqla yanaşı, üçüncü ölkə vətəndaşlarının Türkiyə–Ermənistan sərhədindən keçməsinə də razılıq veriblər, lakin bu qərar hələlik həyata keçirilməyib.

Cənubi Qafqazda son aylarda müşahidə olunan diplomatik fəallıq isə bir sıra istiqamətlərdə paralel proseslərin inkişafına gətirib çıxarıb. Qeyd etdiyimiz kimi, avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişin paraflanması bütövlükdə regionun gələcəyi, o cümlədən Türkiyə–Ermənistan münasibətlərində də müsbət rezonans doğurub. Bu da gözlənilən idi. Çünki Ermənistanla normallaşma mövzusu Ankaranın siyasi gündəmində daim Azərbaycanla paralel şəkildə nəzərdən keçirilib. Rəsmi Ankara dəfələrlə vurğulayıb ki, Ermənistanla diplomatik münasibətlərin bərpası və sərhədlərin açılması yalnız Bakı ilə İrəvan arasında sülhün təmin olunmasından sonra mümkündür. 44 günlük Vətən müharibəsi və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi yeni geosiyasi reallıq yaradıb. Bu reallıq yalnız Azərbaycan–Ermənistan münasibətlərini deyil, həm də Türkiyə–Ermənistan dialoqunu hərəkətə gətirib. 2022-ci ilin yanvarında Moskvada başlayan xüsusi nümayəndələr formatında görüşlər müəyyən dərəcədə müsbət nəticələr doğurub. Doğrudur, sərhədlərin tam açılması və diplomatik əlaqələrin bərpası kimi əsas məsələlər hələlik həyata keçməyib, tərəflər yalnız yükdaşımaların təşkili, vizaların sadələşdirilməsi və texniki hazırlıqlar barədə ilkin razılaşmalar əldə ediblər. Ancaq bu da özü-özlüyündə mühüm addımdır.

Son günlər bu istiqamətdə yeni dinamikanın müşahidə olunması təsadüfi deyil. Türk diplomatların quru sərhədindən istifadə etməklə Ermənistana daxil olmaları planlaşdırılır. Bu, ciddi əhəmiyyət daşıyan hadisə kimi qiymətləndirilməlidir. Çünki sərhədin qapalı qalması iki xalq arasında həm iqtisadi, həm də humanitar əlaqələrin tamamilə kəsilməsinə gətirib çıxarıb. İndi isə real addım atılacağı təqdirdə bu vəziyyət dəyişə bilər. Ermənistan XİN-ni görüşün keçiriləcəyini rəsmən təsdiqləməsi faktı göstərir ki, tərəflər artıq ilkin hazırlıq mərhələsini başa vurub, konkret nəticələrə yönələn gündəlik formalaşdırmağa çalışırlar. Danışıqların əsas mövzusu sərhədin açılması olacaq. Əgər bu istiqamətdə razılaşma əldə olunarsa, Ermənistan üçün yeni iqtisadi imkanlar yaranacaq. Açıq sərhəd qonşu Türkiyə bazarına çıxışı təmin etməklə yanaşı, həm də tranzit daşımaların canlanmasına səbəb ola bilər. Bu, Ermənistan iqtisadiyyatı üçün uzun illərdən bəri arzulanan perspektivdir. Digər tərəfdən, Türkiyənin maraqları kifayət qədər aydındır. Ankara bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşmasında öz rolunu oynamağa çalışır. Azərbaycanla qardaşlıq münasibətlərinə söykənən bu siyasət indi Ermənistanla münasibətlərin normallaşdırılması vasitəsilə daha geniş regional inteqrasiyaya xidmət edə bilər. Əlbəttə, proses asan olmayacaq. Ermənistanda revanşist dairələr hələ də mövcuddur, onlar Ankara ilə yaxınlaşmanı Azərbaycanın maraqlarına uyğun addım kimi təqdim edərək ictimai rəydə müqavimət yaratmağa çalışırlar. Lakin geosiyasi reallıq başqa istiqamətdə işləyir. Bu gün bölgədə bütün layihələr və siyasi təşəbbüslər Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üzərində qurulur. Ermənistan bunu qəbul etdikcə həm Azərbaycanla, həm də Türkiyə ilə münasibətlərin normallaşması real müstəviyə keçir. Əks halda, təcrid olunmuş vəziyyətdə qalmaq ehtimalı güclənəcək. Ona görə də İrəvan üçün ən rasional seçim konstruktiv xətt tutmaqdır. Nəticə etibarilə, Türkiyə–Ermənistan münasibətlərində son vaxtlar müşahidə olunan fəallıq birbaşa Azərbaycan–Ermənistan sülh prosesinin nəticəsidir. Vaşinqtonda avqustun 8-də sülh sazişinin paraflanması isə bu dinamikanı daha da sürətləndirdi. Çünki məhz həmin sənəd regionda yeni əməkdaşlıq formatlarının əsasını qoyur və Türkiyə–Ermənistan sərhədinin açılmasına aparan yolun önündəki ən böyük maneəni, yəni iki qonşu dövlət arasında düşmənçiliyi aradan qaldırır. Bununla yanaşı, Türkiyə-Ermənistan dialoqu təkcə ikitərəfli münasibətlərin yaxşılaşması demək deyil. Əslində, bu proses bütün Cənubi Qafqaz üçün yeni əməkdaşlıq mexanizmlərinin qapısını aça bilər. Quru sərhədin açılması ticarət dövriyyəsini artırmaqla yanaşı, həm də regionun tranzit potensialını gücləndirəcək. Ermənistan Avropa–Asiya nəqliyyat dəhlizlərinin bir hissəsinə çevrilə bilər ki, bu da ölkənin indiyədək məhdud imkanlarını xeyli genişləndirəcək. Ən əsası isə odur ki, normallaşma cəhdləri xalqlar arasında uzun illərdən bəri mövcud olan psixoloji baryerlərin yumşalmasına səbəb olacaq. Beləliklə, diplomatik təşəbbüslər təkcə siyasi deyil, həm də ictimai sülhün təməlinin möhkəmlənməsinə xidmət edəcək. Bu isə Vaşinqtonda paraflanan sülh sazişinin strateji nəticələrindən biri kimi dəyərləndirilə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# TRIPP marşrutu Transxəzər qaz kəmərinə “yaşıl” işıq yandırır

(əvvəli 1-ci səhifədə)




Müqaviləyə görə, “Botaş” Türkmənistan qazını tam həcmdə almağı və bunun 10 milyard kubmetrini Türkiyənin daxili bazarında satmağı planlaşdırırdı. Digər həcmləri isə Avropaya ixrac etməklə bu infrastrukturun yaradılması və özünün xərclərini kommersiya baxımından qarşılıqlı faydalı bir şəraitdə həyata keçirməli idi. Bununla bağlı 30 milyard kubmetr ötürmə qabiliyyəti olan boru kəmərinin Türkmənistandan Bakı yaxınlığına, Səngəçal terminalına çəkilməsi, Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Türkiyə ərazisinə daxil olması nəzərdə tutulurdu. Daha sonra layihənin müzakirəsi və tranzit ölkələrlə bu prosesin tənzimlənməsi ilə bağlı danışıqlara başlanılıb. Ancaq uzun illər keçməsinə baxmayaraq, Transxəzər qaz kəməri layihəsi ilə bağlı heç bir irəliləyiş müşahidə olunmur.

Bununla belə, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən üçtərəfli görüşdə Orta Dəhlizin mühüm seqmentlərindən sayılan Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin aparılması Transxəzər qaz kəməri layihəsinə ümidləri bir qədər artırır. Məlum olduğu kimi, həmin görüşdə beynəlxalq ticarət və tranzit imkanlarının genişləndirilməsi üçün əlverişli hesab edilən və “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” – TRIPP) adlandırılan Zəngəzur dəhlizi ilə bağlı kommersiya və təhlükəsizlik mexanizmləri üzərində ilkin razılaşma da əldə edildi. Belə bir fikir ifadə olundu ki, bu addım regionun logistika xəritəsini dəyişdirə və enerji-ticarət axınlarını yönləndirə bilər.

Bugünlərdə ABŞ-ın Hadson İnstitutunun baş elmi işçisi Lyuk Koffi “Arab News” nəşrində dərc olunan məqaləsində bildirib ki, TRIPP-nin həyata keçirilməsi fonunda Transxəzər qaz kəmərinin inşası yeni impuls qazanacaq. Onun fikrincə, kəmərin inşası ABŞ-ın xarici siyasət gündəminə, o cümlədən Cənubi Qafqaz vasitəsilə Avropanı Mərkəzi Asiya ilə birləşdirən “Tramp Marşrutu” adlı təşəbbüsə mükəmməl şəkildə uyğun gəlir.

Bu layihənin 1990-cı illərdə ABŞ Prezidenti Bill Klintonun dəstəyi ilə reallaşan regional enerji layihələri ilə, xüsusən də Bakı – Tbilisi – Ceyhan kəməri ilə tarixi paralellər təşkil etdiyini vurğulayan məqalə müəllifinin sözlərinə görə, həmin dövrdə həyata keçirilən layihələr təkcə Xəzər regionunun enerji resurslarına qlobal bazarların çıxışını təmin etmədi, həm də Qərblə əlaqələrin dərinləşməsi yolu ilə siyasi və iqtisadi sabitliyə töhfə verdi.

Müəllif Transxəzər qaz kəməri layihəsinin mübahisəli mövzu olduğuna diqqət çəkərək yazır: “Bu layihə beynəlxalq istehlakçılara Rusiya və İranın enerji bazarları və tranzit marşrutlarını kənardan dolanmağa imkan verəcək və bununla da hər iki ölkənin strateji mövqeyini zəiflədəcək. Uzun illərdir ki, Moskva və Tehran bu layihəni ətraf mühitə təhlükə və ya Xəzər dənizinin qeyri-müəyyən hüquqi statusunu əsas gətirərək diplomatik və siyasi yolla əngəlləməyə çalışıblar. Lakin müşahidəçilərin fikrincə, onların əsl narahatlığı bazar payının və siyasi nüfuzun itirilməsi ilə bağlıdır”.

Lyuk Koffi vurğulayıb ki, 1990-cı illərdən bəri Transxəzər qaz kəmərinin həyata keçirilməsi üçün belə əlverişli fürsət olmamışdı. Əgər bu kəmər inşa olunarsa, bu bütün region üçün dönüş nöqtəsi olacaq: Avropanın enerji təhlükəsizliyi təmin ediləcək, Türkmənistan üçün əlavə gəlir mənbəyi açılacaq və Avrasiya məkanında geosiyasi sabitlik güclənəcək.

Məqalə müəllifinin fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtondakı uğurlu səfərindən sonra Türkmənistana etdiyi səfər təsadüf deyil. Əksinə, bu səfər Transxəzər qaz kəməri təşəbbüsünün irəlilədilməsi məqsədi daşıyır. Digər tərəfdən, Türkmənistan da yeni reallıqlar fonunda enerji ixracını diversifikasiya etməklə qazana bilər. Avropa isə bu kontekstdə son dərəcə vacib və yeni bazar təklif edir. Qlobal enerji axınlarına qoşulmaq ölkənin geosiyasi mövqeyində strateji dəyişiklik ola bilər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Ekspert rəyi**



***İlham ŞABAN,***
***Neft Araşdırmaları Mərkəzinin rəhbəri***

Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, Zəngəzur dəhlizi yalnız avtomobil və dəmir yolu nəqliyyatından ibarət olmayacaq. Bu, həmçinin Ermənistan üzərindən Naxçıvana və oradan Türkiyəyə uzanacaq yüksək gərginlikli elektrik xətləri ilə enerji dəhlizi funksiyasını da yerinə yetirəcək. Məlum olduğu kimi, sovet dövründə Naxçıvana Cənub istiqamətindən qaz kəməri çəkilmişdi. Həmin kəmərin tikintisinə 1976-cı ildə başlanmış, bir il sonra isə artıq Naxçıvanın qazla təminatı həyata keçirilmişdi.

İndi də oxşar addımlar atılır. Amma başqa bir məqam var ki, çoxları bu suala cavab vermək istəmir. Məsələn, biz Cənub Qaz Dəhlizinə 15 milyard dollar sərmayə qoymuşuq və onun Türkiyə hissəsi 2018-ci ilin ortasında istismara verilib. Kəmərin Avropa hissəsi isə 2020-ci ilin sonunda tamamlanıb. Bu ilin martında İğdır – Naxçıvan qaz kəməri istifadəyə verildi. Onun maksimal ötürmə gücü 1,5 milyard kubmetrdir. Halbuki Naxçıvanın qaz tələbatı, təxminən, 400 milyon kubmetr təşkil edir. “Yaşıl” enerji imkanları genişləndikcə artan enerji ehtiyacları da, əsasən, həmin resurslar hesabına ödəniləcək. Deməli, qaz tələbatı əvvəlki kimi yüksək olmayacaq. Bununla yanaşı, həmin kəmər əks istiqamətdə də istifadə olunaraq qazın Gürcüstan üzərindən Ərzuruma və oradan İğdıra daşınması əvəzinə, birbaşa Azərbaycandan ötürülməsini təmin edəcək. Bu isə alternativ imkan deməkdir.

Transxəzər layihəsi ilə bağlı müzakirələr 30 ilə yaxındır davam edir. 1997-ci ildə gündəmə gələn bu məsələ ətrafında çoxlu bəyanatlar səslənsə də, Avropanın uzunmüddətli qaz təminatı artıq prioritet sayılmır. Çünki ABŞ Avropa bazarında üstünlük əldə edib. Rusiya – Ukrayna müharibəsi fonunda Birləşmiş Ştatlar Norveçlə birlikdə əsas oyunçuya çevrilib. Lakin Norveçin hasilat imkanları 2030-cu ilə qədər azalacaq. Belə olan təqdirdə ABŞ-ın rolu daha da güclənəcək.

Bununla belə, hesab edirəm ki, Türkmənistan qazının Cənub Qaz Dəhlizinə calanması faktiki olaraq mümkün deyil. Çünki Prezident İlham Əliyevin də Bakı Enerji Həftəsində dediyi kimi, yaxın 5 ildə Azərbaycanın qaz ixracı əlavə 8 milyard kubmetr artacaq və bu həcmdə qaz genişləndirilmiş Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya ötürüləcək. Ən azı, 10 il həmin ritmdə işləmək planlaşdırılır.

Türkmənistan qazının Avropaya çıxarılması üçün isə paralel boru infrastrukturunun yaradılması gərəkdir. Əgər 10 il əvvəl biz Cənub Qaz Dəhlizinə 15 milyard dollara sərmayə qoymuşduqsa, bu gün eyni layihənin dəyəri iki dəfə bahalaşaraq 30 milyard dollara qədər yüksələr. Avropanın isə bu istiqamətə pul xərcləyəcəyi inandırıcı deyil. Çünki Avropa hətta Cənub Qaz Dəhlizinin genişləndirilməsi üçün tələb olunan 5 milyard dollarlıq krediti belə münasib şərtlərlə ayırmadı.

Bir məqamı da qeyd edim ki, Avropa qaz qıtlığı çəkən bir region deyil. Beləliklə, səslənən bəyanatlar daha çox siyasi xarakter daşıyır. Əgər real maraq olsaydı, Avropanın enerji şirkətləri Türkmənistanla uzunmüddətli müqavilələr bağlamağa çalışardı. Ancaq bu günə qədər belə bir təşəbbüs olmayıb. Kommersiya marağı yoxdursa, yalnız siyasi bəyanatlar da kağız üzərində qalmaqda davam edəcək.

# Odlar yurdunda Asiya nəhənginin 375 şirkəti qeydə alınıb

**Azərbaycan–Çin ticarət dövriyyəsi dinamik artım nümayiş etdirir. 2024-cü ildə iki ölkə arasında xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq, 3.7 milyard ABŞ dolları təşkil edib.**

Habelə 2024-cü ilin yanvar-sentyabr aylarının rəsmi statistikasına əsasən, Azərbaycan ilə Çin arasında xarici birbaşa investisiya dövriyyəsi 85,9 faiz artaraq 14 milyon ABŞ dolları səviyyəsinə çatıb. Çin investorları tərəfindən qeyd edilən dövrdə Azərbaycana yönəldilən birbaşa xarici investisiyanın həcmi ötən ilə nəzərən 92,8 faiz artaraq 11,4 milyon ABŞ dolları təşkil edib. Bütün bu göstəricilər Azərbaycan ilə Çin arasında investisiya və ticari əlaqələrin yüksəlməsinin göstəricisidir. 2025-ci ilin yanvar–iyul aylarında iki ölkə arasında ticarət dövriyyəsi 2,5 milyard ABŞ dollarına çatıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz artım deməkdir. Çin şirkətləri artıq sənaye, yaşıl enerji, rəqəmsal iqtisadiyyat, nəqliyyat və yüksək texnologiyalar kimi sahələrdə birgə layihələr həyata keçirirlər.

Son illərdə Azərbaycanla Çin arasında investisiya əməkdaşlığı nəzərəçarpacaq nəticələr verir. 2024-cü ilin yanvarına olan göstəricilərə əsasən, Çinin 1995-ci ildən bəri ölkəmizə yatırdığı birbaşa investisiyaların həcmi 920 milyon dollara yüksəlib. Diqqətçəkən məqamlardan biri də Azərbaycanın Çinə qoyduğu sərmayələrin bu rəqəmdən təxminən iki dəfə çox olmasıdır.

Azərbaycan iqtisadiyyatı sabitlik və dayanıqlı inkişafı ilə seçilir. Energetika, nəqliyyat, tikinti və informasiya texnologiyaları sahələrində Çin sərmayələrinin artması Azərbaycanın iqtisadi diversifikasiyasına mühüm töhfə verir. Hazırda ölkəmizdə Çin kapitalı ilə yaradılmış 375 şirkət qeydə alınıb və onların 298-i fəaliyyət göstərir. Çin şirkətlərinin maraq dairəsi təkcə ənənəvi sektorlarla məhdudlaşmır – işğaldan azad edilən ərazilərdə həyata keçirilən iri infrastruktur layihələrinə də müraciətlər edilib.

Prezident İlham Əliyevin aprel ayında Çinə dövlət səfəri çərçivəsində imzalanmış birgə bəyanat münasibətləri strateji tərəfdaşlıq müstəvisinə yüksəldib. Dövlət başçısının son səfərində Çinin 6 iri korporasiyasının rəhbərləri ilə görüşməsi də göstərir ki, Çin sərmayədarları Azərbaycanın sabit iqtisadi mühiti və əlverişli coğrafi mövqeyinə güclü maraq göstərirlər.



Ümumiyyətlə, Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycan BTC, BTQ, TAP və TANAP kimi iri layihələrin təşəbbüskar və aparıcı iştirakçılarındandır. Bu mövqe ölkəmizi ŞƏT üzvləri üçün enerji ixracı və müxtəlif bazarlara çıxış baxımından strateji tərəfdaşa çevirir. Azərbaycan dövləti isə bütün tərəflərə sülhsevər yanaşma, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsipləri ilə çıxış edir. Elə bu xüsusiyyətlər də Azərbaycanın ŞƏT ölkələrinin inkişafında mühüm rol oynamasına imkan yaradır.

Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət körpüsü rolu sayəsində ölkəmiz Çin üçün strateji tərəfdaş statusunu möhkəmləndirir. CIFIT-2025 sərgisi isə bu əməkdaşlığın daha da dərinləşməsi üçün yeni imkanlar açır.

***Nurlan ABDALOV***
***XQ***

**Ekspert rəyi**



***Xalid KƏRİMLİ,***
***iqtisadçı-ekspert***

Ümumilikdə, Azərbaycanın idxalında Çindən gətirilən məhsulların payı 18–20 faiz arasında dəyişir. Bu göstərici zaman-zaman fərqli olsa da, həmişə ilk üçlükdə yer alır. Rusiya, Türkiyə və Çin Azərbaycanın idxalında mühüm rol oynayan əsas tərəfdaşlardır.

Çin böyük istehsal potensialına malik ölkədir. Dünyanın ən iri istehsal gücü burada cəmləşib. Bu sərgilər də Azərbaycan şirkətləri və iş adamlarının Çin şirkətləri ilə əməkdaşlıq qurması baxımından olduqca faydalıdır.

Çin özünü dünyada əlverişli istehsalçı kimi təqdim edir və münasib qiymətlərlə səmərəli həll yolları təklif edir. Bu, həm istehsal texnologiyası, həm hazır məhsullar, həm də xammal, material və aksesuar baxımından diqqətəlayiqdir. Buna görə də Çinlə əməkdaşlığın genişlənməsi, o cümlədən idxal sahəsində, Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda da rəqabətqabiliyyətli məhsul istehsalı və xərclərin optimallaşdırılması üçün bu əməkdaşlıq vacibdir. Bundan əlavə, əvvəlki illərlə müqayisədə bu il sahibkarlarımız Çinə səfərlərində viza çətinliyi ilə üzləşməyiblər. Bu da iki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq çərçivəsində əldə olunmuş razılaşmaların nəticəsidir. Beləliklə, azərbaycanlı sahibkarlar daha geniş şəkildə sərgilərdə iştirak edə bilirlər.

Çində Azərbaycanın dövlət stendinin olması da xüsusi əhəmiyyət daşıyır. Çünki biz yalnız məhsul ixracı ilə kifayətlənmirik, eyni zamanda, Çindən investisiyaların ölkəmizə cəlb olunmasını, turizm sahəsində əməkdaşlığı da hədəfləyirik. Burada söhbət təkcə məhsul almaqdan getmir, həm də Çin sahibkarlarını ölkəmizin maraqlarına cəlb etməkdən gedir. Azərbaycanın Çinə ixrac imkanları harada əlverişli olsa, həmin istiqamətdə də fəaliyyət göstərilir.

Bütün hallarda Çinə geniş sahibkar kütləsi üz tutur və ölkəmizin orada təmsil olunması Azərbaycanın maraqlarına tamamilə uyğundur. Ümid edirik ki, bu proses nəticəsində ölkəyə həm investisiya resursları cəlb olunacaq, həm də Azərbaycanın beynəlxalq nüfuzu daha da artacaq. Bu əlaqələr gələcəkdə formalaşmış münasibətləri daha da irəli aparmağa imkan verəcək.

# Zəngəzur qapısı Orta Dəhlizin yük axınını gücləndirəcək

**Avqustda Vaşinqtonda əldə edilmiş razılığa əsasən reallaşacaq Zəngəzur dəhlizi (“Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” – TRIPP) Orta Dəhliz üzrə yük axınlarının fasiləsizliyini təmin edəcək, iqtisadi inkişafa və regional inteqrasiyaya təkan verəcək. Bu barədə “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) sədri Rövşən Rüstəmov ABŞ biznes nümayəndə heyəti ilə görüşdə məlumat verib.**

Görüş zamanı ADY-nin fəaliyyəti, xüsusilə Orta Dəhliz üzrə yükdaşıma həcmlərinin artırılması istiqamətində görülən işlər barədə danışılıb. Bakı–Tbilisi–Qars dəmiryol xəttinin modernləşdirilməsi, yükötürmə gücünün illik 1 milyon tondan 5 milyon tona artırılması, Sian Limanında ADY nümayəndəsinin təyin edilməsi və illik 20 min TEU konteyner həcmli meydançanın açılması Orta Dəhlizin inkişafı üçün mühüm addımlar hesab olunur. Bundan əlavə, Çinin CRCT şirkətinin “Middle Corridor Multimodal Ltd.” birgə müəssisəsinə qoşulması da tranzit imkanlarını artırıb.

ADY-nin prioritetləri arasında emissiyaların azaldılması, təmiz texnologiyaların tətbiqi, smart sistemlərlə rəqəmsallaşma, təhlükəsiz və səmərəli əməliyyatlar, həmçinin ekoloji məsuliyyət və dayanıqlı inkişaf yer alır. 2025-ci ilin 8 ayında Azərbaycan Orta Dəhliz vasitəsilə Çindən 265 blok-qatar qəbul edib, Bakı Limanında isə 70 min TEU konteyner aşırılıb ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 47 faiz çoxdur.

ABŞ biznes nümayəndə heyəti ADY-nin fəaliyyətini yüksək qiymətləndirərək, beynəlxalq dəhlizlərdə yükdaşımalarda oynadığı rol və qarşılıqlı əməkdaşlıq imkanlarına maraqlarını ifadə edib.

***XQ***

# Neft Fondunun Çin İnvestisiya Korporasiyası ilə ortaq hədəfləri




**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) ilə Çin İnvestisiya Korporasiyası arasında ortaq layihələrin icrası üzrə müzakirələr aparılıb və növbəti addımlar müəyyənləşdirilib.**

Fonddan verilən məlumata görə, görüş ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri çərçivəsində, Korporasiyanın sədri və icraçı direktoru Qingsong Zhang ilə keçirilib. Səfərin əsas məqsədi Çin ilə investisiya əməkdaşlığını gücləndirmək və qarşılıqlı faydalı tərəfdaşlığı inkişaf etdirməkdir.

Nümayəndə heyəti Çinin yüksək səviyyəli dövlət nümayəndələrinin iştirakı ilə təşkil olunan dəyirmi masa görüşündə də iştirak edib. Bu platforma investorlarla hökumət nümayəndələri arasında birbaşa fikir mübadiləsinə şərait yaradıb.

Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin aprelində Çinə səfəri zamanı imzalanmış Anlaşma Memorandumu iki ölkənin suveren investisiya fondları arasında əməkdaşlıqda mühüm mərhələ olub. Sənəd qarşılıqlı faydalı sərmayə təşəbbüsləri, bilik və təcrübə mübadiləsi, eləcə də dayanıqlı investisiya modellərinin təşviqi baxımından strateji əhəmiyyət kəsb edir.

***XQ***

# Qırmızı imperiya 105 il əvvəl Azərbaycanı necə işğal edib?

## *Bolşevizm azadlıq və qardaşlıq adı altında 71 il xalqımızı əsarətdə saxlayıb*

**XX əsr tariximizin ən şərəfli səhifələrindən biri 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə milli dövlətçiliyimizin bərpasıdır. Əfsus ki, bu yüzilliyin ən faciəli hadisəsi də 1920-ci il aprelin 28-də rus-bolşevik işğalının müstəqil dövlətçiliyimizi yenidən süquta uğratmasıdır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu yaxınlarda Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində Rusiyanın Azərbaycanla bağlı siyasətinin tarixi köklərinə toxunaraq bildirib: “1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi... Biz öz dövlətimizi qurduq, amma bolşeviklər bu dövləti əlimizdən aldılar. 1920-ci ilin aprelində rus ordusu Azərbaycana daxil olub onu işğal etdi”.

Sovet dövründə gizlədilmiş, yalan və riyakarlıqla saxtalaşdırılmış bu tarix müstəqillik dövründə yenidən yazılıb, həqiqət öz yerini alıb. Həqiqət isə dövlət başçısının aydın şəkildə ifadə etdiyi kimidir: 1920-ci il aprel ayının 28-də Sovet Rusiyası qoşunlarının hərbi müdaxiləsi nəticəsində Azərbaycanın dövlətçilik və müstəqillik tarixində şərəfli bir mərhələ olan Xalq Cümhuriyyəti süqut etdi. İki ilə yaxın bir müddət ərzində həyatın bütün sahələrində köklü dəyişikliklərin əsasını qoymuş Azərbaycan xalqı aldadıcı şüarlar altında bölgəyə soxulmuş o qüvvələrin hegemonluğu altına düşdü, xalqın həyatında və tarixində yeni əsarət hökm sürdü.

Doğrudur, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində müstəqil dövlətçiliyin qorunması və möhkəmləndirilməsi elə də asan məsələ deyildi. Azərbaycan dövləti siyasi baxımdan kifayət qədər möhkəmlənməmiş və dünya birliyində özünün layiqli yerini tuta bilməmişdi. İqtisadiyyatın və təsərrüfatçılığın inkişafı sahəsində görülməli olan işlər çox idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu şərtləndirən bu amillərlə yox, bolşevik Rusiyasının beynəlxalq normaları ayaq altına alaraq müstəqil dövlətin ərazisinə hərbi müdaxilə etməsi ilə bağlı idi.

1920-ci ilin 28 aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərini qoruyan Cümhuriyyət qüvvələri kəmiyyət və təchizat parametrlərinə görə təcavüzkar bolşevik qüvvələrdən çox geridə qalırdı. Say üstünlüyü, texniki və döyüş imkanları əslində, Rusiyanın təcavüzünün qarşısının alınmasını qeyri-mümkün edirdi. Azərbaycanın istiqlaliyyətinin qorunması istiqamətində hər hansı beynəlxalq yardımın, təzyiq və təsirlərin olmaması isə sovet Rusiya tərəfindən təkcə Azərbaycanın deyil, bütünlükdə Qafqazın işğal edilməsi üçün əlverişli bir şərait yaradırdı.

1918-ci ilin sentyabrında Bakı bolşevik, eser-daşnak qoşunlarından azad edilsə də, bu şəhərdə mövcud olan bolşevik qüvvələri tamamilə məhv edilməmişdi. Onlar bu və ya digər şəkildə öz fəaliyyətlərini davam etdirir, şimaldan alınan yardımlar nəticəsində tədricən güclənirdilər. 1919-cu ilin ikinci yarısından isə onlar xüsusilə fəallaşdılar. Silahlı çevriliş vasitəsilə hakimiyyətin ələ alınmasına hazırlıq planı çərçivəsində hələ 1919-cu ilin yayında Rusiya Kommunust (bolşevik) Partiyası (RK(b)P) Bakı komitəsi xüsusi Hərbi-texniki komissiya yaratdı.

Rusiyanın bolşevik hakimiyyəti tərəfindən birbaşa dəstəklənən bu komissiya silah toplanması, hakimiyyət çevrilişini təmin edəcək silahlıların hazırlanması ilə məşğul olmalı, bolşeviklərin nəzarəti altında olan Həştərxan-Xəzər hərbi donanması ilə əlaqələr yaratmalı idi. Bu əlaqələrin qurulması nəticəsində 1919-cu ilin mayında Bakıdakı kommunistlər gizli şəkildə 2,5 min ədəd silah əldə edə bilmişdilər. Həmin silahlar müstəqil Azərbaycan hökumətinin devrilməsi üçün Rusiya strukturları tərəfindən təşkilatlandırılan Bakı bolşeviklərinin ehtiyatlarına verilməli idi.

Bu işlərin görülməsində Bakıda kök salmış Anastas Mikoyan xüsusi fəallıq göstərirdi. O tez-tez gizli yolla Həştərxana gedir, orada sovet Vladimir Leninin rəhbərlik etdiyi bolşevik Rusiyası hökumətinin təmsilçisi Sergey Kirovla görüşür və Bakıda silahlı üsyana hazırlığın gücləndirilməsi üçün onun təlimatlarını alırdı. 1919-cu il oktyabr ayının sonlarında Anastas Mikoyan gizli yolla RK(b)P MK-ya da yollandı və görüşdüyü adamları Bakıdakı vəziyyət haqqında məlumatlandırdı. Bundan sonra RK(b)P MK Bakıdakı kommunistlərin fəaliyyətinin qırmızı ordunun şimali Qafqazdakı fəaliyyəti ilə uyğunlaşdırılması barədə lazımi qərarlar qəbul etdi.

Elə həmin il oktyabr ayının sonlarında keçirilmiş Ümumbakı partiya konfransı da mövcud hakimiyyətin zorla devrilməsi barədə qərar qəbul etdi. Bu konfransın qərarı ilə hərbi təşkilatların və silahlı dəstələrin yaradılması istiqamətində görülən işlər fəallaşdırıldı. Noyabrın 16-da RK(b)P Bakı komitəsinin iclasında silahlı üsyana hazırlıq işlərinin RK(b)P Bakı Komitəsinə, "Hümmət" və "Ədalət" partiyalarının Rəyasət Heyətinə tapşırılması qərara alındı. 1919-cu ilin sonlarına yaxın isə Bakı rayonunun hərbi təşkilatı yaradıldı. Onun əsas vəzifəsi kimi Bakı fəhlələrindən silahlı dəstələrin təşkil edilməsi müəyyənləşdirildi. Yeni yaradılan təşkilat Bakıya silah gətirilməsinə və yaradılan dəstələrin silahlandırılmasına xüsusi diqqət yetirməli idi.

Eyni zamanda, Bakıda silahlı dəstələrin təşkili üçün Orta Asiyadan, Türküstan cəbhəsinin komandanlığından da gizli yolla silah alındı. 1920-ci ilin fevralında Bakı bolşevikləri silah toplanması üçün Moskvadan daha 5 milyon rubl vəsait əldə etdilər. S.Kirov A.Mikoyanla görüşləri barədə V.Leninə məlumat verərkən bildirirdi ki, havaların qızması və Xəzərdə nəqliyyatın bərpa olunması ilə Bakı kommunistlərinə pul və silah göndərilməsi də artacaqdır.

Moskvadakı görüşlərindən birini bitirdikdən sonra Bakıya dönərkən yolüstü Türküstana gəlib çıxmış A.Mikoyan burada sovet qoşunlarının cəbhə komandanı M.Frunze ilə görüşdü və ondan Bakıya gizli silah göndərilməsi imkanlarını müzakirə etdi. O, 1920-ci il martın 6-da Daşkənddən Bakıya göndərdiyi məlumatında vurğulayırdı ki, M.Frunze Xəzər dənizi vasitəsilə, Həştərxanda olan S.M.Kirov isə quru yolla Bakı bolşeviklərinə silah göndərəcəkdir. Bu razılığın nəticəsi kimi Türküstan cəbhəsindən Bakıda üsyana hazırlaşan qüvvələrin ünvanına 1200 ədəd tüfəng, patronlar və pulemyotlar göndərildi.



S.Kirov martın 7-də RK(b)P MK-na göndərdiyi məlumatında bildirirdi ki, qırmızı ordunun Petrovska yaxınlaşması və qırmızı donanmanın Xəzərdə fəallaşması ilə yerli qüvvələrin Azərbaycanda çevriliş edə biləcəyinə əmindir. O, dəqiqləşdirməsə də, yerli qüvvələr deyəndə heç şübhəsiz ki, Bakıda silahlandırılmış olan qeyri-azərbaycanlı əhalini nəzərdə tuturdu. Onların arasında azərbaycanlıların sayı xeyli az idi.

1920-ci il fevralın 4-də Stalinə teleqrafla göndərdiyi tələbində V.Lenin də Qafqaz cəbhəsinin gücləndirilməsinin diqqət mərkəzində saxlanmasını israr edirdi.

İki həftə sonra Lenin Xarkovda olan Stalinə yenidən teleqram göndərərək onun qarşısında Qafqaz cəbhəsinə yeni qüvvələrin göndərilməsi vəzifəsini qoydu. 11 mart 1920-ci il tarixli teleqramında isə V.Lenin yaxın vaxtlarda Şimali Qafqazda Denikin qüvvələrinin mövcudluğuna son qoyulacağını və qırmızı ordunun Azərbaycan sərhədlərinə doğru irəliləmək imkanı əldə edəcəyini gizlətmirdi.

1920-ci il mart ayının 9-da A.Mikoyana göndərdiyi məktubunda S.M.Kirov XI Qırmızı ordunun Azərbaycanın işğalı üçün vəzifələndiriləcəyini təsdiq etməklə hərbi müdaxilə zamanı Bakıda kök salmış bolşeviklərin hansı işlər görməli olacağına da işarə etmişdi.

Onun A.Mikoyana göndərdiyi yazılı təlimatda deyilirdi: "Dəstələrlə qırılmaz əlaqələr qurun... dayanmadan XI ordu ilə birgə fəaliyyət üçün dəstələr yaradın və onun başlanması barədə vaxtında məlumat verin.

Xüsusilə körpülərin məhv edilməsinin hazırlanmasına diqqət yetirin ki, düşmənin zirehli qatarını qaçırmaq imkanı olmasın... Ümumiyyətlə, Dağıstan–Bakı rayonunun hərbi baxımdan hazırlanmasına diqqət yetirin.

Kəşfiyyatı gücləndirin... Bizə düşmənin cəmləşmə yerini, anbarların, arxa obyektlərin yerini bilmək lazımdır. Siz bütün gücünüzü istifadə etməlisiniz ki, dənizlə qırılmaz əlaqə yaradasanız və bununla da lazım olan anda cəbhənin ümumi vəzifələrinə uyğun olaraq sizə dəqiq tapşırıqlar verək".

Sovet Rusiyasının Azərbaycanı işğal etmək planında cənuba doğru sürətlə irəliləmək tələbi öz əksini tapmışdı. Çünki bir tərəfdən Bakı neftinə olan ehtiyacın artması, digər tərəfdən müttəfiq dövlətlərinin müstəqilliklərini tanıdığı Cənubi Qafqaz respublikalarının suverenliyinin müdafiəsi üçün hər hansı bir yardım göstərmək ehtimalı bolşevik Rusiyasını daha cəld hərəkət etməyə sövq edirdi. Məhz buna görə də 1920-ci il martın 17-də Qafqaz cəbhəsi İnqilabi şurasının üzvləri İ.Smilqa və G.Orconikidzeyə göndərdiyi teleqramında V.Lenin Bakının tezliklə tutulmasını tələb edirdi: “Bakını almaq bizim üçün çox və çox zəruridir. Bütün gücünüzü buna istiqamətləndirin və özü də bəyanatlarınızda diplomatik olun və güclü yerli sovet hakimiyyəti yaradılmasına əmin olun”.

V.Leninin bu teleqramından sonra Qafqazda dislokasiya olunmuş XI qırmızı ordunun Azərbaycanı işğal etməsinə hazırlıq işləri son mərhələsinə qədəm qoydu. İşğalın tezliklə başa çatdırılması üçün XI ordunun tərkibinə yeni qüvvələr verildi, onun yeni hissələrlə möhkəmləndirilməsi, təcrübəli və inanılmış kadrlarla təkmilləşdirilməsi sovet rəhbərlərinin ciddi nəzarəti altına alındı. XI ordunun hücumunun Bakıdakı bolşevik qüvvələrinin fəaliyyəti ilə nizamlanmasına da diqqət artırıldı.

Rusiya Silahlı Qüvvələri baş komandanı S.Kamenevin 22 mart 1920-ci il tarixli direktivində deyilirdi ki, Qafqaz cəbhəsində Denikin ordusunun məğlub edilməsindən sonra Rusiya qoşunları Bakı istiqamətində hücumu davam etdirməli və keçmiş Bakı quberniyasının ərazisini bütünlüklə işğal etməlidir. Mart aynın 28-də onun V.Leninə məruzəsində isə bildirilirdi ki, Terek vilayətinin və Qroznunun tutulması haqqında Rusiya hökumətinin direktivindən irəli gələn vəzifələr artıq yerinə yetirilmişdir. Qarşıda Bakı istiqamətində hücumun davam etdirilməsi ilə bağlı hökumətin yeni direktivindən irəli gələn vəzifələrin həlli dayanıb.

1920-ci il aprel ayının ikinci ongünlüyünün sonlarında Bakıda bolşevik çevrilişinə hazırlıq görən kommunistlər XI ordunun komandanlığından daha dəqiq və konkret göstərişlər alınması məqsədilə bir neçə bolşeviki XI ordunun Port-Petrovskda yerləşən qərargahına göndərdi. Aprel ayının 22-də isə Diyar partiya komitəsi Bakı bürosunun iclası keçirildi. Azərbaycan K(b)P MK-nın da qatıldığı bu iclasda XI ordunun nümayəndələri də iştirak edirdilər. Həmin iclasda qərara alındı ki, aprel ayının 27-də qırmızı ordu Azərbaycan sərhədini keçsin və Bakıda təşkil edilmiş silahlı dəstələr qırmızı ordunun hücumuna dəstək vermək üçün silahlı üsyan qaldırsınlar.

Aprel ayının 25-də isə XI ordunun Petrovskda olan qərargahında toplantı keçirildi. Burada Qafqaz cəbhəsi İnqilab şurasının üzvü G.Orconikidze, XI ordu komandanı M.K.Levandovski, bu ordunun İnqilab şurasının üzvü K.Mexonişin və Bakıdan gəlmiş bolşevik nümayəndələr iştirak edirdilər. Azərbaycanın işğalının tezliklə başa çatdırılması üçün qırmızı ordu komandanlığı mütləq qüvvə üstünlüyünün yaradılması məqsədilə cəbhədə qüvvələrin yenidən qruplaşdırılmasını həyata keçirdi.

Cənubi Qafqazın sərhədlərinə yaxınlaşanda XI ordu elə də böyük say tərkibinə malik deyildi, iştirak etdiyi əməliyyatlardan sonra verilən itkilərin yeri bərpa edilməmişdi. Əvvəllər onun tərkibinə daxil olmuş qüvvələrdən yalnız 7-ci süvari diviziyası, Taman süvari briqadası, 34-cü və 50-ci atıcı diviziyalardan isə iki briqada əməliyyatda iştirak etmək potensialına malik idi. Əvvəllər XI ordunun tərkibində olan 38-ci və 39-cu atıcı diviziyalar ləğv edilərək 20-ci atıcı diviziyanın komplektləşdirilməsinə istiqamətləndirildilər. XI orduya aid olan 28-ci diviziya isə I briqadanın və 34-cü atıcı diviziyanın süvari alayı hesabına komplektləşdirildi. 50-ci Taman diviziyasının I korpusunun şəxsi heyəti də 28-ci atıcı diviziyaya verildi.

Aparılan bu qruplaşmalardan sonra Azərbaycanın işğal edilməsinə aşağıdakı qüvvələr cəlb edildi: 20-ci, 28-ci və 32-ci atıcı diviziyalar, 1-ci və 7-ci süvari diviziyalar, Taman süvari briqadası və Kurışkonun komandir olduğu briqada. Sonradan Kurışkonun briqadasının bazasında 18-ci süvari diviziyası yaradıldı. Hücumda iştirak edən süvari qüvvələri 2-ci süvari briqadasında birləşdirildi. XI orduya "III İnternasional", "Timofey Ulyantsev", "Qırmızı Dağıstan", "Qırmızı Həştərxan", "Stepan Razin", "Kraksnoarmeyets" zirehli qatarları da verildi.

Azərbaycanın işğalının tezliklə başa çatdırılması üçün Volqa-Xəzər donanması da XI ordunun əməliyyat tabeliyinə verildi. Bu ordunun gəmiləri sahil boyunca hücuma keçən sovet qüvvələrini himayə etməli idi. 1920-ci il aprel ayının əvvəllərində XI ordunun və onun tabeliyinə verilmiş qüvvələrin şəxsi heyətinin sayı 72472 nəfər idi. Onlardan 18263 nəfərinin kommunist olduğu bildirilirdi.

Sovet Rusiyası qoşunlarının Qafqaz cəbhəsinin qərargahında 1920-ci il aprelin 18-də imzalanan 368 nömrəli məruzə-raportda Bakınan ələ keçirilməsi üçün qüvvələrin qruplaşdırılmasının tezliklə başa çatdırılması zəruriliyi vurğulanırdı. Elə buradaca göstərilirdi ki, yaxın 10-12 gün ərzində hücumda iştirak edən bütün qüvvələr Dərbənd ətrafında əməliyyatqabağı mövqe tutmalı və əmrə hazır olmalıdırlar. Məruzə-raportda əməliyyatın əsas məqsədinin Bakının ələ keçirilməsi olduğu təsbit edilmişdi.

Azərbaycanın işğal edilməsi hazırlıqlarının başa çatdırılması üçün Qafqaz cəbhəsi komandanı aprel ayının 17-də artıq Petrovska yola düşdü. Burada o, vəziyyətlə tanışlıqdan sonra hücuma başlanması üçün əmr imzalamalı idi. Aprel ayının 21-də artıq bu əmr imzalandı və çoxdan planlaşdırılan hərbi müdaxilənin başlanması üçün XI ordu komandanına göstəriş verildi. Cəbhə komandanı Tuxaçevski, Hərbi-inqilab şurasının üzvü G.Orconikidze və Cəbhənin qərargah rəisinin müavini Zaxarov tərəfindən imzalanmış 490 nömrəli əmrin ilk sətirlərində Azərbaycana hücum üçün əlverişli şərait yarandığı göstərilirdi.

Azərbaycanın əsas hərbi qüvvələrinin dövlətin qərb sərhədində toplandığından Yalama–Bakı xətti boyunca çox cüzi qüvvələrin yerləşdiyi bildirilirdi. Əmrdə XI ordu komandanından tələb olunurdu ki, aprel ayının 27-də Azərbaycan sərhədini keçsin və sürətli hücumla Bakı quberniyasının ərazisini ələ keçirsin. Əmrə əsasən bütün əməliyyat 5 gün ərzində başa çatdırılmalı idi. Əmrdə süvari dəstələrinin Kürdəmirə göndərilməsi və onların vasitəsilə Zaqafqaziya dəmir yolunun nəzarət altına alınması da təsbit olunmuşdu.

Volqa–Xəzər donanmasının komandanı Raskolnikova verilən tapşırığa əsasən isə XI ordu hissələri Abşeron yarımadasına çatanda Ələt yaxınlığında dənizdən desant çıxarılmalı və bu desant XI ordu komandanlığının tabeliyinə verilməli idi. Aprel ayının 23-də Cəbhə komandanının imzaladığı yeni bir əmrlə 490 nömrəli əmr daha tamamlandı və bildirilirdi ki, aprelin 27-də başlayacaq hücum zamanı XI ordu komandanlığının vəzifəsi təkcə Bakı quberniyasını yox, bütün Azərbaycan ərazisinin ələ keçirilməsidir.

Cəbhə komandanının müvafiq əmrinə uyğun olaraq XI ordu komandanı Levandovski də aprel ayının 25-də Azərbaycan ərazilərinin ələ keçirilməsi məqsədilə başlanacaq hücum üçün 52 nömrəli əmri imzaladı. Aprelin 26-da Məhərrəmkənd, Derqat məntəqələri ətrafında ilkin mövqeləri tutan süvari korpusu aprelin 26-da saat 4-də hücuma başlamalı və əsas qüvvələrlə elə həmin gün Qusar və Qubanı ələ keçirməli idi. Aprelin 28-də Qızıl Burun, aprelin 29-da Astraxanka, Şamaxı, Ağsu nəzarət altına alınmalı idi. Qusardan korpus komandiri Quba-Xaltan-Astraxanka yolu ilə Nuxaya tərəf dəstə göndərməli idi. Şamaxı-Ağsu mövqeləri tutulandan sonra da korpusun başqa bir güclü dəstəsi Nuxa, digər güclü bir dəstəsi isə Ağsu–Qaraməryəm–Göyçay–Ağdaş–Yevlax istiqamətlərində hərəkət edərək Yevlax yaxınlığında Kür çayı üzərindəki körpünü ələ keçirməli idi.

Korpusun 3-cü dəstəsi isə Ağsu-Kürdəmir istiqamətinə göndərilməli idi ki, Bakı-Gəncə dəmir yolunu kəssin. Qızıl Burun tutulduqdan sonra korpusun daha bir güclü dəstəsi Bakının ələ keçirilməsi üçün vəzifələndirilməli idi. Bu dəstə 32-ci diviziyanın süvari briqadası ilə aprelin 29-da Yalamanı, aprelin 30-da Biləcəri və Bakını tutmalı idi. Ordunun hissə və birləşmələri Bakıya çatandan sonra süvari dəstəsi Ələt-Zubovka istiqamətinə hərəkət etməklə Kür çayı üzərindəki keçidləri tutmalı idi.

32-ci atıcı diviziya Bakı şəhərinə çatandan sonra mayın 1-də onun qərbə gedən yollarını kəsməli və Bakıdakı milli ordu qüvvələrinin və hökumətin Gəncəyə getmələrinin qarşısını almalı idi. Diviziya eyni zamanda qərb istiqamətindən şəhərə qüvvələr gəldiyi təqdirdə onlara müqavimət göstərməli idi. Bu diviziya aprelin 26-da Samur çayı boyunca hücumqabağı mövqe tutmalı və aprel ayının 27-də süvari korpusunun ardınca saat 7-də dəmir yolu xətti boyunca hücuma keçməli idi. Diviziyanın hissələri aprelin 27-də Xaçmazı, 28-də Dəvəçini, 29-da Giləzini, 30-da Sumqayıt ətrafını və nəhayət mayın 1-də Biləcərini tutmalı idi. Yalnız bundan sonra diviziya Bakının qərbinə çıxmalı idi. Hücum müddətində diviziyanın süvari briqadası süvari korpusu komandirinin tabeliyinə verilməli idi.

28-ci atıcı diviziya aprelin 27-də saat 9-da ilkin mövqeyindən hücuma keçməli idi. Elə həmin gün də Xudat stansiyasının tutulması barədə diviziyaya tapşırıq verilmişdi. Aprelin 28-də diviziya Zivazlı-Mələklər, Padar məntəqələrini, 29-da Xıdırzindəni, 30-da Yaşmanı, mayın 1-də isə Bakını, Biləcərini, Ağ şəhəri və Suraxanını tutmalı idi. Bundan sonra diviziya Ağ şəhər–Suraxanı xətti üzrə mövqe tutaraq süvari briqadaya şəhərdəki silahlıların tərksilah edilməsini tapşırmalı idi. 20-ci diviziya hücumqabağı mövqeni Dərbənddə tutmalı idi. Bu diviziya hücuma aprelin 27-də saat 10-da keçməli və elə həmin gün də Yalama stansiyasına çıxmalı idi.



**(ardı var)**

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru***

# Qlobal idarəçilik təşəbbüsü və ədalətli sistemin qurulması

**Cari ilin sentyabr ayının 1-də Çinin Tiencin şəhərində keçirilmiş "Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Plus" iclasında Çin Xalq Respublikasının Sədri Si Cinpin mühüm nitqlə çıxış edərək Qlobal İdarəçilik Təşəbbüsünü irəli sürdü. Qlobal İnkişaf Təşəbbüsü, Qlobal Təhlükəsizlik Təşəbbüsü və Qlobal Sivilizasiya Təşəbbüsündən sonra bu, Çinin beynəlxalq ictimaiyyətə verdiyi daha bir mühüm töhfədir. Bu təşəbbüs qlobal idarəçilik sistemində islahatların aparılması və təkmilləşdirilməsi üçün düzgün istiqaməti və praktik yolu müəyyənləşdirir, daha ədalətli və bərabər qlobal idarəçilik sisteminin qurulmasına güclü təkan verir və bəşəriyyətin ortaq gələcəyinin qurulmasına birgə irəliləyişə nail olunmasını təşviq edir.**

Hazırda dünya son yüz ildə görünməmiş dərin dəyişikliklər yaşayır, qlobal dinamikaları yenidən formalaşdıran sürətli proseslər baş verir. Regional qeyri-sabitliklərin artması, iqtisadi artımın ləngiməsi, qlobalizasiyaya qarşı meyillərin güclənməsi, qaydaların və hüququn aliliyinin zəifləməsi müşahidə olunur. Bu problemlər qlobal idarəçilikdə yaranmış boşluqları daha da dərinləşdirib. Məhz belə bir şəraitdə Sədr Si Cinpin dövrümüzün ən mühüm sualına cavab vermək üçün Qlobal İdarəçilik Təşəbbüsünü irəli sürüb: necə



*Lyu MEY,*
*Çinin Azərbaycandakı səfiri*

bir qlobal idarəçilik sistemi qurulmalı və qlobal idarəçilikdə necə islahatlar aparılmalı, necə təkmilləşdirilməlidir? BMT Nizamnaməsinin məqsəd və prinsipləri əsasında geniş məsləhətləşməni, birgə töhfəni və ümumi faydanı önə çəkən idarəçilik fəlsəfəsinə sadiq qalmaqla, təşəbbüs daha ədalətli və bərabər qlobal idarəçilik çərçivəsinin inkişafını təşviq etməyi və bəşəriyyətin ortaq gələcəyi uğrunda kollektiv fəaliyyəti gücləndirməyi hədəfləyir.

### Qlobal İdarəçilik Təşəbbüsünün əsas prinsipləri

**Birincisi, suveren bərabərliyin qorunması.** Bu, qlobal idarəçiliyin fundamental ilkin şərtidir. Suveren bərabərlik dövlətlərarası münasibətləri tənzimləyən ən mühüm norma və Birləşmiş Millətlər Təşkilatının, eləcə də bütün beynəlxalq institut və təşkilatların riayət etdiyi əsas prinsipdir. Suveren bərabərliyin mahiyyəti bütün ölkələrin ölçüsündən, gücündən və ya zənginliyindən asılı olmayaraq onların suverenliyinə və ləyaqətinə hörmət edilməsindədir. Onların daxili işlərinə qarışılmır, hər bir ölkə öz ictimai sistemini və inkişaf yolunu müstəqil seçmək hüququna malikdir. Bundan əlavə, onlar qlobal idarəçilik prosesində bərabər iştirak, qərarvermə və faydalanma hüququna sahibdir. Beynəlxalq münasibətlərin demokratikləşdirilməsini irəli aparmaq, qlobal idarəçilik sisteminin əksər ölkələrin maraqlarını və arzularını əks etdirməsinə çalışmaq, inkişaf etməkdə olan ölkələrin təmsilçiliyini və səsini gücləndirmək olduqca vacibdir.

**İkincisi, beynəlxalq hüququn aliliyinə sadiqlik.** Bu, qlobal idarəçiliyin əsas təminatıdır. BMT Nizamnaməsinin məqsəd və prinsipləri beynəlxalq münasibətləri tənzimləyən baza normaları kimi ümumən tanınır və qətiyyətlə qorunmalıdır. Yeni yaranan sahələrdə beynəlxalq qaydalar geniş konsensus əsasında müəyyənləşdirilməlidir. Beynəlxalq hüquq və qaydaların vahid və bərabər tətbiqinə nail olmaq, ikili standartlara və ya başqalarına zorla tətbiq edilməsinə yol verməmək mühümdür. Beynəlxalq hüququn nüfuzu və ciddiliyi təmin olunmalı, beynəlxalq hüququn aliliyinin müdafiəsi və təşviqində liderlik nümayiş etdirilməlidir.

**Üçüncüsü, çoxtərəfli əməkdaşlığa sadiqlik.** Bu, qlobal idarəçiliyin əsas yoludur. Mövcud beynəlxalq sistemin və nizamın mərkəzi konsepsiyası çoxtərəfli əməkdaşlığa əsaslanır. Geniş məsləhətləşmə, birgə töhfə və ümumi fayda prinsipi qorunmalıdır: qlobal məsələlər kollektiv müzakirə edilməli, idarəçilik sistemi birgə qurulmalı və idarəçiliyin nəticələrindən bütün ölkələr faydalanmalıdır. Təktərəfli yanaşma rədd edilməlidir. Birləşmiş Millətlər Təşkilatı çoxtərəfli əməkdaşlığın həyata keçirilməsi və qlobal idarəçiliyin irəlilədilməsi üçün əsas platformadır və onun rolu yalnız gücləndirilə bilər, zəiflədilə bilməz. Digər qlobal və regional çoxtərəfli mexanizmlər də öz üstünlüklərindən istifadə etməli, konstruktiv rol oynamalı və ayrı-seçkilik yaradan və ya istisnaedici formatlardan çəkinməlidir.

**Dördüncüsü, insan mərkəzli yanaşmanın üstün tutulması.** Bu, qlobal idarəçiliyin dəyər istiqamətidir. Bütün ölkələrin xalqları qlobal idarəçiliyin əsas iştirakçıları və faydalanan tərəfləridir. Yalnız insanların qazanclarına diqqət yetirməklə və onlara ardıcıl şəkildə inam və sabit gözləntilər təmin etməklə qlobal idarəçilik sistemi geniş dəstək qazana və səmərəli fəaliyyət göstərə bilər. Qlobal idarəçilikdə islahatların aparılması və təkmilləşdirilməsi vasitəsilə bütün ölkələrin xalqlarına ortaq inkişafın təşviqi ilə daha böyük qazanclar, bəşəriyyətin üzləşdiyi ortaq problemlərin daha yaxşı həlli ilə daha güclü təhlükəsizlik hissi və bütün ölkələrin və qrupların ortaq maraqlarının daha səmərəli təmin olunması ilə daha böyük xoşbəxtlik hissi bəxş edilə bilər.

**Beşincisi, əməli nəticələrin təmin edilməsi.** Bu, qlobal idarəçiliyin mühüm prinsipidir. Qlobal idarəçiliyin səmərəliliyi onun real problemləri həll etmək qabiliyyətindən asılıdır. Qlobal idarəçilik gündəliyinin müxtəlif məsələləri sıx qarşılıqlı bağlıdır və gücləndirilmiş koordinasiya, sistemli planlaşdırma və inteqrasiyalı irəliləyiş tələb edir. Həll yolları davamlılıq naminə həm simptomları, həm də əsas səbəbləri aradan qaldırmalıdır. Səylər yalnız təcili problemlərə deyil, həm də uzunmüddətli çağırışlara yönəldilməlidir. İnkişaf etmiş ölkələr daha çox resurs və ictimai nemət təqdim etməklə öz məsuliyyətlərini yerinə yetirməlidirlər. İnkişaf etməkdə olan ölkələr isə həmrəyliyi və öz gücünə arxalanmağı gücləndirməli və lazımi töhfələr verməlidirlər.

Qlobal İdarəçilik Təşəbbüsünün bu beş əsas prinsipi BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə uzlaşır və ölkələrin böyük əksəriyyətinin ortaq arzuları ilə səsləşir. Qlobal idarəçilikdə islahatların aparılması və təkmilləşdirilməsi mövcud beynəlxalq nizamı devirmək və ya mövcud beynəlxalq sistemdən kənarda yenidən başlamaq demək deyil. Əksinə, məqsəd mövcud beynəlxalq sistem və mexanizmlərin icra qabiliyyətini və effektivliyini artırmaq, onları dəyişən şəraitə daha uyğun, müxtəlif qlobal çağırışlara vaxtında və səmərəli cavab verən və bütün ölkələrin, xüsusən də inkişaf etməkdə olanların maraqlarına daha yaxşı xidmət edən hala gətirməkdir.

Bəşəriyyətin ortaq gələcəyi cəmiyyətinin qurulması və "Bir kəmər, bir yol" təşəbbüsünün irəli sürülməsindən tutmuş dörd Qlobal Təşəbbüsün təqdim olunmasınadək, Sədr Si Cinpin bəşəriyyətin tərəqqisi naminə məsuliyyətli mövqe sərgiləmiş, dünyanın ümumi xeyrinə çalışmaq əzmini ardıcıl nümayiş etdirmiş və qlobal sülhü və inkişafı qorumaqda qətiyyət göstərmişdir. Qlobal İnkişaf Təşəbbüsü beynəlxalq inkişaf əməkdaşlığının təşviqinə yönəlir; Qlobal Təhlükəsizlik Təşəbbüsü beynəlxalq mübahisələrin dialoq və məsləhətləşmə yolu ilə həllini önə çəkir; Qlobal Sivilizasiya Təşəbbüsü mədəniyyətlərarası mübadilə və qarşılıqlı öyrənməni asanlaşdırmağa həsr olunur; Qlobal İdarəçilik Təşəbbüsü isə qlobal idarəçilik mexanizmləri və sistemlərində islahatların aparılması üçün istiqaməti, prinsipləri və yolları müəyyənləşdirir. Fokusları fərqli olsa da, bir-birini tamamlayan bu dörd Qlobal Təşəbbüs dəyişiklik və çalxalanmalar içində olan dünyaya daha çox müsbət enerji gətirəcək və insan inkişafı ilə tərəqqisinə daha güclü təkan verəcək.

Qlobal İdarəçilik Təşəbbüsü dünya xalqlarının



ortaq arzularına cavab verir və müasir beynəlxalq ictimaiyyətin təcili ehtiyaclarını qarşılamağı hədəfləyir. Təklif olunduğu vaxtdan etibarən müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəhbərləri tərəfindən rəğbətlə qarşılanmış və dəstəklənmişdir. ŞƏT Plus iclasındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyib. Azərbaycan, həmçinin, Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəçilik Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin təkmilləşdirilməsinə yönəlmiş mühüm və vaxtında atılmış addım kimi alqışlayır.

Beynəlxalq mənzərənin necə dəyişməsindən asılı olmayaraq, Çin Birləşmiş Millətlər Təşkilatının mərkəzi rol oynadığı beynəlxalq sistemi və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamı qətiyyətlə müdafiə edəcək, tarixin düzgün tərəfində möhkəm dayanacaq, dünyanın bütün tərəqqipərvər qüvvələri ilə çiyin-çiyinə irəliləyəcək, bəşəriyyətin ortaq gələcəyi birliyinin qurulmasını davamlı şəkildə təşviq edəcək, sülh və inkişaf kimi uca amallar uğrunda yorulmadan çalışacaq. Həm Çin, həm də Azərbaycan Qlobal Cənubun üzvləri olaraq qlobal idarəçilikdə islahatların aparılması və təkmilləşdirilməsində təməl qüvvələr kimi çıxış edirlər. Çin Qlobal Cənuba daxil olan ölkələrlə, o cümlədən Azərbaycanla birgə əməkdaşlıq üçün nümunəvi təcrübə yaratmağa, Qlobal İdarəçilik Təşəbbüsünü irəli aparmaqda birgə səylər göstərməyə, daha ədalətli və bərabər qlobal idarəçilik sistemi formalaşdırmağa və bəşəriyyətin ortaq gələcəyi birliyinə doğru birgə irəliləməyə hazırdır.

**Həbibulla Şahtaxtinski – 125**

# Milli kimya elmində məktəb yaratmış alim



**Azərbaycan kimya elminin zəngin ənənələri və nailiyyətləri, ilk növbədə, bu sahədə elmi məktəblərin yaradıcıları olan akademiklər Yusif Məmmədəliyev, Murtuza Nağıyev, Əli Quliyev, Vahab Əliyev, Həbibulla Şahtaxtinski, Sultan Mehdiyev kimi dərin zəkalı və yurdsevər alimlərimizin adı ilə bağlıdır. Bu görkəmli ziyalılar Azərbaycan kimya elminə böyük töhfələr vermişlər.**

Azərbaycan EA-nın həqiqi üzvi, qeyri-üzvi və analitik kimya, qeyri-üzvi maddələrin kimyəvi texnologiyası və mineral xammalın emalı sahələrində görkəmli alim, Azərbaycan EA-nın Qeyri-üzvi və Fizika Kimya İnstitutunun (indiki Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) mineral maddələrin texnologiyası laboratoriyasının əsasını qoymuş və ilk rəhbəri olmuş, Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Həbibulla Baxşəli oğlu Şahtaxtinskinin hələ sağlığında, haqlı olaraq, Azərbaycan kimyaçılarının ağsaqqalı adlandırırdılar.

Həbibulla Baxşəli oğlu Şahtaxtinski 1900-cu ilin sentyabr ayının 9-da İrəvan quberniyasının Naxçıvan qəzasının Şahtaxtı kəndində ziyalı ailəsində anadan olmuşdur. Onun atası Baxşəli ağa Şahtaxtinski öz dövrünün çox savadlı şəxsiyyəti olmuş, tərcüməçi işləmişdir. 1909-cu ildə İrəvan klassik gimnaziyasının birinci sinfinə daxil olan Həbibulla Şahtaxtinski axırıncı sinfə qədər təhsil almış, sonra II Bakı Gimnaziyasına daxil olmuş, 1920-ci ildə oranı bitirmişdir.

Şərqdə ilk demokratik respublika olmuş AXC-nin qurulmasının canlı şahidi olan H.Şahtaxtinski 1920-1921-ci illərdə Əmək Xalq Komissarlığında təlimatçı işləmişdir. O, 1921-ci ildə təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinə ezam olunmuş, tibb fakültəsinin tam kursunu 1926-cı ildə bitirmiş, həkim diplomu almışdır. Eyni zamanda, universitetin tibb fakültəsinin 3-cü kursunda oxuyarkən o, Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) kimya-texnologiya fakültəsinə daxil olmuş və oranı 1930-cu ildə bitirib mühəndis-texnoloq diplomu alaraq gələcək həyatını bütövlükdə kimya elmi ilə bağlamışdır.

Gənc respublikaya savadlı və ixtisaslı kadrlar lazım olduğundan H.Şahtaxtinski ali məktəbdə təhsilini davam etdirməklə yanaşı, 1923-cü ildən orta təhsil müəssisələrində, fabrik-zavod məktəblərində, fəhlə fakültələrində, texnikumlarda dərs demişdir. Hələ tələbə ikən o, 1924-cü ildə Politexnik İnstitutunda analitik kimya kafedrasına laborant qəbul edilmiş, 1926-cı ildə isə ali təhsilli laborant vəzifəsinə keçirilmişdir. 1930-cu ildə H.Şahtaxtinski qeyri-üzvi və analitik kimya kafedrasının assistentiolmuş, bir ildən sonra miqdari kimyəvi analiz laboratoriyasına rəhbərlik etmişdir.

1934-cü ildən H.Şahtaxtinski dosent vəzifəsini icra etmiş, 1937-ci ildən etibarən 22 il ərzində analitik kimya kafedrasına rəhbərlik etmişdir. O, 1930-cu ildən başlayaraq, müxtəlif vaxtlarda Azərbaycan Dövlət Universitetində, Azərbaycan Kənd Təsərrüfatı, (Bakıda və Gəncədə), Tibb, Pedoqoji və Qiyabi Pedoqoji institutlarında dərs demişdir. Hətta akademik kimi çox sayda tələbələrinin, aspirantlarının, doktorantlarının olmasına, kimya və metallurgiya sənayesinin böyük problemlərini tədqiq etməsinə baxmayaraq, qocaq -üzvi maddələrin texnologiyası kursunu oxumağa da vaxt tapırdı.

Həbibulla müəllim 30-cu illərdə pedoqoji fəaliyyətlə yanaşı, böyük elmi-tədqiqat işləri də aparmışdır. Elə bu vaxtlar arsenat-yodometriya sahəsində başladığı tədqiqat işləri sonralar analitik kimyada "arsenat-yodometriya" adlı böyük və vacib bir elm bölməsinin yaranmasına səbəb olmuşdur.

Kimya fənninin Azərbaycan dilində tədrisinin əsasını qoyanlardan biri olan H.Şahtaxtinskinin 1937-ci ildə çapdan çıxmış "Miqdari kimyəvi analiz" dərsliyi sonralar 1953-cü ildə ikinci nəşri olunmuş və bu günə qədər ali məktəb və müəllimlərin istifadə etdiyi ən qiymətli vəsaitlərdən biridir. O, 1940-cı ildə "Yod həlledicilərinin tətbiqi ilə arsenat turşusunun və maqneziumun yodometrik təyini" mövzusunda namizədlik dissertasiyası, 1949-cu ilin fevralında M.Lomonosov adına MDU-nun kimya fakültəsinin elmi şurasında "Yodometriyanın arsenat üsulu" mövzusunda isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1950-ci ilin yanvarında ona professor adı verilmişdir.

II Dünya müharibəsi illərində H.Şahtaxtinski Respublika Xalq Komissarları Sovetinin tapşırığı ilə yerli xammal və materialların emalı əsasında ölkənin müdafiə ehtiyacı üçün döyüş sursatı hazırlayan xüsusi kimya qrupuna rəhbərlik etmişdir. Bu işə görə o, Azərbaycan SSR Ali Sovetinin Fəxri-fərmanı və "1941–1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyinə görə" medalı ilə təltif edilmişdir.

1959-cu ilin sentyabrında Həbibulla Şahtaxtinskinin təşəbbüsü ilə Azərbaycan EA-nın Kimya İnstitutunda (indiki Kataliz və Qeyri üzvi Kimya İnstitutu) respublikada elmi istiqamətinə görə yeganə olan mineral maddələrin texnologiyası laboratoriyası yaradılmışdır. O, Azərbaycan Neft və Kimya İnstitutundakı analitik kimya kafedrasını tələbələr üçün saxlayaraq, yeni yaradılan laboratoriyanın rəhbəri olmuş və özünün tamamilə elmi ideyalarını burada həyata keçirmişdir. Akademik 27 il bu laboratoriyada işləyərək ömrünün sonuna kimi Azərbaycanın mineral xammalının öyrənilməsinə və kompleks işlənməsinə dair tədqiqat işləri aparmışdır. Sonralar bu laboratoriya şöbəyə və 4 laboratoriyaya çevrilmiş və hazırdada fəaliyyət göstərirl: qeyri-filiz mineral xammalın emalı; dəmir və titan tərkibli filiz xammalının emalı; əlvan metal tərkibli mineral xammalın emalı; analitik kimya laboratoriyası.

H.Şahtaxtinskinin Azərbaycanın mineral sərvətlərinin emalına aid tədqiqatları əsas mineral xammalların – alunitin, Filizçay polimetal filizinin, Daşkəsən dəmir filizinin, titanlı dəniz qumunun, boratların, daş duzunun, dolomitlərin emal problemlərini, nadir, səpələnmiş, qara və əlvan metalların kimyası və texnologiyası kimi çox böyük sahələri əhatə edir.

Dünyada ilk dəfə Gəncə–Gil torpaq zavodu öz fəaliyyətinə 1965-ci ildə alunitin emalı ilə başlamışdır. Bu istehsalatda texnologiyanın təkmilləşdirilməsi, emalın göstəricilərinin yaxşılaşdırılması, istehsal prosesinin müxtəlif pillələrində itirilən qiymətli komponentlərin (vanadium və qalliumun) alınması, qaz tullantılarının təmizlənməsi və istifadəsi üzrə tədqiqat işlərinin aparılması H.Şahtaxtinskinin rəhbərliyi ilə onun tələbələri tərəfindən davam etdirilmişdir. Alunitin kompleks emalı üzrə H.Şahtaxtinskinin apardığı işlər bu gün də son dərəcə aktual olduğu üçün, hal-hazırda da İnstitutda "Alunitin yeni emal texnologiyası" adı ilə davam etdirilir.

Akademik H.Şahtaxtinskinin öz biliyini və gücünü sərf etdiyi mühüm və böyük problemlərdən biri də əlvan metallurgiya sənayesində alınan və tullantı qazlarının tərkibinə daxil olan kükürd qazlarından elementar kükürdün alınmasıdır. Dünya praktikasında ilk dəfə olaraq, müxtəlif katalizatorlardan istifadə etməklə kükürd 4-oksidin aşağı temperaturda konversiya qazı ilə reduksiyasının elmi əsasları işlənilib hazırlanmışdır.

Keçmiş SSRİ Əlvan Metallurgiya Sənayesi Nazirliyi bu metodu yüksək qiymətləndirmişdir. Qərara alınmışdır ki, bu metod Norilsk metallurgiya kombinatında mis zavodunda tətbiq olunsun. Sonralar bu proses alimin tələbələri tərəfindən Ryazan metallurgiya zavodunda yarım-sənaye qurğusunda sınaqdan keçirilmiş və Norilsk metallurgiya kombinatında mis zavodunda tətbiq edilmişdir.

Çox zəngin təbii ehtiyata malik tərkibində 40-a qədər qiymətli element olan Filizçay polimetal filizinin kompleks emalı problemi də H.B.Şahtaxtinskinin elmi fəaliyyətində çox mühüm bir mərhələni təşkil edir. Belə ki, onun bilavasitə rəhbərliyi altında filizin zənginləşməsindən alınan ayrı-ayrı selektiv konsentratların (mis, sink, qurğuşun və pirit), kollektiv konsentratın və birbaşa filizin işlənməsinin yeni texnoloji sxemləri işlənilib hazırlanmışdır.

H.Şahtaxtinskinin irəli sürdüyü daha mühüm bir problemi qeyd etmək lazımdır. Daşkəsən dəmir filizini və titan-maqnetit konsentratlarını təbii qazla birbaşa reduksiya etməklə polad əritmə, ovuntu metallurgiyası və s. istehsal sahələri üçün reaktiv təmizliyə malik çox qiymətli xammalların (dəmir, titan 4-oksid, vanadium 5-oksid, atom birləşmələri) alınması və filizin zənginləşməsi nəticəsində alınan tullantılardan maqnetit və mis-kobalt konsentratının çıxarılmasının texnologiyası işlənib hazırlanmış və sınaqdan keçirilmişdir.

Alimin yaradıcılığını Sovet alimlərindən akademiklər İ.Tananayev, I.Alimarin, H.Javoronkov və başqaları yüksək qiymətləndirmişlər. M.Lomonosov adına MDU kimya fakültəsinin elmi şurasın

H.Şahtaxtinskinin Azərbaycan EA-nın həqiqi üzvlüyünə namizədliyini müdafiə etmiş, o, 1967-ci ildə müxbir üzv olmadan birbaşa Azərbaycan EA-nın həqiqi üzvi seçilmişdir. O, Azərbaycanda kimya elminin klassiki, əsl mənada Respublika kimyaçılarının ağsaqqalı, istedadlı pedaqoq və gözəl insan idi.

H.Şahtaxtinskinin elmi işlərinin nəticələri 7 monoqrafiya və dərsliklərdə, 400 elmi məqalədə, müəllif şəhadətnamələrində və elmi hesabatlarda ümumiləşdirilmişdir. O, 40-a yaxın elmlər namizədi və doktoru, minlərlə mühəndis-texnoloq, kimyaçı, müəllim və elmi işçilər hazırlamışdır. Dünya şöhrətli xarici alimlərin monoqrafiyalarında H.Şahtaxtinskinin əsərlərinə çoxlu sayda istinad olunur. Onun 30-dan çox elementi filiz, ərinti və daş süxurlarında təklif etdiyi metodla təyini keçmiş ittifaqda, həm də xaricdə tanınmış və ədəbiyyata "H.Şahtaxtinski metodu" kimi düşmüşdür.

Uzun müddət səmərəli elmi-pedoqoji fəaliyyətinə görə akademik H.Şahtaxtinski "dövrünün nüfuzlu mükafatları ilə təltif olunmuşdur. 1974-cü ildə ona Azərbaycanın Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Akademik H.Şahtaxtinskinin 125 illik yubileyi gündə biz alimin irsini, onun elmi uzaqgörənlik istedadını, perspektiv elmi ideyalarını minnətdarlıqla qiymətləndiririk. Onun elmdə yaratdığı yeni istiqamətlər, müstəqil Azərbaycanın iqtisadi potensialının yüksəldilməsi və ehtiyatların səmərəli istifadə olunması üçün bu gün xüsusən aktualdır.

*Dilqəm TAĞIYEV,*
*Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru, akademik*
*Arif HEYDƏROV,*
*laboratoriya müdiri, professor*

*Yeni dərs ili yaxınlaşır*

# Gəl-gəl, məktəb günləri!

**Artıq təqvim sentyabrın ilk günlərini göstərir. Ölkənin bütün guşələrində yeni dərs ilinə hazırlıqlar hiss olunur.**



Park və meydanlarda yeniyetmələrin səs-küyü ilə işə tələsən valideynlərin sürətli addım səsləri qarışır. Bu mənzərə məktəb bazarlarında daha aydın görünür. Bu günlərdə məktəb bazarları həyəcan, sevinc, qayğı kimi duyğuları birləşdirir. Valideynlər övladlarının gələcəyi üçün ən yaxşısını seçməyə çalışır, şagirdlər kitab rəflərində sıralanan dərslik, qələm, dəftərlərə üz tuturlar.

15 sentyabr Bilik Gününə sayılı günlər qalır. Sanki indidən hər tərəfdə yeni dərs ilinin ilk sədası eşidilir. Məktəbli yarmarkaları isə yalnız alış-veriş məkanı deyil: Bura valideynlərin qayğısı, "nəvə baladan da şirindir" deyən nənə-babaların sevgisinin, uşaqların arzularının qovuşduğu məkandır.



Rəflərdə düzülən çantalar, təzə dəftərlər və rəngbərəng qələmlər qarşıdan gələn günlərin müjdəçisidir. Valideynlər qiymətləri müqayisə edir, məktəbli forma ölçüsünü yoxlayır. Birinci sinfə gedəcək balaca həyəcanla ilk qələmini seçir, yuxarı sinif şagirdi isə yeni fənlərin kitablarını seçir. Məktəblərdə isə hazırlıq işləri aparılır, sinif otaqları təmir olunur. Yeni dərs ili bilik, zəhmət və ümidlə qurulan yolun başlanğıcıdır. Hər kəs hazırlaşır, düşünür, plan qurur və ümidlə yeni başlanğıcı gözləyir.

**Biz də bu canlanmanın mərkəzinə – məktəbli yarmarkalarına üz tutduq. Qayğılarını bölüşən, nəvəsinin sevincinə şərik olan Əli Bağırov deyir ki, təhsil üçün çəkilən hər əziyyətə dəyər:**

– Məktəb bazarlığı bugünlərdə ailələrin əsas qayğısıdır. Çanta, forma, dəftər-qələm – hamısını,təxminən, 150-160 manat edir. Ən çox pul geyimə və çantaya gedir, dəftər-qələmin də öz xərci var. İki-üç uşaq oxudan ailəyə daha çox yük düşür. Amma uşağın məktəbə getməsi elə bir sevincdir ki, xərclər gözə görünmür. Əsas odur ki, övladlarımız oxusun, savadlı böyüsün. Biz də buna görə çalışırıq. Çünki təhsilə qoyulan sərmayə gələcəkdə öz bəhrəsini verir.

**VIII sinif şagirdi Tamerlan Baxışovun gözlərində sevinc parlayırdı. Məktəbə qayıtmaq, dostlarını görmək, həm də müəllimləriylə yenidən görüşmək onun üçün əvəzsiz xoşbəxtlik deməkdir:**

– Yenidən məktəbə qayıdacağım günü gözləyirəm. Məktəbdə dostlarım çoxdur, onlarla birlikdə nəsə öyrənmək çox maraqlıdır. Ən sevdiyim fənn riyaziyyatdır.

**Tamerlanın bacısı Milana isə daha çox həyəcanlı idi, ən gözəl çantanı seçmək istəyirdi:**

– Bu il IV sinfə gedəcəyəm. İstəyirəm ilk dərs gününə təzə formada gedəm. Ən çox ingilis dili və Azərbaycan dili dərslərini sevirəm. Böyüyəndə isə həkim olmaq istəyirəm. Üstü bəzəkli dəftərlərə yazı yazanda çalışıram ki, xəttim gözəl görünsün.

Yarmarkada uzunsaçlı, balaca qızı ilə alış-veriş edən Aytən Zeynallı çantaları, dəftərləri, geyimləri yoxlayır, qiymətlərə fikir verir, simasında təbəssüm əks olunur:

– Övladım bu il birinci sinfə gedəcək. Biz artıq bir ildir ki, onu Avropa liseyinə hazırlaşdırırdıq. İmtahan uğurlu keçdi. Məktəbli yarmarkasına gəldikdə, mən keyfiyyətə diqqət edirəm, çünki şagirdin geyimi rahat, dəftər və qələmləri isə uzun müddət istifadəyə yararlı olmalıdır. Xərclər əlbəttə ki, çox olur, amma mən bunu heç vaxt yük hesab etmirəm. Övladımın uğuru bütün yorğunluqları, xərcləri və əziyyətləri unutdurur.

**Valideynlər məhsulları diqqətlə yoxlayır, satıcılar çantaları, dəftərləri və qələmləri təqdim edir, alıcıların suallarına cavab verir, məhsulların xüsusiyyətlərini izah edir, bəzən də gülümsəyərək uşaqların seçimlərinə yardımçı olurlar. Gəlin, indi bazarın bu canlı ritmini, satıcıların alıcılara yanaşmasını və onların gündəlik işini elə özlərindən öyrənək. Satıcı Nərmin Baxşəliyeva bildirir ki, alıcılarla ünsiyyətdə ən vacib məsələ səmimi olmaqdır. Yalnız bu halda insanlar bir-birinə yardım edə, kiçik xoşbəxtlikləri paylaşa bilərlər:**

– Şəhərimizdə mağazalar çoxdur. Bəzən insanlar ucuz qiymətə aldanırlar. Lakin unutmaq olmaz ki, əsas məsələ məhsulun keyfiyyətidir. Biz çalışdığımız müəssisədə daim bunu prioritet hesab edirik. Hər il olduğu kimi, bu il də xüsusi endirimlərlə valideynləri sevindiririk. Ötən il bizə müraciət edən valideynlərlə yenə sentyabr ayında görüşürük. Ümumi alış-verişləri nəzərdən keçirəndə isə aydın olur ki, məktəb xərcləri təxminən 200-300 manat arasındadır.

**Təhsil eksperti Kamran Əsədov dərs ilinə hazırlıq prosesinin əvvəlki illərlə müqayisədə planlı və sistemli aparıldığını bildirir:**



– Yeni dərs ilinə hazırlıq prosesi Azərbaycanda bu dəfə əvvəlki illərlə müqayisədə daha sistemli və planlı şəkildə aparılıb. Dövlətin təhsil siyasətində son illərdə ardıcıl olaraq həyata keçirilən tədbirlər nəticəsində bu gün məktəblərin yeni tədris ilinə tam hazırlığı müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, ölkə üzrə 1,6 milyondan çox şagird məktəbə qədəm qoyacaq, onlardan təxminən 148 min nəfəri isə ilk dəfə parta arxasında oturacaq.

Bu qədər böyük kontingentin təhsil alması üçün lazım olan bütün infrastruktur və resurslar dövlət tərəfindən əvvəlcədən təmin edilib. Hazırlıq prosesində məktəblərin təmiri məsələsi xüsusi önəm daşıyır. Son illərdə ölkənin müxtəlif bölgələrində yüzlərlə yeni məktəb binası tikilib, köhnə məktəblərin əksəriyyətində əsaslı təmir işləri aparılıb. Təkcə 2024–2025-ci dərs ili ərəfəsində 300-dən çox məktəbdə yenidənqurma işləri həyata keçirilib.

Bu, "Təhsil haqqında" Qanunun 14-cü maddəsində dövlətin öhdəliyi kimi göstərilən "təhsilalanların keyfiyyətli təhsil alması üçün bərabər şəraitin yaradılması" tələbinin praktik təsdiqidir. Artıq şagirdlər təmiz, işıqlı və müasir standartlara cavab verən sinif otaqlarında təhsil almaq imkanı qazanıblar. Bu prosesdə Heydər Əliyev Fondunun xüsusi rolu var. Fond illərdir ki, respublikanın ən ucqar kəndlərində belə yeni məktəb binaları inşa etdirərək uşaqlara bərabər imkanlar yaradıb. Dərslik təminatı məsələsi də bu il əvvəlki illərdə olduğu kimi ciddi nəzarətə götürülüb. Elm və Təhsil Nazirliyinin açıqlamasına əsasən, yeni dərs ilinə bütün şagirdlər dövlət hesabına dərsliklərlə tam təmin olunublar. Bu, "Ümumi təhsil haqqında" Qanunun 6.2-ci maddəsində qeyd olunan "şagirdlərin dövlət hesabına dərsliklərlə təmin olunması" öhdəliyinin icrasıdır. Əlavə olaraq elektron dərslik bazası genişləndirilib, bütün siniflər üzrə müasir elektron resurslardan istifadəyə şərait yaradılıb.

Bununla həm ənənəvi dərslik problemi tam aradan qaldırılıb, həm də şagirdlərin rəqəmsal resurslardan faydalanması üçün imkan açılıb. Yeni dərs ilində müəllim təminatı məsələsi də uğurla həll edilib. Sertifikasiya prosesi ilə müəllimlərin bilik və bacarıqları yoxlanılıb, nəticədə, məktəblərdə peşəkar kadrların sayı artıb.

Bu il regionlara lazımi sayda müəllim göndərilib, dərs bölgüsü yekunlaşdırılıb. Elm və Təhsil Nazirliyi müəllim çatışmazlığının qarşısını almaq üçün xüsusi proqramlar hazırlayıb. Bu, "Təhsil haqqında" Qanunun 35-ci maddəsində yazılan "təhsil işçilərinin peşəkarlığının artırılması" prinsipinin real təminatıdır.

Uğurların hər biri Prezident İlham Əliyevin təhsilə göstərdiyi xüsusi diqqətin nəticəsidir. Prezidentin sərəncamları, dövlət proqramları və büdcədə təhsilə ayrılan vəsaitin ildən-ilə artırılması bunun bariz nümunəsidir.

***Fidan ƏLİYEVA***
***XQ***



# Açıq səma altında geniş sənət dünyası

## *Estetik tərtibat şəhərləri gözəlləşdirir, turist axınını artırır*

**Şəhərlərin mənzərəsini yalnız binalar, yollar və parklar deyil, həm də onların ruhunu əks etdirən ictimai incəsənət nümunələri formalaşdırır. Divar rəsmləri, heykəllər, installyasiyalar və müxtəlif bədii layihələr şəhərlərin ümumi görünüşünə rəng və dinamika gətirir, sosial inkişafa təkan verir.**

İctimai incəsənət mədəniyyəti muzeylərin divarları arasından kütləvi məkanlara daşıyır və onu hər kəs üçün əlçatan edir. Eyni zamanda, şəhərin mədəni özəlliyini və tarixini özündə əks etdirir. İçərişəhərdəki kiçik heykəllər və installyasiyalar qalanın zəngin tarixindən bəhs edir, sənət layihələri isə gənclərin yaradıcılığını təşviq edərək şəhər məkanını özünüifadə platformasına çevirir. Bu sənət növü müxtəlif sosial qrupları birləşdirir, insanlar arasında əlaqələri gücləndirir və tolerant mühit formalaşdırır.



İctimai incəsənətin rolu təkcə sosial faydalarla məhdudlaşmır, onun iqtisadi tərəfi də qazanc gətirir. Maraqlı divar rəsmləri və digər sənət nümunələri şəhərlərin turizm potensialını artırır və yeni cəlbedici marşrutlar yaradır.

Dünyanın bir çox yerində ictimai incəsənət şəhərsalmanın ayrılmaz hissəsidir. Məsələn, Berlin divarının qalıqları üzərindəki "Şərq Tərəfi Qalereyası" və Nyu-Yorkun küçə sənəti ilə məşhur Bruklin kimi məkanlar hər il milyonlarla turisti cəlb edir. Çilinin Valparaiso şəhəri isə bütövlükdə "açıq hava qalereyası"dır. Bu incəsənətin təkan verdiyi turizm axını yerli iqtisadiyyata birbaşa töhfə verir. Sənət əsərlərinin yerləşdiyi məkanlar kafe, restoran və kiçik bizneslərin yaranmasına səbəb olur. Barselonada Gaudi parkları, Berlində müasir küçə sənəti, San Pauloda "Batman Alley" kimi yerlər şəhərlərin tanınma nişanına çevrilib.

Azərbaycanda da son illərdə bu sahədə diqqətçəkən işlər görülür. Paytaxtımız, sadəcə, tarixi abidələr və müasir memarlıq əsərləri ilə deyil, həm də maraqlı incəsənət nümunələri ilə diqqəti cəlb edir. Şəhərin tarixi mərkəzi olan İçərişəhərdən bayır şəhərə keçdikcə fərqli sənət nümunələrinə rast gəlmək mümkündür. Heydər Əliyev Mərkəzi ətrafındakı parkda müasir installyasiyalar sərgilənir. Ağ Şəhər layihəsində isə rəngarəng heykəllər şəhərin yeni görünüşünü tamamlayır. Dənizkənarı Bulvar bütünlüklə açıq hava qalereyasıdır. Bulvar boyu yerləşən müasir heykəllər və installyasiyalar sakinlər və turistlər üçün geniş estetik mühit yaradır.

Şəhərdə küçə sənəti də inkişaf etməkdədir. Ağ Şəhər və Nərimanov rayon ərazisində rast gəlinən qraffiti və mural rəsmləri Bakının, sadəcə, turizm mərkəzi deyil, həm də sənətin inkişaf etdiyi şəhər olduğunu göstərir. Küçə sənətinə aid maraqlı nümunələrə Bakının müxtəlif yerlərində, o cümlədən Qala qəsəbəsində, "Olimp" mağazasının yaxınlığında, Tiflis və Azadlıq prospektlərində, eləcə də 3-cü mikrorayon dairəsində rast gəlinir. Park Bulvarın dayanacağında qraffiti festivalından qalan rəsmlər də diqqəti cəlb edir.

Beləliklə, şəhərləri cazibədarlaşdıran bu sənət növündən, sadəcə, boş divarları bəzəmək üçün deyil, insanların sosial və mədəni həyatını zənginləşdirmək, gəlir əldə etmək və ən əsası, cəmiyyəti estetik duyğu-düşüncələr çevrəsində toparlamaq, əyləndirmək, düşündürmək üçün istifadə olunur.

***Arzu ƏLİYEVA***
***XQ***

# Şagird formaları xüsusi ünvanlarda satılır

**Ümumtəhsil müəssisələrində tətbiq edilən vahid məktəbli geyimlərinin əldə edilməsini asanlaşdırmaq məqsədilə Bakı şəhərində 29 satış məntəqəsi fəaliyyət göstərir.**

Bakı Şəhər üzrə Təhsil İdarəsindən XQ-yə verilən məlumata görə, alıcılar ən yaxında olan istənilən satış məntəqəsinə müraciət edə bilərlər. Məktəbli formalarının əldə edilməsində seçim sərbəstdir. Valideynlərin hansısa digər satış məntəqəsinə yönləndirilməsi yolverilməzdir. Valideynlər məktəbli formaları ilə bağlı hər hansı məsələ ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 146-1 Çağrı Mərkəzi vasitəsilə məlumat verə bilərlər.

Xatırladaq ki, 2022-ci ildə ümumtəhsil müəssisəslərinin pedaqoji şuraları 4 növ geyim formasından birinin tətbiqi ilə bağlı qərar qəbul edib.

***Ləman TƏHMƏZ***
***XQ***



# Proaktiv ödənişlər sadələşdirilir

## *Yanvar-avqust aylarında 36,2 min şəxsə əlillik təyin olunub*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-avqust aylarında 36,2 min şəxsə əlillik təyin edib.**

Onlardan 16,2 min şəxsə ilkin, 20 min şəxsə isə təkrar əlillik təyinatı aparılıb.

Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir. Təyinatdan sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

***L.TƏHMƏZ***
***XQ***



# Azərbaycan gələn il Dünya idman və biznes mərkəzinə çevriləcək




**Bakı beynəlxalq idman ictimaiyyətinin ən nüfuzlu müzakirə platformalarından biri olan SportAkkord Dünya İdman və Biznes Sammitinə ev sahibliyi edəcək. Bu məqsədlə sentyabrın 8-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, SportAkkord və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti arasında rəsmi müqavilə imzalanıb və təqdimat mərasimi keçirilib. İmzalanan rəsmi müqaviləyə əsasən, 2026-cı il 24–28 may tarixlərində SportAkkord Dünya İdman və Biznes Sammiti Bakıda keçiriləcək.**

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında bildirdi ki, SportAkkord Dünya İdman və Biznes Sammitinin ölkəmizdə keçirilməsi Azərbaycanın növbəti uğurudur: "Beynəlxalq idman aləmində öz sözümüzü demişik, hər il yeni uğura imza atırıq. Beynəlxalq qurumlar da bizə inanırlar və tədbirləri Azərbaycana həvalə edirlər. Bakı 2026-cı ildə dünyanın idman paytaxtı olacaq. Adı qorumaq üçün bir sıra turnirlər keçirəcəyik".

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə isə bunu Azərbaycanda növbəti idman bayramı adlandırdı: "Bu həqiqətən böyük tədbirdir. Dəfələrlə bu tədbirlərə qatılmışam, vacib qərarlar qəbul olunub. SportAkkordun rəhbərliyinə təşəkkür edirik. Azərbaycan idman ölkəsidir və bu tədbirin də yüksək səviyyədə təşkil olunacağına inanırıq".

SportAkkord-un prezidenti Uğur Erdener sammitdə 2800–3000 nəfərin iştirak edəcəyini bildirdi. O, açıqlamasında qeyd etdi: "Dünyanın önəmli idman adamları Bakıya gələcəklər. Dünyadakı federasiyaların rəsmi şəxsləri də iştirak edəcəklər. Hamısı Azərbaycan mediası və xalqı ilə tanış olacaqlar. Bakı çox gözəl şəhərdir, burada bir sıra beynəlxalq idman turnirləri uğurla təşkil olunub".

2003-cü ildə təsis edilən SportAccord bu gün həm Olimpiya, həm də qeyri-Olimpiya idman növlərini təmsil edən 120-dən çox beynəlxalq federasiyanı, Beynəlxalq Olimpiya Komitəsini və digər idman qurumlarını bir araya gətirən nüfuzlu təşkilatlardan biridir. Təşkilatın əsas məqsədi idmanın qlobal inkişafına dəstək vermək, idman qurumları arasında əməkdaşlığı gücləndirmək və idmanın sosial, iqtisadi və mədəni dəyərlərini dünyada təşviq etməkdir.

SportAkkord-un hər il keçirilən sammiti qlobal idman və biznes dairələrinin ən mötəbər tədbirlərindən biri hesab olunur. Burada yüzlərlə beynəlxalq federasiya, təşkilat, sponsor və media nümayəndəsi bir araya gələrək idman dünyasının gələcəyini müzakirə edir, yeni tərəfdaşlıqlar qurur və qlobal şəbəkələşmə imkanlarından yararlanır. Sammit çərçivəsində konfranslar, sərgilər və ikitərəfli görüşlər təşkil olunur.

Təqdimat mərasimində MOK-un baş katibi Azər Əliyev və müxtəlif federasiyaların rəsmiləri iştirak edirdilər.

***Səbuhi MƏMMƏDOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# İki ünvana köç, ikiqat sevinc

**5 il əvvəl azadlığına qovuşmuş ərazilərdə bərpa-quruculuq işləri gündən-günə daha geniş vüsət alır.**



Həyata keçirilən genişmiqyaslı layihələrin nəticəsi olaraq uzun illər Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünləri daşıyan köç karvanları əzəli və əbədi torpaqlarımıza istiqamət götürür, bir vaxtlar min-bir müsibətlə ev-eşiklərindən didərgin düşmüş insanlar sevinc və qürur içində daimi yaşamaq üçün geriyə, doğma şəhər və kəndlərinə qayıdırlar. Hər yeni köç isə yenidən qurulan, gündən-günə abadlaşan, gözəlləşən Qarabağın, Şərqi Zəngəzurun dərdlərinə məlhəm olur, bu yerlər yenidən canlanır, evlər insan nəfəsi ilə hərarətlənir.

Tarixi zəfərlərimizin memarı, Müzəffər Ali Baş Komandan, Prezident İlham



Əliyevin tapşırığına uyğun olaraq sentyabrın 8-də Xocalı rayonunun Xanyurdu və Ağdərənin Vəngli kəndləri eyni vaxtda növbəti köç sevinci yaşadı. Belə ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu mərhələdə Xanyurdu kəndinə 46 nədərdən ibarət 15, Vəngliyə isə 29 ailə (105 nəfər) qayıtdı.

Hər iki kənddə yeni sakinlərin qarşılanması mərasimi keçirildi. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov doğma torpaqlarına qayıdan ailələrə yeni evlərinin açarlarını təqdim edərək bildirdi ki, burada sakinlərin rahat yaşayışı üçün bütün lazımi tədbirlər görülüb, müasir infrastruktur yaradılıb. Həm Xanyurdu, həm də Vəngli içməli su, elektrik enerjisi, təbii qazla, rabitə xətti ilə təmin olunub.

Məcburi köçkünlük həyatı sona çatan sakinlər isə illərdən sonra doğma yurdlarına qovuşmağın sevincini "Xalq qəzeti"nin oxucuları ilə bölüşdülər, hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə dövlət başçısına, torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad etdilər.

Qeyd edək ki, indiyədək Xocalının Xanyurdu kəndində 191 nəfərdən ibarət 54 ailənin, Ağdərənin Vəngli kəndinə isə 81 nəfərdən ibarət 22 ailənin daimi məskunlaşdırılması təmin olunub. Böyük Qayıdış prosesi mərhələli şəkildə davam edir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı, Xanyurdu**

# 7 min şagird dövlət hesabına musiqi təhsili alacaq

**Mədəniyyət Nazirliyi növbəti tədris ilində incəsənət məktəblərinə şagird qəbulunu başa çatdırıb. Qurumdan XQ-yə bildirildi ki, şagird qəbulu yerləri hər bir məktəbin müəllim potensialı, tədris infrastrukturu nəzərə alınmaqla müəyyənləşdirilib. Müraciətlərin dövlət sifarişli yerləri dəfələrlə üstələdiyi hallarda seçim ən yüksək nəticə göstərmiş iştirakçılar arasında aparılıb.**



Yüksək bal toplayan bütün namizədlərin dövlət sifarişli yerlərə qəbul olunmaması qeyd edilən səbəblərdən irəli gəlib. Xüsusilə fortepiano ixtisasına 9 min 213 müraciətin olması iddiaçıların həddən artıq çox olduğunu nümayiş etdirir. Şagirdlərin ixtisas seçimi zamanı bal göstəriciləri ilə yanaşı, yaş həddi və təhsil sistemi üzrə müəyyən edilmiş digər kriteriyalar da tətbiq olunub və bütün iştirakçılar üçün eyni şəkildə tətbiq edilib. Ən yüksək bal toplayan namizədlər məktəblərə qəbul olunublar. Texniki səbəblər və ya yaş kriteriyası səbəbindən dövlət sifarişli plan yerinə düşməyən yüksək nəticəli iştirakçılara, 80 və yuxarı bal toplayan, lakin dövlət sifarişli yerə qəbul olunmayan namizədlərə də ödənişli əsaslarla təhsil almaq imkanı yaradılıb.

Bildirildi ki, incəsənətə maraq göstərən uşaqlar məktəblərin nəzdində fəaliyyət göstərən kurs və dərnəklərdən yararlana bilərlər. Bu imkan həm də incəsənətə həvəs göstərən uşaqların yaradıcılıq bacarıqlarının dəstəklənməsinə xidmət edir. İncəsənət təhsilinin keyfiyyətinin artırılması, istedadlı uşaqların daha erkən yaşda üzə çıxarılması və onların inkişafı istiqamətində tədbirlər ardıcıl şəkildə davam etdirilir.

***Fidan ƏLİYEVA***
***XQ***

*Günün problemi*

# Bakının dərdi var, yollar tıxacdır...

**Yeni tədris ilinə, yay fəslinin isə başa çatmasına saylı günlər qalır. Sözsüz ki, Bakıda tıxac probleminin yeni tədris ilinin başlanması, paytaxt sakinlərinin isə yay tətilindən qayıtmaları ilə daha açıq şəkildə büruzə verəcəyi şübhəsizdir. Elə küçə və prospektlər, yollar var ki, demək olar, günün əksər saatlarında tıxaclıdır. Günü-gündən artan atomobil sayı, bəzi yerlərdə yol infrastrukturunun çatışmazlığı paytaxt Bakının bitməyən, hətta deyərdik ki, günü-gündən artan dərdidir. Belə olan halda hamını düşündürən bir sual meydana çıxır: paytaxtın ən böyük tıxac dərdi nə vaxtsa bitəcəkmi?**





**Nəqliyyat eksperti Elməddin Muradlı XQ-yə açıqlamasında bildirdi ki,** nəqliyyatda ötən ildəkindən fərqli yeni bir mənzərə gözlənilmir. Çünki bir neçə ay ərzində fundamental bir dəyişikliklər olmayıb. Sadəcə, elektrik nəqliyyat vasitələri – velosiped-skuterlərin hərəkəti üçün yeni zolaqlar salınıb, minik avtomobillərinin avtobus zolaqlarında mindirib-düşürmə zonaları yaradılıb. Hərəkətin təşkili ilə bağlı müəyyən yenilikləri özündə əks etdirən layihələr vardır ki, bu barədə AYNA tərəfindən ictimaiyyətə ətraflı məlumat verilib. Bu yeniliklər tətbiq olunanda nə kimi dəyişikliklərin baş verəcəyinin şahidi olacağıq. Burada əsasən Koroğlu Rəhimov küçəsi nəzərdə tutulur. Həsən Əliyev küçəsindən "Koroğlu" metro stansiyası istiqamətində də yeni yol çəkilir ki, bu da Ziya Bünyadov ilə Heydər Əliyev prospektlərinin yüklənməsinin qarşısını alacaq.

Eyni zamanda, Təbriz küçəsində də yeniliklər gözlənilir. Digər tərəfdən yeni yolların çəkilməsi ilə bağlı planlar var. Mövcud yolların genişləndirilməsi, şaxələndirilməsi istiqamətində işlər aparılır. Bu baxımdan, Prezident İlham Əliyevin 30 yanvar 2025-ci ildə imzaladığı "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda da nəzərdə tutulub. Əhalinin ən çox üz tutduğu yeni metro stansiyalarının tikintisinə də start verilib. Qırmızı və yaşıl xətlərin ayrılması istiqamətində addımlar atılır. Ağ şəhərdə yeni metro stansiyası tikiləcək. Bu 5 il ərzində Dövlət Proqramının birinci mərhələsini əhatə edən 2025-2030-cu illərdə 10 metro stansiyasının tikintisi nəzərdə tutulur.

Ekspert daha bir məsələnin vacibliyinə toxunaraq bildirdi ki, məktəblərin, iş yerlərinin fərqli saatlarda başlaması da mövcud problemin həllinə kömək edə bilər. Təəssüf ki, bütün ali və orta məktəb dərsləri eyni saatda başlayır, bəlli bir vaxtda da bitir. Şəhərdə də əsas tıxac məhz bununla əlaqədardır. Dərs olmayan vaxtlarda demək olar ki, paytaxtda tıxac hiss olunmur. Bu, həftə sonlarında daha açıq-aşkar hiss edilir. İş vaxtlarının başlanma-bitmə saatları da 5-6 arası standart götürülüb ki, bu saatlarda da bir qələbəlik müşahidə olunur.

Dövlət Proqramında qeyd olunduğu kimi, son 20 ildə ölkə üzrə əhalinin orta illik artım tempi 1 faiz təşkil etdiyi halda, Bakı şəhərində və ətraf ərazilərdə bu göstərici 1,3 faiz olub. Həmin dövr üzrə Bakı şəhərində hər 1000 nəfərə düşən avtomobillərin sayı 132-dən 320-dək artıb. Əhali sayının sürətli artımı şəhərin infrastrukturuna və xidmət sahələrinə, xüsusilə nəqliyyat sektoruna əlavə təzyiq göstərir.

Nəqliyyat eksperti sonda onu da qeyd etdi ki, Dövlət Proqramında nəzərdə tutulan işlər sürətlə yerinə yetirilməklə nəqliyyat sahəsində yaşanan problemlərin aradan qalxmasına səbəb olacaq. Sözsüz ki, paytaxt sakinləri də bu günü səbirsizliklə gözləyirlər.

***Müşfiq MİRZƏ***
***XQ***

# 8 ayda "ƏDV geri qaytar" – 124,7 milyon manat

**Bu ilin yanvar-avqust aylarında ƏDV-nin müvəkkil banklar tərəfindən istehlakçılara qaytarılan həcmi 124 milyon 658,4 min manat olub. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib.**




Qeyd olunub ki, ƏDV ölkə ərazisində pərakəndə ticarət və ya iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə, habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilib.

8 ayda xarici vətəndaşlar tərəfindən respublika ərazisində fərdi istehlak üçün alınmış mallara görə dövlət büdcəsindən qaytarılmış ƏDV-nin ("tax free") məbləği 6 milyon 944,9 min manat təşkil edib.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 191 (30885) 9 sentyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

## Fernandu Santuş istefaya göndərilib

**Futbol üzrə Azərbaycan milli komandasının baş məşqçisi Fernandu Santuş istefaya göndərilib. Bu barədə jurnalistlərə açıqlamasında AFFA-nın baş katibi Cahangir Fərəcullayev məlumat verib.**



O, yığmanın DÇ-2026-nın seçmə mərhələsinin II turunda evdə Ukraynaya qarşı keçirəcəyi oyundan öncə təşkil olunan mətbuat konfransında portuqaliyalı mütəxəssislə yolların qarşılıqlı razılıq əsasında ayrıldığını bildirib.

Millini DÇ-2026-nın seçmə mərhələsində bu gün Ukrayna yığması ilə saat 20:00-da Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək oyuna U-21 komandamızın baş məşqçisi Ayxan Abbasov çıxaracaq.

## Avropa Kubokunda gümüş medal

**Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisi Danimarkanın paytaxtı Kopenhagendə keçirilən Avropa Kubokunda gümüş medal qazanıb.**



Finalda Niderland seçməsi ilə üz-üzə gələn yığma rəqibinə 16:21 hesabı ilə məğlub olub.

Qeyd edək ki, Azərbaycan millisi daha əvvəl qrup mərhələsində Fransa (21:16) və Ukraynanı (21:14), 1/4 finalda Polşanı (16:13), yarımfinalda isə İspaniyanı (21:17) üstələyib. Millimiz tarixində ilk dəfə finalda çıxış edib.

## 5 nəfərə 7 medal

**Azərbaycan Gimnastika Federasiyasından bildirilib ki, bədii gimnastları San-Marino şəhərində keçirilən beynəlxalq turnirdə 7 medal qazanıblar.**



Yarışda ölkəmizi böyüklər yaş kateqoriyası üzrə İlona Zeynalova, Gövhər İbrahimova, Zəhra Cəfərova, gənclər yaş kateqoriyasında Şəms Ağahüseynova və Azadə Atakişiyeva təmsil ediblər.

Çoxnövçülük proqramında A.Atakişiyeva (93.884 xal) və Z. Cəfərova (97.650 xal) bürünc mükafat əldə ediblər.

Ş.Ağahüseynova top (23.917 xal) və lent (24.133 xal) proqramlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. A.Atakişiyeva gürzlərlə (25.000 xal) hərəkətlərdə qızıl, halqalarda (24.167 xal) isə ikinci nəticə göstərib. G.İbrahimova isə gürzlərlə (25.567 xal) hərəkətlərin icrasında üçüncü yeri tutub.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Gəncə axşamları sənət işığına möhtacdır



## *Şəhərin mədəni həyatına əlvanlıq gətirməyin vaxtı çatıb*

**Gəncə Azərbaycanın ikinci böyük şəhəri olmaqla yanaşı, həm də qədim tarixi, zəngin mədəni irsi və gözəl insanları ilə fərqlənən bir məkandır. Bu gün Gəncədə gəzməli-görməli yerlər kifayət qədər çoxdur. Abadlaşdırılmış bulvarlar, yenilənmiş parklar, yeni salınan xiyabanlar şəhərə xüsusi yaraşıq verir. Axşam düşər-düşməz minlərlə sakin və şəhərin qonaqları bu məkânlara üz tutur. Kimisi gəzintiyə çıxır, kimisi istirahət edir, kimisi də sadəcə şəhərin axşam nəfəsini duymağa çalışır.**

Ancaq bu mənzərəni daha da canlandırmaq, rəngarəng etmək mümkündür. Və bunun üçün nə böyük maliyyə, nə də illərlə gözləmə tələb olunur. Sadəcə, bir az təşəbbüs, bir az yaradıcılıq və bir az da ...

Gəlin nəzərə alaq ki, parklar, bulvarlar, xiyabanlar yalnız gəzinti üçün deyil, həm də mədəniyyətin nəfəs aldığı, sənətin nümayiş olunduğu məkanlar olmalıdır. Bir anlığa təsəvvür edin ki, axşam saatlarında Gəncənin ən gözəl parklarında zərif musiqi səslənir, bir küncdə aktyorlar səhnəcik qurur, digər yanda rəssamlar portret çəkir... İnsanlar təkcə dincəlmir, həm də ruhən qidalanır, estetik zövqlə əhatə olunurlar. Yaxud Cavad xanın məqbərəsi qarşısında bir trio caz ifa edir, "Xan Bağı"nda rəqs qrupu folklor nömrəsi təqdim edir, "Gəncəçay Bulvarı"nda isə açıq səhnədə gənc şairlər poeziya gecəsi keçirir. Bütün bunlar təkcə şəhəri bəzəməz, həm də şəhər sakinlərinin və turistlərin yaddaşında silinməz izlər buraxar.

Bu baxımdan Gəncə Regional Mədəniyyət İdarəsi tərəfindən həftədə heç olmasa üç dəfə – cümə axşamı, şənbə və bazar günləri müxtəlif istirahət məkanlarında konsert proqramları, əyləncəli şoular, sənət əsərlərinin nümayişləri təşkil olunsa, nə gözəl olar! İncəsənət ustaları, musiqi məktəblərinin şagirdləri, mədəniyyət evlərinin kollektivləri, həvəskar ifaçılar, hamısı bu tədbirlərə cəlb edilə bilər.

Yeri gəlmişkən, idarənin tabeliyində olan Goranboy, Naftalan, Samux, Göygöl, Daşkəsən rayonlarının da potensialı həmin işə qatılarsa, bu mədəni təşəbbüs təkcə Gəncə ilə məhdudlaşmaz, bütöv bir bölgəyə yayılmış olar.



Bu cür tədbirlərin daha bir önəmi gənc istedadlar üçün səhnə imkanının yaranmasıdır. Musiqi məktəblərinin şagirdləri, gənc aktyorlar, şeir və sənət həvəskarları üçün "Açıq mikrofon" formatında proqramlar təşkil edilə bilər. Bu, həm onların özlərini sınamaları, həm də cəmiyyətə təqdim olunmaları üçün böyük fürsət olar. Gənclər nə qədər çox səhnəyə çıxsa, bir o qədər özlərinə inamları artar, istədiklərinə nail ola bilərlər.

Belə tədbirlər, eyni zamanda, ailələrin birlikdə vaxt keçirməsi üçün də yeni və faydalı bir alternativdir. Axı hər ailə axşam saatlarında həm istirahət etmək, həm də övladlarına gözəl bir mühit göstərmək istəyir. Uşaqlar üçün teatr tamaşaları, böyüklər üçün canlı musiqi ifaları, ailəliklə izlənəcək klassik film gecələri, bax, bunların hamısı şəhər həyatına başqa bir abu-hava qata bilər.

Gəlin şəhərin gecə həyatını yalnız səhnələrdə deyil, elə parkların özündə yaşadaq. Küçələrin bir hissəsində xalq sənətkarlığı yarmarkaları qurula bilər. Xalçaçılıq, keramika, ağac oyma, milli geyimlər və suvenirlər burada həm nümayiş etdirilər, həm də satılar. Bu, bir tərəfdən sənətkarlar üçün əlavə qazancdırsa, digər tərəfdən şəhərin mədəni kimliyini qorumağın və tanıtmağın yollarından biridir.



Rəssamların canlı şəkildə portret çəkdiyi, heykəltəraşların öz sənətini nümayiş etdirdiyi "sənət guşələri" yaradılarsa, həm maarifləndirici, həm də əyləncəli bir mühit yaranar.

Gəncənin mədəni axşamlarını kino və yumor proqramları ilə daha da canlandırmaq olar. Açıq havada ekran qurularaq klassik Azərbaycan filmləri və ya müasir qısametrajlı filmlər nümayiş etdirilsə, şəhər bir anda nostalji dolu, sevgi dolu bir ab-havaya bürünər.

Yumor gecələri, parodiya şouları, digər müxtəlif mövzularda çıxışlar isə xüsusilə gənclər üçün maraqlı olar. İnsanlar bir araya gələr, gülüşər, gündəlik gərginliklərdən azad olar. Bu cür tədbirlər şəhərin enerjisini artırar, insanlara psixoloji rahatlıq verər.

Çox vaxt şəhərlərdə mədəniyyət tədbirləri yalnız bayram günlərinə və rəsmi tarixlərə saxlanılır. Ancaq bu, doğru yanaşma deyil. Mədəniyyət bayram deyil, həyatın özü olmalıdır. Gəncə bu baxımdan niyə örnək bir şəhər olmasın? Niyə insanlar yalnız tədbirdən-tədbirə musiqi sədaları eşitsin? Niyə hər həftə sənət, söz, musiqi, teatr onların həyatını rəngarəng etməsin?

Davamlı olaraq keçiriləcək tədbirlər şəhərin ritmini dəyişər. İnsanlar televizor qarşısından qalxar, parklarda sənətlə birgə nəfəs alar. Bu isə həm turizm üçün əlavə imkanlar, həm də ictimai birliyə töhfə yaradar. Bu təşəbbüsləri həyata keçirmək heç də böyük maliyyə tələb etmir. Sadəcə, işləri bir qədər düzgün planlaşdırmaq, bir az təşkilatçılıq və bir az da ürəkdən gələn istək kifayətdir. Yəni ideya var, maraq var, məkânlar da nə qədər desən.

Unutmayaq ki, istənilən şəhər, o cümlədən Gəncə, təkcə yaraşıqlı, lakin quru binaları ilə deyil, orada yaşayan insanların ruhu, yaratdığı mədəniyyətlə gözəlləşə bilər. Gəncə bu gün tarixini qoruyaraq, sənəti və musiqini hər gün yaşatmağa hazır olan bir şəhərdir. Gəlin bu gözəlliyi birlikdə yaradaq.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri,*
*Rövşən Əmiraslanoğlu (foto)*
*Gəncə*

## Alimlərimizin əsərləri Böyük Britaniya kitabxanasında

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadənin "Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması" və institutun beynəlxalq əlaqələr şöbəsinin müdiri fəlsəfə üzrə fəlsəfə doktoru Zöhrə Əliyevanın "XIX əsrin sonu–XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik və dövlət quruculuğu" kitabları Böyük Britaniya Kral Cəmiyyətinin kitabxanasının və Milli Kitabxananın fonduna təqdim olunub.**



AMEA-nın istimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan tədqiqatçılarının kitabları ilk dəfə olaraq Kral Cəmiyyətinin kitabxanasında təqdim olunur. Bu əlamətdar hadisə Azərbaycan və Böyük Britaniya arasında elmi və mədəni dialoq üçün yeni perspektivlər açaraq milli elmin beynəlxalq nüfuzunu möhkəmləndirir.

Qeyd edək ki, kitablar ideyalar tarixi, fəlsəfə və mədəni əlaqələr sahəsində mühüm tədqiqatları əks etdirərək Azərbaycan elmini beynəlxalq səviyyədə təqdim edir.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Hava

### Bakıda yağmursuz, bəzi rayonlarda ötəri yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 20-25, gündüz 28-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 757 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-23, gündüz 30-35, dağlarda gecə 9-14, gündüz 17-22 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi AMEA-nın vitse-prezidentlər xidmətinin elmi katibi Zümrüd Mənsimovaya anası

**ZÜLEYXA SƏMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3464
SİFARİŞ 1739
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00